41 Dindən əvvəl Sevgi özü Din idi...

Sergey Yesenin tərcümə saatı 43

46 Şərəf Yılmaz Konsulun köpəyi

İslam Sadıq şeir vaxtı 55

58 Orxan İsmayıl Ən yaxın dost

59 Sevil İşıq Ölməyimə dəymədin...

60 Səxavət Sahil Məhəbbətini əbədi heykəl qoyan...

63 Aygün Məmmədzadə debüt

64 Əlirza Həsrət şeir vaxtı

65 Leyla Əsədullayeva Tanqo

66 Nurlan Ağa Ana hakimiyyəti, yoxsa?..

69 Şəfəq Sahibli şeir vaxtı

70 Rauf Qərib Sən gecikmə...



71 Ülviyyə Kərəmqızı Cənnət səsləri

74 Emin Piri dərgidə kitab






**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs

**Redaksiya heyəti**
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Şəhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

**Bədii redaktor**
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 08.06.2016
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. №75, Tiraj: 300
Qiyməti: 2 man.

**1967-ci ildən çıxır**
**Şəhadətnamə № 238**

**Nömrənin eksperti:**
Əjdər Ol




**«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**«Ulduz»** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

**«QAYA» MƏTBUAT YAYIMI**

**«Ulduz»** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**«EKSPRESS» MƏTBUAT YAYIMI**

**«Ulduz»** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

## Jurnalın

**1 aylıq abunə qiyməti – 2.00 man.**

**6 aylıq abunə qiyməti – 12.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**440 – 27 – 85**
**440 – 39 – 83**
**440 – 46 – 94**

**564 – 63 – 45**
**598 – 35 – 22**
**556 – 67 – 13**
**564 – 48 – 96**

**437 – 28 – 10**
**408 – 17 – 51**

**nömrəli telefonlara zəng edə bilərlər.**

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

# Çağdaş ədəbi prosesin ulduzu

("Ulduz"un may sayına baxış)

Nizaməddin ŞƏMSİZADƏ

Ədəbi–elmi əsərlərin, mətbuat orqanlarının da ömrü insan ömrü kimidir. Cəmi bir sayı çıxandan sonra yox olub itənləri də var, yüz il yaşayıb təravətli qalanları da: "Əkinçi" kimi, "Molla Nəsrəddin" kimi, "Füyuzat" kimi, "Tərcüman" kimi... Böyük ədəbi-tarixi şəxsiyyətlər kimi, jurnallar da sadə həyat yaşamır, xidmət etdiyi millətin, mədəniyyətin mövcudluğu və məramı naminə döyüşür, mücadilə aparır və qalib gəlir: "Füyuzat" kimi...

Mətbuat millətin kimliyini təsdiq edən ən etibarlı sənəddir, onun tarixi, milli varlıq uğrunda mübarizələrinin salnaməsidir. Ağır gəmiləri okeanda istiqamətləndirən kompas kimi, mətbuat da millətin tarixdə hərəkətini düzgün səmtə yönəldir...

Mənə bu fikirləri söylədən "Ulduz" 60-cı illərin- 60-cıların yavrusudur və 50 ilə yaxındır ki, öz şərəfli adını - ədəbi prosesin ulduzu titulunu zirvədə saxlayır. Alman filosofu Nitsşe deyir: "Tarixdə ən kəsə yol zirvədən-zirvəyə gedən yoldur, ancaq bunun üçün gərək uzun ayaqların olsun..." "Ulduz" yarım əsrdir ki, cəsarətlə, eyni əqidə və amalla ədəbi zirvələrdə addımlayır.

İndi budur, "Ulduz"un 2016-cı il beşinci sayı qarşımdadır, mən ona ekspert kimi rəy verməliyəm. Ən azı müstəqillik dövrü –son çərək Azərbaycan ədəbiyyatının kontekstini saxlamağı bacarsam, tənqidimin nəzəri-metodoloji prinsipləri obyektiv tarixilik prinsipinə əsaslansa, "Ulduz"un bu sayındakı ədəbi məhsula münasibətimin estetik meyarları düzgün olacaq.

Çağdaş – müstəqillik dövrünün ədəbi prosesi bir az ziqzaqlı durumdadır. Qərb ədəbi-estetik dəyərləri doğma Şərq estetikasını qeyzlə sıxışdırmağa çalışır, lakin Şərq bədii ehkam və ənənələri, ötən əsrlərdə olduğu kimi, yenə alınmaz mənəviyyat qalası kimidir, bir sıra ekstrovaqant (daha doğrusu, konyuktur!) müəlliflər cəbhədən-cəbhəyə revanşla məşğuldur – modernizm olmayan bir ədəbi prosesdə postmodernist – bədii cəhətdən uğursuz tryuklar edirlər: ədəbiyyatşünaslıq və tənqiddə feminist (silahsız!) cəngavərlər parıltılı dəbilqələri ilə göz qamaşdırmağa çalışırlar, bu gün ədəbi prosesdə həlledici mövqeyə malik olanlar – 60-cılar həm nəsr, həm də poeziyadakı uğurlarını əzmlə qoruyub saxlayır, bunun üçün mifdə, nağılda, eposda, mistik çevrilmələrdə yeni bədii forma, yeni start meydançası axtarırlar; yeni əsrin tarixi prosesi olan qloballaşma mədəniyyətlərin inteqrasiyası məcrasında millilik amilini sıxışdırır; akademik elm böhran keçirir, bəziləri onlara bağışlanmış akademik titulunun arxasında dayanmağın əzabını yaşayır; ədəbi tənqid meyarsızlıq (və cəsarətsizlik) sindromundan yaxa qurtara bilmir... Bütün bunları "Ədəbiyyat qəzeti"nin, "Azərbaycan" dərgisinin və "Ulduz"un builki, ötənilki, beş il bundan öncəki... saylarında görmək olar.

"Ulduz" bu sayında dövrün və ədəbi prosesin tələbinə, bir az da tələbkar oxucuların zövqünə uyğun maraqlı görünməyə çalışır və əsasən buna nail olur. Jurnal Əyyub Qiyasın dördüncü saya

yazdığı “Yaxın və uzaq “Ulduz”” adlı ekspert rəyi ilə açılır. Rəyə rəy söyləməyi münasib bilmirəm...

Bu sayda Gülnar Səmanın, Şəfa Vəlinin, Allahşükür Ağanın, Elnur Uğurun, Qədiməli Əhmədin, Vüsalə Süleymanın, Zaur Sahilin... şeirləri dərc olunub. Gənclərin poeziyası məni təəccübləndirə bilmədi. Onları oxuyanda məni ətəyinə baş qoyub şeirinin alimliyinə dua etdiyim Füzulinin təri basdı... Bir də B. Vahabzadə, Əli Kərim, M. Araz, R. Rövşən – 60-cı illərin novatorlarını xatırladım.

“Ulduz”un və ümumən müasir şeirimizin (əsas!) yeniliyi bundan ibarətdir ki, şeirlərin adları və misraları kiçik hərflə başlayır. Şeirimiz böyük hərflərdən ya küsüb, ya da imtina edib.

“Ulduz” – 5-də iki möhtərəm yazıçımızın - Qərib Mehdinin “Filosof” və Natiq Rəsulzadənin “Bartolomeo” hekayələri (rus dilindən tərcümə Arifə Arifqızınındır) çap olunub. Ənənəvi tərzlərinə baxmayaraq, hər iki ədibimiz ömür, tale, vətən kimi anlayışlara yeni fəlsəfi məna verməyə çalışırlar.

Tural Sahabın “Bir dəlinin manifesti” və Pərviz Seyidlinin “Tünd qəhvə ətirli talelər” yazıları orijinal düşüncə tərzi ilə fərqlənir. Onlar dünyanı yeni səmtdən görə və göstərməyə çalışır.

Müasir gender ədəbiyyatşünaslığının müxtəlif mərtəbələri var. Məsələn, Azadə Rüstəmova, Gülrux Əlibəyova, Nərgiz Paşayeva, Fəridə Vəlixanlı, İfrat Əliyeva, Vəcihə Feyzullayeva, Mahirə Quliyeva, Aida Qasımova, Gülşən Əliyeva-Kəngərli... Çağdaş Füzulişünaslığın araşdırıcısı, dünya ədəbi prosesində möhtəşəm cərəyan olan sufizmin həssas tədqiqatçısı Gülşən Əliyeva-Kəngərli, H. Cavid, C. Cabbarlı, S.Vurğun, R.Rza, B.Vahabzadə, M.Araz, V.Səmədoğlu haqqında orijinal məqalələr müəllifidir. O, poeziyada bədii-fəlsəfi ənənəni dirildən tənqidçidir. “Ulduz”un bu sayında “Ölmüş dünya haqqında nikbin elegiyalar” məqaləsində o, XX və XXI əsrin canlı klassiki, fəlsəfi – intellektual şeirimizin öncülü Ramiz Rövşənin yaradıcılığını gündəmə gətirir. Məqaləni oxuyanlar hiss edəcəklər ki, o, şeirin bəndlərini, misralarını təhlil etmir, sanki şairin qəlbində oturub şeirin qəlbdən kağıza necə köçdüyünü – bu ilahi-psixoloji marafonu izləyir. Onun məqaləsində güclü fəhm hakimdir, o, şairin poetik mövqeyini öz mövqeyinə çevirə, Füzuli ilə R.Rövşən arasında sekundant ola bilir. Lakin... müəllifin qəlbi uca tutub idrakı aşağılaması ilə razılaşmaq olmaz. Bu, Füzuli yaradıcılığında, Gülşənin araşdırdığı sufilərin irsi ilə bağlı özünü doğruldur. R.Rövşən isə həm də müasir Avropa qiyafəli şeirin klassikidir, onun şeirinin öz (mürəkkəb-simvolik!) poetik hüsnü var.

Məti Osmanoğlunun, Aida Aysanın təqdimatları jurnalın ədəbi palitrasını müəyyən qədər zənginləşdirir.

Jurnalda dərc edilmiş digər “xırda” yazılar ədəbi tənqidə davam gətirmir... Və bir də bir-iki misra ilişib qaldı yaddaşımda:

**...Qayaları sərxoş idi,**
**adamları tay-tuş idi,**
**küçələri tay-keş idi...**
**Kim idi qalxan o boyda dağı? –**
**yağışdan sallanıb enirdi qonağı...**

Bu şərəfli missiyasında ağsəsli “Ulduz”a uğurlar diləyirəm. Ulduzlar sönmür, tarixin yaxasında Şərəf ordeni kimi taxılıb qalır. Çünki ulduzlar işığını Tanrı çırağı Günəşdən alır.

Elşən ƏZİM

## özüylə söhbəti...

**- "Yolların əvvəli, axırı taraz" deyirsən. Bu tarazlığı saxlamaq həmişə mümkün olurmu?**

- Bu ilahi meyardır. Min illərdir ki, insan taleyi bu yolların tarazlığı arasında yüksəlir, alçalır, udur, uduzur. Olum- ölüm kəsimində bir yaşam var. Bax bu yaşam müddətində tarazlığı qorumaq mümkün deyil. Əvvəli, axırı taraz olan yollar da bir-birindən çox fərqlənir. Dünyada nə qədər insan varsa, bir o qədər yol var. Və hər kəsin ayrı bir yolun qulu olması "yoldaş" anlayışını heçə endirir. Demək, dünyada hamı tənhadır. Elə mən də bu tənhalardan biriyəm.

**- Bəs sənin yolçuluğun haradan başlayıb, hayana üz tutur?**

- Dünyanın ən gözəl bir kəndində müəllim evində, ədəbiyyatçı ailəsində doğuldum. Elə tutduğum yol da müəllimlik və ədəbiyyat oldu. Həm də sazlı-sözlü bir elin ənənəsindən, yaddaşından sıyrılıb gəldim. Cəhd etsəm də, o ənənədən, o yaddaşdan uzaqlaşa bilmirəm. İndi o kəndin, o elin taleyi dünyanın gah o başında, gah bu başında müzakirə olunur. O kənd isə dünyanın elə həmin yerində dayanıb dağılmış evlərinin gözü tökülmüş pəncərələrindən baxır.

Atamın mənə göstərdiyi yalnız düz yol oldu. Özü də ömrü boyu düz yol tutdu. Mən isə onun göstərdiyi yolla gedə bilirəmmi? Bax bu sualın cavabını vermək hələ tezdir. Fəqət gördüyüm, dərk etdiyim odur ki, düz yolu getmək o qədər də asan deyil. Yaşadığım Mİngəçevir şəhərindən Bakıya Şamaxı yolu getmək, Ağsu dolaylarından aşmaq daha maraqlıdır. Kürdəmir yolu isə adamı yorur. Həyatda da düz yol tutmaq, bəlkə də, darıxdırıcı və yeknəsəkdir. Ancaq başqa bir yol da tanımıram.

**- Bir də Tanrıya sarı yönələn yol var.**

- Bu, elə həyatda tutduğun yolun davamı və nəticəsidir. Mən sufi deyiləm, ancaq bir zamanlar ürfani şeirlər də yazdım. Əslində, şeir yazmaqdan çox, təsirə düşmək idi. Sonra anladım ki, dövrümüzdə ürfan şeiri yazanların çoxu sufi ömrü yaşamır, yazdıqları başqadır, etdikləri başqa. Başa düşdüm ki, bu, özünü və oxucunu aldatmaqdan başqa bir şey deyil. Bəlkə də, Tanrıya doğru üz tutmaq hansısa sufi ömrü yaşamaqdan, əzablara qatlaşmaqdan keçmir.

Əslində, dindar da deyiləm. Hətta çoxu mənim ateist olduğumu düşünür. Ancaq Tanrını çox böyük və çox uca bildiyim üçün onu hansısa dinin boyu bərabərinə endirə bilmirəm, hansısa kitabın çərçivəsinə sığdıra bilmirəm. Mənim tanıdığım Tanrı qədim türklərin Tanrısıdır.

**- Yollarda müəyyən keçidlər də, qapılar da var. Bir şeirində "əyilib keçmirdin alçaq qapıdan, ta sən də başını əy, hamı keçdi" deyirsən. Bu əmrini yerinə yetirə bildinmi?**

- Hələ ki bacarmıram. Sonrası necə olacaq, deyə bilmərəm. Bəlkə də, bu misram zamana, insanlara ironiyadır. Hansısa məqsəd üçün kiminsə qarşısında əyilə biləcəyimi düşünəndə ürpənirəm, özümdən iyrənirəm. Bunu təsəvvürümə gətirəndə özümə həm gülməyim tutur, həm yazığım gəlir. Birisinin övladına çörək qazanmaq üçün əyilməsi, bəlkə də, başa düşüləndir, ancaq şöhrət üçün, ad üçün əyilməyi heç cür sınıra bilmirəm. Ədəbiyyata, incəsənətə doğru yol gələn gənclərin şöhrət üçün dəridən-qabıqdan çıxdıqlarını görəndə sözdən-sənətdən də qaçmaq istəyirəm. Sözdən qaça bilməsəm də, ədəbi mühit deyilən dəstələrdən uzaq durmağı bacarıram.

**- Yeri gəlmişkən, ədəbi mövqe deyilən bir anlayış da var. Sənin mövqeyini bilmək olarmı?**

- Çalışıram ki, ədəbiyyata obyektiv yanaşım, yaxşı əsərin tərəfini saxlayım. Ədəbi gəncliyin dəstələrdə birləşməsi, təşkilatlanması özlərinin ziyanınadır. Ancaq özləri bir-birini görür, bir-birini tanıyır. Başqa əsər oxumurlar. Hətta 30-cu illərin komsomolçularına bənzəyən gənc yazarlar da var. Biri ənənəni bəyənmir, o biri modernizmi. Ancaq bir həqiqət də qaçılmazdır. Ənənəni bəyənməyənlər daha intellektli, yeniliyə üsyan edənlər isə daha populist görünürlər. Görünməyən isə istedaddır. Təva\zökarlıqdan uzaq olmasın, mən bu fikirləri sadəcə bir oxucu və ədəbiyyat müəllimi kimi söylədim.

**- Ancaq hər şey istədiyin kimi getmir. Nə zaman səhv etdin, harada yanlış yapdın?**

- Nə zaman və harada səhv etdiyimi bilsəydim, bunun qarşısını alardım, ikinci dəfə səhvə yol verməzdim:

Birdən öz əlim şığıyır öz qulağımın dibinə,
Anlamıram niyə dəyir qapaz özümdən özümə?

Bəlkə də, ritorik sual kimi görünür, ancaq doğrudan da, özümdən özümə dəyən qapazın mənasını anlamıram. Bu sualın cavabını hələ tapmamışam.

## ... və poeması

### GÖY ÜZÜNDƏ BARMAQ İZİ

(neo-poema)

PROLOQ

Bu yol sən göstərən yol deyil, ata,
hansı addımımda nə qələt oldu?
Yol azdım mən hansı yolayrıcında,
mən hansı döngəyə nabələd oldum?

Məni zərrə-zərrə dəyişdirdilər,
məni damla-damla bulandırdılar.
Geriyə çəkilən saatlar kimi,
meylimi nahaqqa dolandırdılar.

Burda iz görmədim, ləpir görmədim,
bu yolda üz yeri, diz yeri gördüm.
Ağzıma su alıb dinmədim, ancaq
hər üzdə bir yağlı söz yeri gördüm.

Bu yolda kimsəylə tutmur mənimki,
bu yolda dilim də söz tutmur axı.
Bu gün mən özümə tanış gəlmədim,
bu gecə gözümə getmədi yuxu.

Bir sümük atdılar, əl əldən aldı,
hərə bir daxıldan yem oğurladı.
Bu ağlı başıma kim qoydu mənim?
o könlü sinəmdən kim oğurladı?
Bu yol sən göstərən yol deyil, ata...

**VƏ GÖSTƏRDİYİN YOL**

Dırnağının bir tərəfi uşaqkən zədələnmiş
şəhadət barmağını qaldırardın yuxarı.
Anam deyərdi:
“bu kişi barmağını qaldırdısa,
hər tərəfi bağlayacaq,
“mümkünsüzdür” deyəcək hər işə”.
“Olmaz” dediyin yollarda olacaqlar var imiş,
O vaxt görə bilmədiyim
qaranlıq, sirli-sehrli
künc-bucaqlar var imiş.

Döngələri bilirdim,
bilmirdim ki, yolların küncü olurmuş.
Küncə qoyulanlar,
küncə qısılanlar,
küncdə gizlənənlər
vaxtı çatanda birinci olurmuş.

Yollar ayaq izlərini duyur,
yollar ayaqqabısından tanıyır adamı,
amma dillənə bilmir
və qubarlanıb toz dilində danışır.

Adamın ciyərləri anlayır
yolların toz dilini.
Yolların tozu anladır
yolçuların dumanlı niyyətini,
ağır ayağını, əyri əlini.
Və bir də o qoca qarı
süpürgə mizrabla
çalır yolları.
Sim kimi tarıma çəkilir yollarda
süpürgə cızıqları.

Və bir də darıxmaq var -
dopdolu yollarda tək qalıb darıxmaq.
Sən göstərdiyin yolu məndən başqa gedən yox,
sən göstərməyən yolda söhbətim tutan adam.
Və beləcə şər qarışır, düşür axşam.
Ağrı var yolların yorğunluğunda.
oturub bir səhra yulğunluğunda
(onsuz da düz yollar susuz səhradan keçir).
Pıçıldayıram sənə
sağlığında deyə bilmədiklərimi.

***

Əvvəl şaqqanaq çəkib gülməyin öldü
sonra səsin,
sonra əsəbin, qəzəbin.
Sonra da şəhadət barmağını qaldırıb
yol göstərməyin öldü.
bax onda itirdim yolun səmtini.

Bəlkə də, qayıdacaqsan.
Bəlkə də, getmisən
gülüşünü, səsini, əsəbini, qəzəbini
və şəhadət barmağını gətirməyə.

Getdiyin düz yolda tapdınmı
axtardığın ədaləti, həqiqəti?
Özündə olanları kənarda axtarmağa
nə lüzum vardı axı.
Və bu axtarışda
getmədi gözünə yuxu,
gəlmədi ürəyinə qorxu.

Düz yol ölçüləri silinmiş xətkeş kimidi -
nə qədər getdiyin bilinməz,
nə qədər gedəcəyin bəlli olmaz.
Düz yol başı əzilmiş ilan kimidi,
qıvrılmağı yox, dolanmağı yox.
Yox, bunu səhv dedim.

Düz yolu barmağına dolayanlar,
təsbeh kimi bulayanlar var.
Düz yolun yolçuları da
təsbeh muncuqları kimidi:
bir boyda, bir biçimdə.

***

Deyirdin:
“Bütün pisliklərin adı - OĞURLUQ
Bütün oğurluqların adı - YALANdır”
Yalanı kirli bədəninə təmiz paltar kimi
geyindi adamlar.
Kimisə aldada bildikləri üçün
öyündü adamlar.
Sən inanmadın belə şeylərə.

Döydü qapımızı xəbər donunda,
doldu evimizə muğam səsində.
Bir sırtıq tamada mikrofonunda,
bir sürtük aşığın zənguləsində
bəzəndi yalan.

Uzandı yalan -
artdı sıra kimi, silsilə kimi,
uzandı sağ əldən sol ələ kimi
uzandı bu eldən o elə kimi.

Gözünün ucuyla ötürdüyünü,
qovub nəfəsini bitirdiyini,
sənin düz danışıb itirdiyini
qazandı yalan.

Nəsihət verməyi sevməzdin,
Deyirdin, nəsihət adamı tərbiyə etmir,
yalana sürükləyir.
Məsəl çəkməkdən zəhlən gedirdi.
Deyirdin:
Yoxdur əməl edən o hikmətlərə-
hikmətli məsəli çox olan xalqlar,
daha çox bələnib müsibətlərə.

Kinayə, rişxənd, sarkazm -
bunlar idi tərbiyə üsulun.
Bir səhvi bir daha təkrar etməməyim üçün bəs idi
bir öldürücü gülüşün.

Şayiələr, yalanlar, böhtanlar dastanlaşır
və dastançılıq məharətimiz
yalançılıq istedadımızın törəməsidir.
Niyə yaponların dastanı yoxdur? –
deyirdin.

***

Nəfsin ayağın altında
cüt avarlı qayıq idi.
Yüz tufan içindən keçdin,
qaldı ayağın altında,
çönmədi başın üstünə.

Yaş gəldi yaşın üstünə,
harama tamah salmadın,
heç ağlına da gəlmədi,
fikrin üstə təzə fikir,
sözün üstə söz gəlmədi.
Səninki bu cəmiyyətlə
Düz gəlmədi.

Mən daha çox oxşamışdım,
daha çox çəkmişdim sənə.
Və bir gün azar haqladı səni –
Parkinson.
Və son.
Barmağın yol göstərməkdən,
ağzın kəsərdən düşürdü.
Və bundan sonra-
"məni zərrə-zərrə dəyişdirdilər,
Məni damla-damla bulandırdılar."

Hardasa küləklər əsdi,
hardasa budaqlar əsdi,
Hardasa yarpaqlar əsdi.
əlin əsdi,
dilin əsdi.
Və, nəhayət, barmağın əsdi
və bundan sonra-
"geriyə çəkilən saatlar kimi
meylimi nahaqqa dolandırdılar."
Sənin cismin, mənimsə
əqidəm parkinson oldu.

# Sarmaşığın intiharı

Nisə RƏHİMOVA

3-4 ay ərzində boyu xeyli artmışdı. Çox rahatlıqla birinci mərtəbənin pəncərəsinə toxuna bilirdi. Amma bir arzusu var idi. Onun pəncərəsinə toxunmaq. Onu istədiyi vaxt olmasa da, daha çox görmək. Adi vaxtlarda sadəcə onu evin arxasındakı həyətə gələndə görürdü. Bu isə kifayət etmirdi. İnsan sevdiyini görməyəndə daha çox ona qovuşmağa can atır. Amma o, insan deyildi. Canlı olsa belə, bu cür düşüncələri ağlına gətirə biləcək bir beyni yox idi. Canlı olmaq da bu həyatda hər şeyi həll etmir.

Hər gün var, gəl edib bir az da yuxarı dartınırdı. Beləcə günlər günləri, aylar ayları qovub bir ili tamamladı.

Bir yaz səhəri azacıq aralanmış pərdənin içindən evə boylandı, gördüyü mənzərə onu sarsıtmışdı. Qadın, masanın üstündə dibçəkdəki gülün torpağını dəyişirdi. Elə incəliklə güllə davranırdı ki, sanki gül şüşədən düzəldilmişdi. İndi illərlə çəkdiyi əziyyətin hədər olduğunu izləməli olmuşdu.

Onun insanların zövqünü oxşayacaq gülləri yox idi. Üstəlik, arzuolunmaz maneə olduğuna tərəddüd belə etmirdi. Bu an paltar ipinə nəzər yetirdi. Yaşamağı üçün sərf etdiyi vaxta heyifsləndi. Sarmaşıq, ipin üzərinə atıldı və özünü paltar ipinə dolayıb kökünü torpağın içində tərk etdi.

...Səhəri gün qadın paltar asmaq üçün pəncərəni açanda ipə dolaşmış sarmaşığı təmizləyib yerə atdı.

# Sürət qatarından mavi səmaya – Kaci Motociro Yolu

Təranə TURAN RƏHİMLİ,
*filologiya üzrə*
*fəlsəfə doktoru, dosent*

O, ədəbi taleyi gətirməyən, şəxsi həyatı qəm, kədər, xəstəlik və dürlü-dürlü dərdlər içində məhv olan bir yazıçı ömrü yaşadı. Cəmi otuz bir illik bu ömrün səhifələri başdan-başa hüznlə yazılmış rekviyemə bənzəyir. Qayğısız uşaqlıq illəri keçirməyən, gəncliyini nəinki xoşbəxt, hətta bir gün belə istədiyi kimi fərəhli yaşaya bilməyən, bəxtsizliyi ilə hamıda təəssüf və kədər doğuran bir insan ömrü haqqında rekviyem... XX əsr yapon yazıçısı Kaci Motociro bütün həyatını bədbəxtliklə mübarizə aparmağa həsr elədi. Cismən bu mübarizədə məğlub tərəf kimi görünsə də, mənəvi güc və istedadın təhrikilə yaratdıqları onun çətin həyat üzərində qələbəsi kimi tarixin yaddaşına həkk olundu.

Kaci Motociro 17 fevral 1901-ci ildə Yaponiyanın məşhur Osaka şəhərində sadə və kasıb bir ailədə dünyaya göz açmışdı. Firma qulluqçusu olan atası Hotaro, uşaq bağçasında tərbiyəçi işləyən anası Hisa ailəni çətinliklə dolandırırdılar. Maddi ehtiyacları heç vaxt tam təmin olunmayan, pulları bəzən ən sadə yeməyə belə çatmayan çoxuşaqlı ailə həmişə taleyin sınaqları ilə üz-üzə idi. Atasının işi ilə bağlı Kacinin ailəsi tez-tez yaşayış yerini dəyişməli olurdu. Lakin ailədə böyüyən doqquz uşağın sıxıntısı təkcə maddi imkansızlıqla bağlı deyildi. Övladlarına heç vaxt örnək ola bilməyən ata çox içki içir, əyyaşlığı ilə həyat yoldaşını və uşaqları təngə gətirirdi. Uzun illər davam edən ailədaxili münasibətlərin gərginliyi, təbii ki, uşaqların tərbiyəsinə və psixoloji durumuna da öz mənfi təsirini göstərirdi. Sonralar Kacinin həyatdan üz döndərməsinin, küskünlüyünün, böhran keçirib içkiyə qurşanmasının təməlində ailəsindəki bu mürəkkəbliyin, ziddiyyətin müəyyən rolu olduğunu təxmin etmək heç də çətin deyil. Övladlarının yeganə mənəvi dayağı olan Hisa ən həssas uşağı Kaci üçün təkcə fədakar ana yox, həm də həmişə gərəkli insan, həmdərd, həmsöhbət olmuşdu. Oğlunda ədəbiyyata ilk həvəsi oyadan ana bu məhəbbəti ömürlük onun ruhuna hopdura bilmişdi.

Həmin dövrdə kütləvi informasiya vasitələrinin qıtlığı – dövrü mətbuatın məhdudluğu, radio və televiziyanın yoxluğu, təzə və tək texniki avadanlıq sayılan patefonu bahalığına görə hər ailənin ala bilməməsi dünyagörüşün, eləcə də estetik zövqün formalaşmasında yeganə amil kimi kitab mütaliəsini zəruri etmişdi. Bu illərdə, bütün Yaponiyada olduğu kimi, Motociro ailəsində də uşaqlar böyüklərlə yanaşı, Natsume Soseki və Mori Oqayın əsərlərini oxuyur, həyata baxış tərzləri bu görkəmli milli yazıçıların bədii irsinin təsirilə müəyyənləşirdi. Kaci Motocironun xüsusilə, Natsume Sosekiyə sevgi və rəğbəti sonsuz idi. O, yazıçını dahi sənətkar və özünün idealı bilir, onun kimi yazmağı xoşbəxtlik hesab edirdi. Hətta ehtiyac içində yaşamasına baxmayaraq, ilk məvacibini sevimli yazıçısının əsərlərinin külliyyatını almağa xərcləmişdi.

Orta məktəb illərində Kaci ədəbli davranışı və intizamı ilə fərqlənmiş, sevdiyi fənləri yaxşı oxumuş, lakin heç vaxt dərs əlaçısı olmamışdı. O, on səkkiz yaşında orta dərəcəli məktəbi bitirib Nara dövründə ölkənin paytaxtı olmuş, qədim və şöhrətli Kioto şəhərinə köçür, burada kirayə ev tutur və mühəndis olmaq həvəsi ilə ali dərəcəli məktəbə daxil olur. Lakin otaq yoldaşları, istedadlı gənc ədəbiyyatçılar İicima Tazaki və Nakatami Takao ilə yaxın dostluq əlaqələri Kacini seçdiyi texniki sahədən uzaqlaşdırıb ədəbiyyat aləminə daxil olmağa sövq edir. Onu ədəbiyyat ixtisasını seçməyə, ömrün qarşıdakı illərini öz ruhuna uyğun bu sahəyə həsr etməyə istiqamətləndirən həmin gənclərdən İicima Tazaki gələcəkdə məşhur yazıçı və kino tənqidçisi, Nakatami Takao isə özünəməxsus yaradıcılıq üslubu və yazı manerası ilə fərqlənən yazıçı kimi yapon mədəniyyət tarixində önəmli yer tutacaqdılar. Beləliklə, Kaci, Kiotoda ali təhsil aldığı illərdə vaxtilə anası tərəfindən qəlbinə səpilən ədəbiyyat sevgisi toxumlarının Tazaki və Tokaonun "müntəzəm qulluğu" sayəsində cücərib pöhrələndiyini, günbəgün böyüdüyünü, içində qol-budaq atdığını hiss edir.

Vərəm xəstəliyinə tutulduğunu aşkarlayan həkimlərin məsləhətilə Kaci ali təhsilə bir il fasilə verməli olur. Qeyd etmək lazımdır ki, həmin illərdə onun dörd bacı-qardaşı da vərəmdən əziyyət çəkirdi. 1920-ci ildə o, bacısının ibtidai məktəb müəllimi işlədiyi əyalət şəhəri Mieyə gedir. Burada qaldığı vaxtlarda yazdığı məktub və gündəliklərin məzmunu ilə tanış olur. Kaci bu bir ildə özündə ədəbiyyatı qavramaq, mənimsəmək bacarığının daha yüksək olduğunu kəşf edir. Məktublarından birində yazır: "Mən fəlsəfəni nə qədər oxuyuramsa, mənimsəyə bilmirəm. Ədəbiyyatı isə nə qədər lazım olsa, oxuya bilərəm. Məntiqi mövzuları heç cür başa düşmürəm."

Təhsilini davam etdirmək üçün bir illik fasilədən sonra Kiotoya qayıdan Kaci dərslərinə hazırlaşmaqla yanaşı, dünya mədəniyyəti və incəsənətiylə də maraqlanır. Qərb təsviri sənəti onun zövqünü oxşayır, Roden, Renuar, Deqanın ədəbiyyat jurnallarında tez-tez çap olunan əsərlərinə böyük maraq göstərir. İncəsənətin mahiyyətini dərk etdikcə, özünün bu sahəyə aludəçiliyinin dərəcəsini anladıqca yanlış ixtisas seçimi haqqında düşüncələri də onu daha çox narahat edir. Çox keçmir ki, bu barədə fikirlərini dostları ilə bölüşür, gündəliklərində hələ də öz yolunu tapmamağın dözülməz hal olduğunu vurğulayır, "mövqesiz yaşamaqdansa, ölmək daha yaxşıdır" qənaətini qeyd edir.

Kaci Motociro 1921-ci ildə ali məktəbin ikinci kursuna keçdiyi vaxt doğulub boya-başa çatdığı Osakaya qayıdır, daha doğrusu, gün-güzəranının nisbətən rahat olacağı ümidilə doğma şəhərə sığınır. Osakada tez-tez ədəbiyyat fakültəsinin tələbələri ilə görüşür, bu ədəbi söhbətlərlə bir növ narahat ruhunu rahatladır. Yaşadığı Osakadan təhsil aldığı Kiotoya hər gün sürət qatarı ilə yol gedən Kacinin yazıçılığının tarixçəsi də məhz sürət qatarından başlayır. Sürət qatarında tanış olduğu qıza qarşı duyduğu dərin sevgi hissinin cavabsız qalması onu ilk əsərini yazmağa sövq edir. Kacinin yazdığı həmin novellanı ədəbiyyatçı dostları çox bəyənsə də, yazıçının yaradıcılığının bu ilk nümunəsi günümüzədək gəlib çatmamışdır. İlk gənclik illərinin dostu, Kacinin ədəbiyyata gəlişini addım-addım izləyən Hirabayaşi Yoko xatirələrində bu əsər haqqında yazır: "Kaci sürət qatarında bir qızla tanış olur və ona vurulur, o, ingilis poeziyasından "Sevgisini etiraf edən kişi" adlı bir şeiri qıza verir və onu oxumasını xahiş edir. Səhəri gün qızla görüşdükdə ondan həmin şeiri oxumadığını eşidir, bundan çox mütəəssir olur və ondan ayrılır. Mən bunu ona görə xatırlayıram ki, Kaci bu hadisədən sonra öz həyatı barədə ilk hekayəsini yazır. İyirmi beş vərəq həcmində olan hekayənin qəhrəmanı ağ ciyəri xəstə olan cavan adam idi. Həmin dövrdə ədəbiyyatı bir o qədər də dərk etmirdim, lakin bu hekayə mənə çox maraqlı göründü. Xüsusən, mənə gecə vaxtı hərarətdən əziyyət çəkən qəhrəmanın əllərini göyə uzadaraq sanki kimdənsə kömək istəməsi səhnəsi çox təsir etdi. Mən bu əsərin adını xatırlamıram, ancaq bilirəm ki, kağızın sağ küncündə "qaralama" sözü, əks tərəfində isə "hekayə T. N-ə ithaf olunur" cümləsi yazılmışdı."

12 avqust 1920-ci ildə yazdığı gündəlik qeydində Kaci özünə qarşı ikrah hissinin, özünü geridə qalmış meşşan hesab etməsinin səbəbini həyat amalını hələ də tapa bilməməkdə görürdü. Bu amalı tapandan sonra isə onun ardınca getməkdə son dərəcə israrlı idi. Buna görə də 1924-cü ildə ali təhsilini başa vurub mühəndislik diplomunu alan kimi bundan sonrakı həyatını ədəbiyyata həsr etməyi qərara alır. Bu məqsədlə sənədlərini Tokio Universitetinin ingilis dili fakültəsinə verir. Bunun səbəbi K.Motocironun yaşadığı dövrdə Qərb dilləri və ədəbiyyatına marağın getdikcə güclənməsi ilə bağlı idi. Uzun əsrlər qapılarını Qərbə bağlı saxlayan, milli müstəqilliyini və mədəniyyətinin orijinallığını qorumaq məqsədilə digər mədəniyyətlərə

inteqrasiya etməyən Yaponiyada XIX əsr Meyci inqilabından sonra Avropa ilə əlaqələrin yaranması, XX əsrdə daha da genişlənməsi yapon yazıçılarının da Qərbə meylini gücləndirmişdi. Buna görə də əsrin bir çox yapon yazıçılarının – Kato Miçio, Kavabata Yasunari, Mişima Yukio və başqalarının yaradıcılığında Qərb ədəbiyyatının əhəmiyyətli təsiri aydın müşahidə olunur.

Kaci Motociro Tokio Universitetinin tələbəsi olduğu illərdə ədəbiyyatçı dostları ilə birlikdə çoxdan arzusunda olduğu bir işi, ədəbi jurnal nəşrini gerçəkləşdirir. Bu "Aozoro" – "Mavi səma" jurnalı idi ki, Kacinin ilk hekayəsi də daxil olmaqla, iyirmi hekayəsinin böyük qismi burada çap edilmişdi. Yazıçının "vizit vərəqi" sayılan "Limon" hekayəsi də "Aozora"nın ilk sayında dərc olunmuşdu. Tokio Universitetində oxuduğu üç il ərzində o, bütün səy və gücü ilə jurnalın nəşrinə çalışmış, günbəgün ağırlaşan səhhəti imkan verməsə belə, onun redaktə və korrektura işini öz öhdəsinə götürmüşdü. "Mavi səma" onu Osakadan Kiotoya gətirən sürət qatarındakı eşq macərasından başlayan yazıçılıq fəaliyyətinin ən yüksək nailiyyətlərinin şahidi idi. O, öz sənətkar sözünü ilk dəfə bu jurnalda deyə bilmişdi. Mənəvi cəhətdən möhkəm bağlandığı "Mavi səma"nın hər yeni sayının nəşri Kaci Motociro üçün yeni bir ümid deməkdi. Vərəm xəstəliyi şiddətləndikcə həyat eşqi tamamilə sönməkdə olan nasir üçün bu jurnal böyük mənəvi təskinlik idi. O, ikinci mərtəbədə yerləşən səkkiz tatami böyüklüyündə işıqlı mənzilində vərəmlə mübarizə apara-apara əsərlərini yazır, "Mavi səma"nı redaktə edirdi. Jurnalın redaksiyası Hazavu məhəlləsində yaşayan dostu Tonomura Şigerunun otağında yerləşirdi. Redaktəyə köməklik göstərmək üçünsə o, Azavunun yanına gedirdi. Xəstə halı ilə evdən çıxmaq və bu işi icra etmək onun üçün çox ağır idi. Bu səbəbdən Kaci vaxtını, əsasən, evdə keçirdiyinə görə dostları onu zarafatla "hərəkərsiz cənab" adlandırırdılar.

1928-ci ildə Kacinin bir tərəfdən xəstəliyi ağırlaşır, digər tərəfdən yoxsulluğu son həddə gəlib çatır. Hətta təhsil haqqını ödəyə bilmədiyi üçün Tokio Universitetindən xaric edilir. Bu hadisədən sonra həyatdan, cəmiyyətdən, insanlardan küssə də, yaradıcılıqdan soyumur,"Qış milçəkləri", "Qayalıq üzərində hiss etdiklərim" hekayələrini yazır. Həyatının sonlarında Osakaya qayıdır, 1929-cu ildə əlli doqquz yaşlı atasının ölümü onu çox kədərləndirir, bu itki yazıçını ölüm haqqında düşüncələrə qərq edir. 1931-ci ildə dostları ölüm ayağında olan Kacini sevindirmək üçün "Limon" hekayələr toplusunu nəşrə hazırlayıb çap etdirir. Bu toplu Kacinin nəşrini gördüyü yeganə kitabı olur. O, 1932-ci ildə Osakada vərəm xəstəliyindən vəfat edir.

Yapon ədəbiyyatında hekayə ustası kimi tanınan Kaci Motociro yaradıcılığa novella ilə başlayıb. Daha sonra poeziyanı musiqi və rəsm kimi böyük təsir gücünə malik sənət növütək dəyərləndirdiyindən, digər tərəfdən özünün etiraf etdiyi kimi, maddi imkansızlıq üzündən patefon ala, violonçel çala bilmədiyi üçün şeirlər yazmağa meyil göstərir. "Böyük, müxtəlif rəngli hərflərlə bir simfoniya yaratmaq istəyirəm" deyən yazıçı şeiri yüksək qiymətləndirsə də, ürəyəyatan, bədii səviyyəsindən razı qaldığı bir şeir belə yaza bilmir, bu sahədə uğur qazanmır. İlk hekayələri olan "Senkiçi" və "Paradoksal həqiqət"də isə öz yazıçı məharətini bütün dolğunluğu ilə əks etdirə bilir. Kaci 1924-cü ildə kiçik bacısının ölümündən təsirləndiyi, xəstəliyinin daha da şiddətləndiyi vaxt Miyedə yaşayan böyük bacısının yanında qalmalı olur. Yazıçının Miye təəssüratları "Qəsr yanında şəhər" hekayəsində dolğun bədii ifadəsini tapır.

"Limon" hekayəsinə qədər onun yaradıcılığı ədəbi mühitdə sanki görünməz olmuşdu. Yazıçının bir ilədək vaxt sərf edib yazdığı hekayə çapından dərhal sonra ədəbi gəncliyin sevimlisi oldu. Bu hekayə Kacinin Kioto məktəbində oxuduğu illərin xatirələri əsasında qələmə alınmışdır. Əsər qəhrəmanının monoloqu kimi səslənən hekayədə estetizmin dərki ideyası irəli sürülür, xeyirxahlıq və gözəllik rəmzi kimi "limon"da estetizmə münasibət ifadə olunur. Nakatami Takao bu əsər haqqında təəssüratında yazırdı: "1922-ci ildə "Limon" əsəri "Gizli xoşbəxtlik" adı altında nəzmlə yazılmışdır. 1923-cü ildə isə artıq nəsr şəklində qələmə alınmışdır. Bundan sonra əsər "Sezan haqqında hekayət" adı ilə yazılır. "Sezan haqqında hekayət" 70 vərəq əl yazısı həcmində idi və Kaci bunu "Aozora" jurnalında çap etdirmək istəyirdi. Çox güman ki, Kaci öz əsərini bir o qədər bəyənmirdi və buna görə də həmin əsəri 10 vərəq həcminə qədər qısaldaraq "limon" adı ilə çap etdirir." "Limon" hekayəsi Kacini bütün Yaponiyada şöhrətləndirməsə də, ədəbi mühitdə tanıdır və onun gələcəkdə hekayə ustası kimi yetişməsində əhəmiyyətli rol

oynayır. Bu gün XX əsr yapon ədəbiyyatı antologiyalarının hansını vərəqləsək, orada "limon" hekayəsini görməmək mümkün deyil. Eləcə də orta dərəcəli yapon məktəblərində ana dili və ədəbiyyatı dərsliklərində bu hekayəyə rast gəlməmək olmaz, şagirdlərdə mütaliə vərdişlərinin formalaşdırılmasında Kacinin bu əsərinin əlahiddə yeri var.

1925-ci ildə yazıçı bacısının yanında keçirdiyi dövr barədə xatirələri əsasında "Qəsr yanında şəhər" hekayəsini, daha sonra "Yolda", "Şabalıd çiçəkləri", Ölənlər" adlı hekayələrini yazır. 1926-cı ildə qələmə aldığı "Qardan sonra", "Kavabata Yasunarinin ikiqat intiharı" hekayələri ideya-bədii keyfiyyətləri ilə seçilən əsərlər kimi yadda qalır. Bundan sonra K.Motociro "Onun qəlbinin əksi", "Ucaldılmış K" hekayələrini yazır. Həmin vaxt hekayələrini dövrü mətbuatda müntəzəm çap etdirmək, kitabının nəşrini görmək Kaci üçün əlçatmaz arzulardan idi. Buna görə də "Şineyte" – "Yeni axın" ədəbi jurnalında hekayələrinin çapına dəvət alan yazıçı sevinib ruhlanaraq yeni-yeni əsərlər yazır.

İzu yarımadasında yerləşən Yuqasima dağ kurortunda Kaci Motociro ilə Kavabata Yasunarinin tanışlığı hər iki yazıçının xatirəsində dərin izlər qoyur. Yapon ədəbiyyatının ilk Nobel mükafatçısı, dünya miqyasında tanınan yazıçı K.Yasunari K.Motociroyla görüşü haqqında yazırdı: "Mən İzuda bir neçə ay ərzində Kacinin xəstəliyini müşahidə elədim. Mən ondan çox şey öyrəndim – təbiətə münasibət, itkilərə, canlılara münasibət..."

K.Motociro üslub orijinallığı ilə seçilən yazıçıdır. Yuqasimada Kacinin yazdığı "Qış günəşi" hekayəsində onun realistik simvolizmə xas yaradıcılıq xüsusiyyətləri aşkar sezilir. Burada yazıçının öz qəhrəmanını, onun zamanla, sosial mühitlə əlaqəsini nə qədər böyük ustalıqla canlandırdığı aydın müşahidə olunur. Yaradıcılığının sonlarına yaxın yazdığı "Dağın maviliyi", "Su borusu", "İnstrumental illüziya" hekayələrinin mövzu və problematikasında isə ümumi yaxınlıq hiss olunur.

K.Motociro yaradıcılığı avtobioqrafik istiqaməti ilə daha çox diqqəti çəkir. Bütün yazdıqlarının aparıcı qəhrəmanı o özüdür. Müxtəlif adlarla təqdim etdiyi bu qəhrəmanlar yazıçının şəxsi bioqrafiyasının fərqli məqamlarını, onun xarakter cizgilərini, yaşantılarını və mənəvi iztirablarını əks etdirir. Buna görə nasirin hər yeni əsəri digərinin məntiqi davamı olaraq bitkin təsir bağışlayır, bir insan ömrünün müxtəlif parçaları kimi bizi həyəcanlandırır, düşündürür, nəhayət, bu parçaları fikrimizdə cəmləşdirməyə sövq edir.

Müasiri Nakatami Takaonun "Kaci Motociro, Kioto dövrü" məqaləsində yazdığına görə, o, zahirən yaraşıqlı, uca boylu, enlikürək, ilk baxışda diqqəti özünə cəlb edən, əsl şəhər sakinlərinə məxsus görkəmi ilə seçilən, iri alınlı, sərt baxışlı bir gənc idi. Hekayələrindəki qəhrəmanların əksəriyyətini də öz zahiri əlamətləri ilə təsvir edirdi.

Ədəbi yaradıcılığı on ildən bir qədər çox davam edən K.Motociro eqo-belletristika janrının nümayəndəsi, klassik yapon ədəbiyyatındakı esse və simvolist poeziya ənənələrinin vəhdətindən ibarət yeni nəsr formasının yaradıcısı olmuşdur. Tənqidçilər onu Şova dövrünün sonu, Toişo dövrünün başlanğıcında, yəni yapon ədəbiyyatının gümüş əsrində, sonralar müasir yapon ədəbiyyatı kimi təsnif ediləcək ədəbiyyatın forma və metodlarının formalaşdığı dönəmdə yaşamış kiçik yazıçılar zümrəsinə aid etsələr də, Kaci Motociro kiçik janrda xariqələr yaradan böyük yazıçı idi. "Limon"dan "Qayğısız xəstələr"ədək yazdığı iyirmi hekayənin tənqiddə yüksək sənətkarlıq örnəkləri kimi dəyərləndirilməsi bunun bariz göstəricisidir.

Ədəbi mühitdə ilk qiymətini 1927-ci ildə yapon ədəbiyyatının mükəmməl tədqiqatçısı və böyük yazıçısı Kavabata Yasunaridən alan K.Motociro yaradıcılığı digər ölkələrdə o qədər geniş tanınmasa da, yapon milli ədəbiyyatında onun özünəməxsus yazıçı mövqeyi vardır. 1934-cü ildə ilk dəfə əsərləri iki cilddə, 1959-cu ildə tam külliyyatı üç cilddə çap olunan yazıçının yaradıcılıq irsi yaponlar üçün əziz və doğmadır. Bəlkə, Kaci Motociro dedikdə müasir yapon bir an duruxub onun kimliyini yada salmağa çalışar, lakin "Limon" hekayəsinin adı çəkildikdə hamı bu gözəlliyi vəsf edən yazıçını tanıyacaqdır. Həmin cəhət oxucunun şüuraltı hafizəsindəki yazıçı şöhrətinin uzunömürlülüyü ilə bağlıdır. Bu, bir vaxtlar Kiotoya gedən sürət qatarıyla ədəbiyyata yol alan, "Mavi səma"ya yetişib təsəlli tapan yazıçının sağlığında həsrət qaldığı ədəbi şöhrət idi.

***Cemil Kavukçu** 1951-ci ildə anadan olub. İstanbul Universitetinin məzunudur. Hekayələri 1980-ci ildən müxtəlif jurnallarda çap olunub. Yazıçı "Sait Faiq Əbasıyanıq", "Erdal Öz" və s. ədəbiyyat mükafatlarını qazanıb. C. Kavukçu Azərbaycanda tanınmayan yazıçı olsa da, bir neçə il əvvəl Türkiyədə nüfuzlu yazıçılar, ədəbiyyatşünaslar və tənqidçilər arasında keçirilən "ötən əsrin 40 ən yaxşı hekayəçisi" sorğusunda adı ilk onluqda olmuşdu. Hətta onun imzası siyahıda bizim yaxşı tanıdığımız Əziz Nesin, Ömər Seyfəddin, Oğuz Atay, Əhməd Həmdi Tampınar, Yusif Atılqandan daha əvvəl gəlmişdi. Sorğunu təşkil edənlər belə yazırdılar: "Qəribədir, "ən yaxşı hekayəçi kimdir?!" sualını eşidən kimi sorğu iştirakçılarının 35 faizi Cəmil Kavukçunun adını çəkdi".*

*Yazıçının "Can Yayınları" tərəfindən 2009-cu ildən 2014-cü ilədək beş dəfə nəşr edilən "Xaltalı göyərçin" kitabından "Tut" hekayəsini "Ulduz" jurnalı oxucularının diqqətinə çatdırmaq istəyirəm.*

**Cavid ZEYNALLI**

Cemil KAVUKÇU

# Tut

Əsl adının Xədicə olduğunu illər sonra öyrəndim. Biz uşaqlar üçün o, bağ-bağatlı qala kimi evdə tək yaşayan Tico xala idi. Dörd divar arasına elə qapılmışdı, Tico xalanın ailəsi olduğunu, o evdə nə vaxtsa başqalarının da yaşadığını ağlımıza gətirməzdik. Nə ərə getmişdi, nə də qəsəbədən kənara ayaq basmışdı. Qonum-qonşu, anamız-bacımız xısın-xısın danışırdılar ki, hamilə qaldığını biləndə ölümlə əlbəyaxa olub, uşağı arxa bağçada basdırmışdı.

Uşaq idik, belə şeyləri ağlımız kəsməzdi...

Heç kim onunla görüşməzdi deyə, qala kimi evdə məhbus həyatı yaşayar, başını ancaq bizimlə qarışdırardı. Onun evinə girdiyimizi, bağçasında oynadığımızı hamıdan gizli saxlardıq. Bu, qan qardaşı kimi sirrimiz idi.

Tico xala qorxulu nağıllar danışardı bizə. Əhvalatı gözümüzün qabağına gətirək deyə, min cür oyundan çıxardı: gözlərini qıyıb xəbərdar olmadığımız aləmdən üzümüzə zillənər, sonra bəbəklərini bərəldər, barmaqlarını qıcıdıb pəncəyə oxşadanda əjdahaya çevrilərdi. Görərdik, ağzından od püskürür, səsini lap qısıb gözlərini tez-tez qırpanda, dodaqlarını büzüşdürəndə gözəl, bəxti gətirməyən şahzadəyə bənzəyərdi. Təzədən səsini qaldırıb bağıranda küpəgirən qarıya oxşadardıq onu. Nağılları bütün dəhşəti ilə yaşayardıq. Gecələr gözümə yuxu girməz, arxa bağçadakı tualetə tək gedə bilməzdim. Qorxaqlığımı birtəhər gizlədib qardaşımı hər dəfə bir bəhanə ilə yuxudan oyadar, tualetin qapısında gözətçi qoyardım. Tico xalanın danışdığı əhvalatlardan ən dəhşətlisi böyük tut ağacı haqqında olan idi ki, hər yadıma düşəndə yuxum qaçar, qardaşımın yatağına sığınardım.

İyunda tut yetişəndə bağ-bağatın qapısını üzümüzə taybatay açardı. Əlbəttə, ağaclara dırmaşmağa, ürəyimiz istəyəndə tut yeməyə də icazə verərdi Tico xala. Tək-təkcənə girməyə ürək etmədiyimiz bu qorxulu bağdan qaş qaralmamış çıxardıq. Güman ki, danışdığı nağılların hamısı burda olmuşdu. Bir tərəfdən də o bağ qəribə şəkildə bizi özünə çəkən, gecələr əcinnələrin dolaşdığı uğursuz, bəla gətirən yer idi. Qayğısız-vecsiz, eşələnib soxulcan axtaran zavallı toyuqlar günəş batdımı, daha doğrusu, azan oxundumu, canavara dönər, özünü yekə-yekə aparan xoruz da dürtülməyə deşik axtarardı. Əslində,

hamısı cin-şəyatin idi. Hətta kor pişik də! Lap axırda o əcinnələrin başçısı, Tico xalanın torpağa gömdüyü uşaq çıxardı ortalığa. Sabaha qədər çalıb-oynayar, toy-bayram edərdilər. Onlardan olmayan birini gözləri aldımı, elə yerindəcə bir xətər toxundurardılar. Qəsəbə məscidinin müəzzini Həmid əfəndinin iflic olmasına heç kim inanmırdı. Ona Tico xalanın cinləri toxunmuşdu.

Bağda tutdan savayı ərik, armud ağacları da vardı, amma onlara dırmaşmaq, budaqlarına daş atmaq bizə qadağan olunmuşdu.

Qış gecələrinin birində qocalmış tut ağacının əhvalatını danışmışdı...

Tico xala bilirmiş ki, ağaclar da insanlar kimi kədərlənir, acı çəkir, amma onların danışa bildiyini desəydilər, dünyasında inanmazdı. Bir gecə bağdan səs gəldiyini eşidəndə, möhkəm qorxmuşdu.

Əhvalatı danışanda yenə özündən getmişdi: gözlərini elə bərəltmişdi, o dəhşətli hadisəni iliyimizəcən biz də hiss etmişdik. Görəsən, o necə səsmiş: iniltimi, çığırtımı, hırıltımı?! Bəlkə, hamısı, bəlkə, heç biriymiş?! Əvvəllər eşitdiyi səslərə oxşar deyilmiş. Tələsik qapı-pəncərəni bərk-bərk bağlayarmış. O vaxtlar daha gənc, daha gözəlmiş. Bağa açılan pəncərənin pərdəsini ehmalca aralayıb bayıra baxıb. Zülmət çökən bağda cin-şayətin top oynayırmış. Sonra o səs yenidən eşidilib: "burax məni, gedim". Yalvarırmış. Həm insan səsinə bənzərmiş, həm də bənzəməzmiş. Elə bil quyudan eşidilərmiş. Tico xalanın sabaha qədər gözünə yuxu getməyib. Dan yeri ağaranda cin-şəyatin, xəyalat çəkilib gedər, xoruzlar banlayıb toyuqlar qaqqıldamağa başlayanda, ağacların budaqlarına quşlar qonanda bağa çıxıb. Hər yeri bitdə-bitdə gəzsə də, nə ləpir tapmışdı, nə izə rast gəlmişdi. Tut ağacının yanından keçəndə "ah" nidası eşidib. Özünü kənara necə atmışdısa, ayaqları yerdən üç qarış qalxmış, ödü ağzına gəlmişdi. Yan-yörəsinə nəzər salsa da, gözünə heç kim görünməmişdi. "Mənə elə gəlir" deyib, özünə təsəlli verirmiş ki, həmin səs yenidən eşidilmişdi.

Səs tut ağacından gəlirdi...

Ağaca yaxınlaşıb qulağını gövdəyə söykəyəndə "burax məni, gedim" sədasını təzədən eşitmişdi. Budaqlara qonan quşlar pırr eləyib uçmuş, toyuq-cücə qaqqıltısını xırp kəsmiş, kor pişik ilim-ilim itmiş, dörd tərəfə dərin sükut çökmüşdü. Elə buna bəndmiş kimi Tico xala çığıra-çığıra bağdan baş götürüb çıxmışdı. O bu, addımını otağından bayıra qoymamış, iki rükət namaz qılıb ölüb gedənlərinə dua etmişdi. Elə bil kimsə içindən demişdi ki, getmək istəyirsə, saxlama, burax getsin. Başqa bir səs də bu tərəfdən eşidilirmiş: "o necə gedə bilər, bağa kök atıb". Lap axırda yəqin eləmişdi ki, ağacdan canını qurtarmalıdır.

Nəfəsi təntiyə-təntiyə özünü aşıq İlyasın dükanına çatdırmışdı. Aşıq İlyas sorağı kəndə-kəsəyə yayılan, tutdan saz düzəldən ustad aşıq idi. Onun əlindən çıxan saza müştəri çıxmaq üçün uzaq-uzaq yerlərdən gələnlər vardı. Əlbəttə, Tico xala ağacın "danışdığını" deməmişdi, bircə onu dilinə gətirmişdi ki, bəs yaman qocalıb, meyvə vermir, gövdəsi budaqlara tab gətirmir. Üstəlik, bunu da əlavə eləmişdi ki, ağacı savabına kəsərsə, çör-çöpünə qədər ona verəcək. Aşıq İlyas elə həmin gün yanına bir köməkçi salıb ağacı mişarın ağzına verəndə, əməlli-başlı çətinə düşmüş, bədənini tər-su götürmüşdü. Hətta İlyas dodağının altında deyinmişdi ki, ömrümdə belə həyasız tut ağacı görməmişəm.

- Mişar elə boğulurdu, elə bil ağac yox, camış kəsirdik.

Bədbəxtliyə bax: İlyasın yanına salıb gətirdiyi adamın üstünə yekə bir budaq düşəndə, zavallının az qala nəfəsi kəsiləcəkmiş. Sonra İlyas sağ əlinin baş barmağını kəsmişdi. Ha eləmişdi, qanın qabağını ala bilməmişdi. Tico xala elə bilmişdi, zavallı köməkçi də, İlyas da ölüb. Amma yox, İlyas da, o adam da sağ-salamat canlarını qurtarmışdılar. Ağacı öküz arabasına qalaqlayıb aparandan sonra göyərçinlər, qarğalar, sərçələr bağçaya qayıtmış, toyuqların qaq-qıltısı eşidilmiş, hikkəli xoruz uzun-uzadı banlamışdı.

Əlbəttə, əhvalat burda bitməmişdi. Hardansa İlyasın ağlına gəlmişdi ki, ağacın gövdəsindən saz yox, insan heykəli yonsun. O günə qədər nə belə bir şeyə əl bulaşdırmış, nə də bunu ağlına gətirmişdi. Elə bil durduğu yerdə qəlbinə şeytan girmişdi. Heykəl hazır olanda bərk həyəcanlanmışdı. Sən demə, İlyas heykəli dükanda yox, hamıdan gizlin, tövlədə yonurmuş. Hər halda, işini ehtiyatlı tutub dükandansa, tövləni daha münasib bilmişdi. Onsuz da saz düzəltməyinə hamı deyinirdi, heykəl yonduğundan xəbər tutsaydılar, nələr deməzdilər?!

Donquldanacaqdılar ki, deyəsən, ağlını itirmisən, heykəli yonmaq günah deyil bəyəm?!

Heykəl hazır olanda sevindiyindən bütün gecəni çimir almamışdı. Ertəsi gün sübh tezdən tövləyə gedəndə nə görsə yaxşıdır: heykəl yox idi. Axı heç kimə bir kəlmə deməmişdi?! Səhəri qəsəbənin küçələrində heykələ rast gələndə havalanmışdı. O bu, ilim-ilim itmişdi Aşıq İlyas...

Yaxşı, bəs Tico xala bunlardan necə xəbər tutmuşdu? Nə biz soruşa bilmişdik, nə o danışmışdı! Bircə tut adamın adını qulağımıza pıçıldamışdı:

Dingil Ənvər. Hamımız bir ağızdan iç çəkib matməəttəl qalmışdıq.

Nağıllardakı zorba qəhrəmanlar kimi dəhşətli sir-sifəti olsa da, ta uşaqlıqdan qorxub-çəkinmədiyim, ziyansız, hətta sevimli yekəpər idi Dingil Ənvər. Ağlımın kəsməyən vaxtlarında Aşıq İlyasın tut ağacından yonub, can verdiyinə inandığım bu adamın kim olduğunu, gəlmişini-keçmişini öyrənə bilmədim ki, bilmədim! Hamı ona Dingil deyib durardı. Ömrü boyu ağrı-acı çəksə də, üzünə bircə qırış düşməmişdi. Necə ola bilərdi ki, onun keçmişi, başına gələn bircə əhvalat yox idi?! Körpəliyini, uşaqlığını, gənclik illərini yaşamamışdı. Tut ağacında yaşadığı illərdə bir hekayəti vardı, yoxdu, o da bilinmirdi. Heç kimdən heç nə istəməzdi. Onu danışan görməmişdim. Danışmaq nədir, heç səsini də eşitməmişdim. Əlini dəbilqəsinə aparıb piştaxta arxasında duran adamları salamlayanda üzünə saf, uşaq gülüşü yayılardı. Qəzəbləndiyinə, özündən çıxdığına qəti şahid olmamışdıq. Bilmirdim harda yaşayır, kimi-kimsəsi varmı, amma qəsəbədə pulsuz-parasız yaşayan bir neçə adamdan biri idi. Ovcuna pul basdılarmı, sevinməyinə sevinərdi, di gəl, onun nəyə lazım olduğunu, nə işə yarayacağını bilməzdi. Hərdən onu "Ulduz" kinoteatrının qapısı ağzında oturan, zeytun, pomidor-çörək yeyən görərdim. Günortadan sonra - müştərilərin seyrək olduğu vaxtlarda "Ləzzət" yeməkxanasında şorba içən, ya da aşpaz Əkrəmin dörd masalıq dar-düdük kafesində lobya supunu qaşıqlayan görərdik Ənvəri. Ona pay verilən yeyib-içməyi o qədər adi qarşılayardı, sanki elə belə də olmalı idi.

İki metrə yaxın boyu, yüz kilodan artıq çəkisi vardı. Qollarının, boynunun uzunluğundan savayı görünüşündə elə bir qəribəlik yox idi. Yeriyəndə bir az qabağa əyilir, qəddini dikəldib dayananda iri barmaqlı köntöy əlləri dizindən aşağı sallanardı. Onun-bunun köhnəsini geyindiyindən şalvarı topuğuna çatmaz, pencəyinin qolları gödək gələrdi. Boy-buxununa uyğun bircə şey vardısa, o da yay-qış başından çıxarmadığı dəbilqəsi idi.

Çörəkçilərdən, aşpazlardan, çayçılardan başqa Ənvərə qahmar çıxanlardan biri də qış-yaz kinoteatrının sahibi, qəsəbəmizin əyləncə işlərini boynuna götürən və biz uşaqların gözündə Atatürkdən sonra ikinci nüfuzlu adam Niyazi idi. Film dəyişdi-dəyişmədi, Ənvər hər axşam lap qabaq sıranın sol çiynində, tutalım, hər kəsin otura bilməyəcəyi oturacaqda yerini tutardı. Yay boyu üstüörtülü zalları bağlayıb yaz kinoteatrı ilə qəsəbə əhlinin xidmətində dayanardı Niyazi. Ənvər yenə həmişəki kimi birinci sıranın sol qurtaracağında yerini alardı. Kinoya o qədər heyran idi, zal açılmamışdan xeyli qabaq qapının ağzında bitər, içəri hamıdan qabaq keçərdi. Mən narahat olardım: görəsən, film onun dünyasına necə təsir edir, ekranda gördüklərini başa düşürmü?! Eyni filmə dəfələrlə baxdığının da fərqində olub-olmadığından xəbərim olmazdı. 70-ci illərdə Niyazi məcbur olub "Ulduz" kinoteatrında yerli seks filmlərini nümayiş etdirirdi. Ənvərin yaşı keçsə də, həmişəki yerini qoruyub-saxlayırdı. O filmlərin Ənvərə necə təsir etdiyi hamıdan çox mənim fikrimi məşğul edərdi.

Unutsam da, yarımçıq qalan iki hekayə var idi ağlımda: tut və uşaq. İllər keçdi, bunların hər ikisi uzun illər yadıma düşmədi. Qəsəbəmizə əvvəlkitək tez-tez gedib-gələ bilmirdim. Bir dəfə yazın axırında qəsəbəyə getdim. Hər dəfə baş çəkəndə sırası seyrələn köhnə dostlarımla görüşdüm. Bir-birimizi görəndə keçib gedən o gözəl günlərdən danışar, qəsəbədəki yeniliklərdən söz salardıq. Həmin axşam da eynən belə oldu. Qəsəbənin ən maraqlı adamlarından danışanda söz-sözü çəkib Dingilin üstünə gəldi. Sonra yenə qəribə, şeytanın da baş açmadığı divanə, havalı adamlardan danışdıq. Ənvər yadımıza düşəndə ən çox kinoteatrdakı "bəy" yerinə gülmüşdük.

- Zavallı adam, - mən demişdim, - murada yetməmiş öldü getdi.

- Nə?! – Sarı Səlahəddinin təəccübdən gözləri bərəlmişdi, - Məhəlləmizin yeznəsi idi.

- Necə yəni yeznəsi?!

- Yaxşı-yaxşı, özünü bicliyə vurma?!

- Vallah, bilmirəm.

- Sizin məhəllədə o köhnə evdə tək yaşayan dəli qoca vardı ha, bunun başını necə tovlamışdısa, bağda heyvan kimi bəsləyib kefini çəkmişdi.

- Məni dolayırsan?!

- Vay-vay, - Səlahəddin yenə təəccüblənmişdi, - bundan hamının xəbəri var. Deyəsən, qəsəbədə hər şeydən xəbərsiz elə sən olubsan.

- Kim görüb?

- Gecələr evin arxasından dəli arvadın bağırtısı eşidilirmiş. Sonra günlərin birində görüblər ki, Ənvər çəpərdən atılıb qaçır.

- Buna bax, - içimizin ən yaşlı-başlı, ağırtaxtalısı guya qəsəbənin namusuna cavabdehmiş kimi əsəbiləşdi.

- Axmaq-axmaq danışmayım, - demişdim, - doğrudan, çox təəccübləndim.

Əslində, gülməli heç nə yox idi, amma bir-birimizə qoşulub, elə hey gülürdük...

Günay SƏMA ŞİRVAN

## F.Fərruxzadın xatirəsinə

Dağ çiyinlərində
şəlalələnərdi
dalğalı saçlarım.
Unudulardı
cadar torpaqların su dərdi.

Baxışlarımız
qadağa göstərən yol işarələri idi.
Radara düşmək təhlükəsindən
qaydaları gözləməyə çalışardı
əllərimiz.

Bənövşəli təpəliklər,
gilənar çiçəkli bağlar,
arxların üstü...
Uşaqlıq xatirələrimizi danışmaq bəhanəsi ilə
aldadardıq saatı,
itirərdik zamanı.

Mənə çiçək bağışlardın -
özəl günlərimdə.
Yola səpdiyin gül ləçəkləri
görüş yerimizə
bələdçi olardı...

Duman aldı
tapındığım dağları.

Artıq
şəlalələnmir dalğalı saçlarım.
Əslində,
qara, qıvrım saçlarım da yoxdur daha .

* * *

Yanmış əski parçası görmüsən?—
Qaralsa da,
bütöv görünür.
Kimsə,
nəsə toxunsa,
dağılıb
külə dönür.

Sənsiz
mən də
yanmış
əski parçası kimiyəm.
Dəymə mənə, dəymə,
Qurbanın olum!

**HAYKULAR (HOKKULAR)**

Adını yazmışam
mehrab yerinə,
məbəddir qəlbim.

* * *

Al qızılgüllər idi
xəyallarımız.
Ax, bu sarı çiçəklər...

* * *

Ayrılıqdan öc alacam—
saçlarımı boyadacam
gözlərinin rəngində.

* * *

Bir budaq kəsiləndə
sürətlə böyüyür o birilər.
Həyat bizi budayır.

* * *

Boylana bilmir
ömür ötən günlərə.
Əlvida, bahar!

* * *

Çiçək qoxulu yaylıq var
xatirələrimin əlində,
arada göz yaşlarını silirəm.

* * *

Dualarımız
çatırdı Tanrılara.
Ax, tanrıçalar...

* * *

Eşqimi yazdım
tikanlı yarpaq üstünə.
Günəş susdu.

* * *

Qıpqırmızıdı
göy üzü—qan dənizi.
...Boğulur Günəş.

* * *

Sənin çiçəkləməyən nar sevdan
mənim
suda batmayan anbur* eşqimdir.

* * *

Sizə güvəndiyim dağlar,
ruhunuzu tozlu şəhərin kirli havası qarsdı...
...daş yağır.

* * *

Şəhərin asma aynəbəndləri
üz-üzə dayanmışdılar.
“Bənövşə, bəndə düşə” oynayacaqlarmış kimi.

* * *

Tanıyardı ayaq səslərimizi
ağzıgöyçək söyüdlər.
Pıçıldaşardı yarpaqları.

* * *

Yağışla öpüşən
torpaq qoxuyardın,
ətrinə susadım.

* * *

Zaman zolaqlarına bürünmüş
Yer kürəsi
tale ilahələrinin nəğmələriylə.

* * *

Qumlu sahil...
Qıvrım saçlarını darayır
dəniz mehi.

* * *

Sənə gəldim.
Anam arxamca ağladı.
Sevginə satdım anamı.

* * *

Yayın istisi...
Tərpənmir bir yarpaq da.
...titrəyir qəlbim.

* * *

Yelləncək qurmuşam
sənli günlərimə,
xatirələr yellənir.

**Voronej**

---

**Suda batan yeganə ağac. “Dəmirağac” da adlandırılır.*

## QƏZƏL DE Kİ...

Vüqar RAHİ

* * *

Əgər can Yusifim istərsə dünyadə səfa görsün,
Gərək əvvəl düşüb zindanə bir müddət cəfa görsün.

Vəfasızdır deyə yar olma sən də biməfa, ey dil,
Nədir əhdə vəfa, göstər vəfa, qoy biməfa görsün.

Üzüm gülzartək daim cigər qaniylə rəngindir,
Mənim simamı seyr etsin, kim istər Kərbəla görsün.

Cəfadən bənd–bəndindən bədən bir neytək ayrılmış,
Cahan könlüm nəvasında həvayi-Neynəva görsün.

Yarıb zülmətləri çıx nura, yetdin qırxa çün, Rahi,
Qəzəldə xəlq, kimdir qoy Mühəmməd Müstəfa, görsün!

* * *

Amandır ruzi–məhşər qoyma, ya rəbbim, "od"un yansın,
Ki, olsun Adəm övladı cəhənnəmçün odun, yansın.

Özümçün nari-duzəxdən degil qorxum, sənincündür,
Vücudim qorxuram yandıqca, ya rəbbim, adın yansın.

Qadın kimdir? Ana! Barı behiştin yaxma gəl, tarı,
Ayağı altı cənnətdir, rəva görmə qadın yansın.

Cəhənnəm atəşi gülzarə dönsün feyzi-lütfündən,
Necə od döndü gülzarə, Xəlili qoymadın yansın.

Qiyamət qissəsindən bəs edər bəhs etdin, ey Rahi,
Bu möhnət atəşində qoyma ki, doğman, yadın yansın!

* * *

Şeirimdə mənim "Qeys" ilə "Leyla" daha yoxdur,
Həm "aşiqi-nalan", həmi "səhra" daha yoxdur.

Yoxdur daha misralərim içrə "güli - rəna",
Qətl eyləmişəm, çün "güli - rəna" daha yoxdur.

Ey şamü səhər "şəm" ilə "pərvanə" deyən kəs,
Ad çəkməyə eşq içrə, de, rüsva daha yoxdur?!

Ol qədri ki, "meyxanə"dən etdin sözü, şeiri,
Duymaq kimi xəlqimdə təmənna daha yoxdur.

Rahi, məni kim sorsa, de kim, xeyli dəyişmiş,
Məndə ona de, "bülbüli - şeyda" daha yoxdur.

* * *

Dərdə təvanım olsa da hərçənd dağ kimi,
Sındırdı ayrılıq məni, ey gül, budaq kimi.

Bir-bir yığıldı başıma min dost-aşina,
Təskinim olmadı biri mindən, əyağ kimi.

Naməhrəm əllərim telivin həsrətin çəkir,
Məhrəmdi halbuki ona əvvəl daraq kimi.

Odlarə yaxdı canımı eşqində bir pəri,
Ey göz, su tök ki, üstümə yandım ocaq kimi.

Vəslində Rahi bilmədi qədrin təbəssümün,
Hicrində indi ağlayır hər gün uşaq kimi.

* * *

Neçə müddətdi, gülüm, addımın aşiq düz atır,
Nə baxır şövq ilə bir yarə, nə bir qaş-göz atır.

Eşit, amma ki, inanma desə xainlər əgər:
Yenə də sevdiyin oğlan bizə hərdən söz atır.

Sənə, ey qəlbimin aramı, gər aşiq deyiləm,
Niyə görcək səni qəlbim bu qədər tez-tez atır?

Eləyib tərk namazı, çıxıb öz dinindən,
Səni zikr eyləyib aşiq yerə hər gün diz atır.

Bircə mey tərkini acizdi ki, etsin bu Vüqar,
Arabir qəlbi darıxdıqda olur ki, yüz atır.

# İNSAN RUHUNUN YARATDIĞI ÜÇÜNCÜ DÜNYA...

İradə MUSAYEVA

Vahid Qazi "Çöl Qala" (İlk dəfə "Azərbaycan" jurnalında "CHOLQALA1992" adı ilə nəşr olunub-2014,N8) povestində yeni bir sevgi çeşidindən bəhs edir. Bizə çox köhnədən, Füzulinin "Leyli və Məcnun"undan tanış olan qədimdən qədim və müasir zamanımızda qəflətən başımızın üstünü alan "onlayn", "virtual" ünsiyyət formatındakı tanışlıqlarda zühur edən sevginin yeni şəklindən...

Proloqda müəllif öz qərarsızlığının məzmununu açıqlayır. Evli bir kişi ilə dul qadının gizli məktublaşmasını (bu, adi bir yazışma deyildi, əlbəttə...) çap etdirib-etdirməmək tərəddüdünün əsas səbəbi isə o idi ki, bunun icazəsini almaq üçün kimsə yox idi... Qəhrəmanlar ölmüşdü... Bu iki insanın koda qoyulmuş dünyasına daxil ola bilən müəllif isə günahkar, çaşqın, təbəddülatlı və rəncideyi-haldır... Üstəlik özü də həmin qadına vurulub... Rəssamın sevdiyi qadına... Bəlkə də, qadına yox, bu sevgiyə vurulub... Virtual, qeyri-verbal ünsiyyətdən doğan, amma ölməzlik həddinə qalxan sevgiyə...

Əsərin süjetini 5-6 cümləyə yerləşdirmək olar. Amma məğzini danışmaq, məzmununu ifadə etmək çətindir. Çünki məğz məktubların məzmunundadır, məktublar isə həmişə fraqmentallıq, epizodluluq yaradır əsərlərdə.

Həmin tərəddüdlü yazar bir gün "Üns" teatrında tanış bir qadınla rastlaşır. Tələbəlik illərindən tanıdığı bu qadın vaxtilə gözəlliyi ilə ad qazanmışdı. Əlçatmaz qadın məşhur bir rəssamın xanımıdır indi, daha doğrusu, xanımı olub. İndi o rəssam, eləcə də onun gizli yazışdığı və ilahi bir eşqlə sevdiyi qadın isə artıq yoxdur... Rəssamın xanımı bu köhnə tanışının araşdırıcı olduğunu biləndə ona rəssamın arxivini etibar edir, sərgisinin açılışı üçün köməyə ehtiyacı olduğunu bildirir və danışıqları baş tutur. Xanımın maddi dəstəyi ilə o, rəssam haqqında məqalələr, kitab yazacaqdı. Araşdırıcı müəllif arxivə, əslində, rəssamın dünyasına daxil olur... "Çöl qala 1992" (CHOLQALA 1992") kodunun sirrini açır. Çöl qala Şuşada bir məhəllənin adıdır, 1992 isə Şuşanın işğal ili... Rəssam şuşalıdır, Mir Mövsüm Nəvvabın nəslindəndir. Sonralar araşdırıcı - yazar onun iç dünyasının açarını əldə edəndən, ruhuna bələd olandan sonra deyəcəkdi: "...rəsmi tədbirlərdə çıxışlarından onu quru, boz adam təsəvvür edirdim. Yaradıcı şəxsdən daha çox keçmiş dönəmlərin bürokrat partiya xadimi təsiri bağışlayırdı".

Araşdırıcı kodun sirrini açan kimi onu xanıma vermək istəyir, amma məlum olur ki, bu mümkün olmayacaq və işin içərisinə irəlilədikcə həm də çox şeyin mümkün olmayacağı aydınlaşır: "O, uzun müddət bir qadınla məktublaşırmış. Ağlıma "Başqasının məktubunu oxumaq ayıbdı!", "Kodu arvadına verimmi?" sayaq cürbəcür fikirlər, suallar gəlirdi. Ancaq dəli bir maraq bütün hissləri üstələdi! Yazışmaları birnəfəsə oxudum. Neçə gün özümə yer tapmadım. Oxuduqlarımı xanıma danışmaq, sirri açmaq günah olardı! Amma bədii əsəri

xatırladan bu yazışmaları dərc eləməməyin özü də bir başqa günah idi. Çıxılmaz vəziyyətə düşmüşdüm. İndi nə edəcəyimi bilmirdim. Qalırdı son suala cavab tapmağım: Nə edim?"

V.Qazi kitabı çıxmazdan öncə oxumaq üçün mənə də göndərmişdi və əsərlə bağlı uzun-uzadı söhbətin bir məqamındakı fikirləri yadıma salıram indi. Mən irad kimi yazmışdım: "Bu sanki böyük, təlatümlü bir dünyanın sadəcə bir sevgi fraqmentidir. Talelərdir, sevgi, sədaqət, intellektual, ruhi yaxınlıq və s. Amma bizim o təlatümlü, əbədi, bəşəri həqiqətlərlə idarə olunan dünyadan xəbərimiz olmur bu əsərdə". Vahid Qazi isə cavabında: "Bəlkə, məqsəd heç də o təlatümlü dünyadan xəbər vermək deyil burda" - yazmışdı. Yaxşı cavabdır, amma tam qəbul edə bilmirəm...

Əsərdə hər şey - bütün problematik yanaşmalardan tutmuş estetik zövq və həzzə qədər - bütün ideyalar obrazların içindən keçir və ikisinin arasında "razılaşdırılır". Dünyaya, həyata, insanlara, hadisələrə, ədəbi-mədəni, fəlsəfi yaradıcılıq nümunələrinə baxış bucağında birləşən "virtual cütlük", artıq iki bədəndə bir ruhun daşıyıcısına çevrilib. Bəlkə, əsl sevgi də budur? Eyniyyət, səmavi eşq həddində ilahiləşmək, ucalmaq... Virtuallıq, uzaqdan-uzağa, səs və sözlərlə, hərflərlə, işarələrlə bir-birini anlamaq, anlatmaq, dəyərləndirmək, sevmək klassik anlamdakı ilahi eşq mənasına bərabərdir, məncə... Bu müəllifin üslubu da ola bilər – iki insanlıq bir dünya yaratmaq, dünyanın, ölkənin bir çox məsələlərini və həmin insanların subyektiv, intim yaşantılarını bu iki adamlıq dünyanın fövqəlinsan duyğuları fonunda çözmək, analiz etmək...

Lakin bu cütlüyün zamanı, cəmiyyəti, əhatəsi, başqalarının onlara baxış meyarı və s. bu kimi prinsiplərin də bədii həlli zəruri hesab edilir. Bu isə əsərdə nəzərdə tutulmayıb.

Müşahidəmə görə, V.Qazinin üslubunda bir fraqmentallığa meyil var. Və bu fraqmental düşüncə vərdişi onun fərqli yaradıcılıq üslubunun genişlənib, daha böyük ideya, epik genişlik meydanına çıxmasına mane olur. Əsərdən oxucunun zövq almaması mümkünsüzdür. Oxucu oxuyacaq və mütləq o mətndəki həyatı içindən keçirəcək, yaşayacaq, təsirlənəcək. Çünki estetik təsirlilik və lirik-psixoloji ifadə mükəmməlliyi var əsərdə. Amma mən, məsələn, bu mətnin özünü daha böyük bir mətnin - roman problematikalı bir mətnin içərisindəki süjetlərdən biri kimi görürəm. Bu povestin mətni elə bir süjetdir ki, o, əlavə süjetlərdən "kömək istəyir". Tam və böyük bir həyatın parçası olduğunu sübut etmək üçün...

Fəqət bu iraddan keçirəm və əsəri olduğu kimi qəbul edərək düşüncələrimi bölürəm...

Bir virtual qadın var ki, bütün kişi xisləti və ruhu onu arzular, bir virtual kişi obrazı var ki, bütün qadın ruhu və düşüncəsi onunla daima ünsiyyətdə olmaq istər... Onun cisminə yox, ruhuna, ağlına, düşüncəsinə və bütün bunları əks etdirən gözlərinə baxan kişi obrazı arzular qadınlar, ağıllı və dürüst, özünəinamlı qadınlar... Oxu zamanı virtual səmadan, qeybdən göndərilmiş bir eşqin içərisinə düşürük biz də... Platonik bir məhəbbətdə yaşantılarımızın tanış cizgilərini, məqamlarını tutmağa, xatırlamağa çalışırıq. Biz də onların yanındayıq, biz də kodu sındırıb başlamışıq məktubları oxumağa, rəssamlardan danışırlar, rənglərdən, rəsm əsərlərindən, filmlərdən, şairlərdən, arada siyasətə də baş vururlar, ailələrindən az-az hallarda söz salarlar. Hamısını eşidirik. Rəssamın xaricə çoxlu səfərləri olur, ordakı şəhərlərdən, muzeylərdən, insanlardan danışır. Maraqla qulaq asırıq. Biz də onunla təyyarədə idik həmin gün. Təyyarə qəzaya uğrayan gün. Gözümüzün qabağında okeanın üstündə qəzaya uğradı... Onda qadını fikirləşirdik, ikinci dəfə hər şeyini itirən zavallı aşiq qadını... Qadın yenə yazışmasına davam edirdi, o hələ virtual səmada sevgilisini dəfn etməmişdi, elə əvvəlki qaydada yazırdı – hər şeydən, özündən, xatirələrindən... Platonik sevgilər ölmür axı... Onlar bir-birinə söz vermişdi. Bütün suallara birlikdə cavab axtaracaqlar... Rəssam real görüş istəyərdi, "Yüz il oldu, virtual tanışlığımız", qadın: "tanışlığımız virtual olsa da, realda doğmalaşmışıq axı, deyəsən" - deyərdi...

Vahid Qazinin aşiq qəhrəmanları zaman, mühit, cəmiyyət çevrəsindən çıxıb, onlar hər şeyi öz gizli, sirli, "koda qoyulmuş" iç dünyalarının qanunları ilə mühakimə edir. Onların öz daxili zamanları var, iki adamlıq cəmiyyəti və mühiti var. Onlar üçün real məkan isə sosial şəbəkədir. Sosial şəbəkədə sirli, gizli bir guşədə öz dünyalarını yaradıblar, heç kimin qarışmayacağı dünyalarını... Və burada xoşbəxtdirlər.

Yazarın mövzuya yanaşması prinsipinə hörmətlə yanaşsam da, bir oxucu kimi həmin qəhrəmanlara müxtəlif bucaqlardan baxış ştrixlərinin olmasını da arzulardım bu məqamlarda, amma yoxdur, nəzərdə tutulmayıb...

Onlayn sevgi, onlayn ünsiyyətin qeyri-verballığındakı qeyri-ciddiliklərin sayı-hesabı yoxdur. "İnternet tanışlığı" ifadəsindəki bayağı münasibət assosiasiyası da bunu sübut edir. Hətta əsəri oxumağa başlayanda Salam Qədirzadənin "46 bənövşə"sinin yeni, modern variantınımı yaratmaq istəyib müəllif? - sualı yarandı düşüncəmdə. Amma əsər səhifələndikcə öz sözünü dedi...

Vahid Qazi sosial şəbəkədə mənə "mən yazıçı deyiləm, dərinliklərə varmaq xüsusi istedad, qabiliyyət istəyir" - deyə yazmışdı. Mən, əlbəttə, belə düşünmürəm. Vahid Qazinin qələmi və ruhu, ədəbiyyat, sənət hissiyyatı, eləcə də bu qavramları bədii dillə ifadə üslubu çox yaxşıdır. Daxilə enmə və obrazların psixoloji yaşantılarını real, həqiqi, spesifik cizgiləri ilə əks etdirmə qabiliyyəti danılmazdır. Məsələn, əsərdəki qadının nəinki söhbətləri, hətta düşüncələri, fikrindən keçənlər, hisslərini ifadə tərzi belə o qədər canlı və təbiidir ki, elə bilirik ki, bu qadının müəllifi yoxdur, eləcə özü ilə qəflətən real bir məkanda tanış olmuşuq. Rəssamın da həmçinin... Müəllifin dünyanı və insanları anlamaq, qavramaq, ifadə və izah etmək istedadında yazıçılıqdan əlavə bir rəssam, bəstəkar duyumunun da olduğunu anladıq. Mətnin bütün cümlələrində rəng və səs-musiqi var. Bu əsərdə hisslər söz, musiqi və rənglərin dili ilə izah olunur. Elə bu estetik qavram detalları (söz, musiqi və rənglər) ilə də iki insan - ətrafın hay-harayından, çal-çağırından, toplum qaraguruhundan, hər məsələyə kütlə qınağı, psixologiyası ampluasından baxan, onu həmin baxış müstəvisində mühakimə edən insanlardan kənar durmağa çalışan iki insan - kişi və qadın öz təmiz, ruhlarının görüş yeri hesab etdikləri dünyalarını yaradırlar.

Obrazlardan biri deyir: "Biz özgənin yaratdığı dünyada yaşayırıq... öz dünyasını yarada bilən insanlığın sirrini açmış kimidir". Povestin qəhrəmanları -rəssam kişi və ixtisasca rejissor olub amma başqa sahədə çalışan qadın virtual məkanda özləri də hiss etmədən üçüncü bir dünyanı ruhi-mənəvi, intellektual oxşarlıqlarının istəyi hesabına yaradırlar. Bu üçüncü dünya bir-birini görməyən, fiziki olaraq heç vaxt təmasda olmayan kişi və qadının ruhi qovuşma məkanına çevrilir. Bu məkanda isə hər şey təmiz, müqəddəs və qudsaldır, estetikdir, nəciblik və intellektuallıq var bu sevgi aləmində. Bu kişi və qadın bir-biri üçün çox darıxır, bir-biri ilə onlayn da olsa söhbət etmək, müxtəlif ictimai-siyasi, ədəbi-estetik məsələlərə münasibət bildirmək, fikir bölüşmək istəyir. "Səni sevirəm" kimi ibtidai münasibət formasından imtina var bu məhəbbətdə. Burda darıxma var, ünsiyyət aclığı var... Cismani, fiziki yox, ruhi-psixoloji olaraq darıxma və istək var... Ortaq anlaşma, ortaq yanaşma, ortaq darıxma və cəmiyyətin qaraguruhundan, kortəbii, kor-koranə, instinktiv yaşamından ortaq imtina jestləri var. Rəssam hətta dünyanın o başında olsa da, növbə gözləyib 5 dəqiqəlik internet limiti əldə edəndə ən doğma adamlarını deyil, məhz bu qadını arzulayır. Onunla ünsiyyətə can atır və ona "mesaj"lar yazır. Onların söhbətlərinin məzmunu isə şəxsi, subyektiv xırdalığından çox uzaqdır. Onlar rəsm əsərlərinin, filmlərin, həyata baxış fəlsəfəsinin və uşaqlıq xatirələrinin cazibəsi dairəsində söhbət edirlər. Onlar Mikelancelodan, Klad Monedən, Van Qoqdan, Salvador Dalidən, Səttar Bəhlulzadədən, Corc Orueldən, Motsartdan, Paolo Koelodan, "Dorian Qreyin portreti"ndən, Oskar Uaylddan, Nazim Hikmətdən, R.Rövşənin şeirlərindən, Ədalətin saz havalarından, Üm-Əl Banidən, Marina Svetayevadan, Maykl Ceksondan, Alla Puqaçovadan, Sezen Aksudan, Flora Kərimovadan, Adil Mirseyiddən, Rüstəm İbrahimbəyovun, Əlfi Qasımovun əsərlərindən danışırlar, dünyanın məşhur muzeyləri haqqında fikir mübadiləsi edirlər. Şəxsi işlərindən, yaradıcılıq planlarından söhbət açanda da mədəni-etik normaları və lirik-poetik ovqatı pozmurlar. Hər şey real və qeyri-real absurdluqda cərəyan edir. Əsərin dili, məzmunu ifadə üslubu elə axıcı və ahənglidir ki, sanki bütün hadisələr bir musiqi, (özü də bəşəri bir musiqi) məsələn, Şopenin "Yağış valsı", ya da Motsartın "Göz yaşının melodiyası"nın sədası altında yazılıb. Məsələn, mənim oxu prosesimdə həmin musiqilərin səsi eşidilirdi mətndən... Bəlkə, ona görə ki, Rilke demiş: "Tənhalıq yağışla doludur"...

Vahid Qazinin "Ruhlar şəhəri" əsərində də belədir - dilin və bədii ruhun, ovqatın musiqisi əsərin məzmununu, məğzini anlamağa kömək edir...

Rəssam Qadına: "Mən səni söz-söz, cümlə-cümlə tanıyacam" - deyir. Qadınsa: "Səni mənim üçün başqalarından fərqləndirən məşhur rəssam olmağın deyil, məhz səni öyrənmək, duymaq istəyimdi. Bəzən qədim bir qaladan tapılan mücrüyə bənzədirəm səni. Qapağını qaldırmağa ürək eləmədiyim mücrüyə. İçində zinət də ola bilər, çürümüş yarpaqlar da"... Daha ənənəvi məhəbbət mətnlərimizdəki kimi "onun iri qara gözləri", "ahu baxışları", əndamı-filan təsvir edilmir. Çünki bu cismin deyil, ruhun sevgisidir, üçüncü bir aləmdə qərarlaşan qohum ruhların... Amma maraqlısı odur ki, bu kişi və qadın sevgisində həm də Vətən var. Rəssamın ürəyində işğal olunmuş Şuşanın "Çöl Qala" nisgili var. Həm yurdun, həm də ailədən kənarda, "çöl"də olan (əslində isə için, ürəyin, qəlbin və ruhun) sevgisi üçün parol olan "Çöl Qala" sirliliyi var... Əsərin kişi qəhrəmanı artıq ölkənin tanınmış rəssamlarındandır. Bu romantik sevgililər həyatın fəal, işgüzar, real qəhrəmanlarıdır həm də.

Rəssam bütün dünyanı dolaşır və hər yerdə azərbaycanlılığını saxlayır, vətən, yurd, millət üçün nəsə fikirləşir. Bütün düşüncələri və işləri barədə sevdiyi qadına mütəmadi yazmağı da unutmur: "...Bu gün ciddi bir görüşdəydim. İstəyirik islam ölkələri rəssamlarının beynəlxalq sərgisini keçirək. Neft Şirkətiylə sponsorluq məsələsini müzakirə edirdik. Deyəsən, onları o qədər də maraqlandıra bilmədim. Sərginin tək müsəlman ölkələriylə məhdudlaşmasını istəmirlər. Mən isə hesab edirəm ki, Bakını islam dünyasının mədəniyyət mərkəzinə çevirə bilərik".

"Meksikadayam. Paytaxtı çox gəzə bilmədim. Çapultəpək deyilən məşhur muzeyə də gedə bilmədim. Amma bir də gələcəm, mütləq türk izinə burada da düşəcəm. Deyirlər, orada qədim türklərin çox nişanələri var. Elə adındakı "təpək" sözü yerli dildə "təpə" anlamını verir. Nə isə, hər yerdə türk nişanələri axtarmağım çoxdankı vərdişimdi..."

Əsərdə virtuallığın realizminə, realistləşməsinə elə öyrəşirik ki, hətta rəssam qadına "Mən o səhnəni, Sənin sevginin şəklini çəkəcəm, mütləq çəkəcəm" -deyəndə "sevginin şəkli necə ola bilər? - sualını vermirik. Rəssamın və qadının özünün yox, hətta xəyallarının, həyəcanının, sevgi və faciəsinin obrazını, portretini yarada bilirik təxəyyülümüzdə. Bu ədəbi qabiliyyəti və təxəyyül intuisiyasını, əlbəttə, bizdə müəllif yaradır,...

Doğrudan da, "Sevgi bütün mövcud olanları təzələyə bilən enerjidi, onun reinkarnasiya qabiliyyəti var. Sevgi ağ vərəqdi, təzə sətirdi, doğuluşdu" - fikrinə biz də şərik çıxırıq və düşünürük: bir-birini görməyən insanların ruhu nə qədər güclü ola bilər ki, belə böyük bir sevgiyə imza ata bilsin, barmağını belə toxundurmadığı qadına "Başımı dizlərinə qoyacaq qədər dogmasan" – etirafında bulunsun....

Bu məqamlarda bir səksəkəmiz də var. Rəssamın zavallı qadını - həyat yoldaşı. Onun da özünəməxsus, alicənab və nəcib xüsusiyyətləri var. Və bu qadın obrazı da əsərin ümumi ahəngini tamamlayır sanki. Ərinin çəkdiyi göz rəsminin onun olmadığını bilə-bilə, sərgidə salonun baş tərəfindən asır və öz portretini sərgidən çıxarır. Bu xanım hətta ərinin sevdiyi qadınla üz-üzə, göz-gözə gəlir sərgi salonunda, əri ölləndən sonra... Rəssamın sevgilisi isə ölmüş rəssamın ünvanına mesajlar yazır və həmin səhnəni olduğu kimi təsvir edir.

Müəlliflə onun qəhrəmanları arasında qəribə bir münasibət müşahidə olunur. Hadisə və təsvirlərin müəyyən, hissi-emosional, kuliminativ məqamlarında sanki müəllif də onların yanında, hətta bir-birini sevən insanların arasında, ortasındadır. Bunu yazıçı əsərində özü də vurğulayır. "Növbəti gün ilk dəfə aralarında intim söhbət oldu. Söhbətin axarı məni də özüylə apardı. Başqalarının intim yazışmasını oxumaq elə onların sevişmə səhnəsinə baxmaq kimi bir şeydi. Qadının fotolardan süzülən təbəssümü, məlahəti məni də tilsimləmişdi. Rəssamın Qadına bağlanma səbəbini ilk dəfə anladım. Ondakı adamı maqnittək özünə çəkib sehrləmək gücünü bütün qəlbimlə duydum... Qadın həqiqətən də gözəldi. Fotoları belə adamı sehrləyir. Onun əsirinə çevrilməmək hər kişinin işi deyil. Rəssamın hövsələsinə məəttəl qalmışam. Görüşü bu qədər uzatmalarını anlaya bilmirəm. Oxuduqca bəzən onun yerinə özüm səhnəyə atılıb nələrsə eləmək istəyirəm".

Əsərin əvvəlindən özünü laqeyd, etinasız göstərməyə çalışan müəllif hadisələri elə məqama gətirir ki, bunun məqsədli olduğunu sanki oxucu da hiss etmir. Rəssamın həyat yoldaşı ondan xahiş edir ki, ərinin arxivində işləsin. Müəllif arxivdə

Rəssamla bağlı ağıla gəlməyəcək yeni bir həyat hekayəsi, yeni süjet, yeni roman mövzusu tapır. Əslində, Rəssamın gizli dünyasının parolunu, kodunu ələ keçirib yeni bir qapıdan, o qapıdan ki, oranın yolu heç kəsə - nə dostlara, nə ailə üzvlərinə məlum deyil - oradan daxil olur onun gizlin həyatına... Burda isə əvvəldə bəhs etdiyim iki bir-birindən uzaq və əslində, bir-birinə olduqca doğma insanla tanış edir bizi.

"Çöl Qala" povestinin hər iki qəhrəmanı - kişi də, qadın da çağdaş cəmiyyətimizin "onlayn sevgi oyunları" iştirakçılarına parodiya kimi verilmir, əksinə, yazar "onlayn" - qeyri-reallığından, "mifikliyindən" ideyasını reallaşdırmaq üçün məqsədəuyğun bir vasitə kimi istifadə edir.

Əsərin bütün ideyası bu sevgi süjetinə köklənib. Müəllifin estetik baxışları, siyasi-ictimai görüşləri bu sevginin mahiyyətinə yerləşdirilib. "...İki gündü Havanaya gəlmişəm. Qaldığım otel 1959-cu ilədək "Hilton" adlanıb. İnqilabdan sonra adını "Habava Libre" qoyublar, yəni "Azad Havana". Amma azadlıqdan əsər-əlamət də yoxdu bu ölkədə. Burdan şəhər ovuc içi kimi görünür. Okeanın "üst"ü səmanın "dib"iylə qucaqlaşıb. İşə bax, bu "qucaqlaşmaya" üfüq deyirlər... Kuba qapalı ölkədi. Keçmiş SSRİ kimi. Siz xatırlamazsınız o dövrləri. Kommunistlər hələ də vəd etdikləri kommunizmi qura bilməyiblər burda. Deyəsən, indi heç özləri də buna inanmırlar". Bu məktublarda, mesajlarda yaşayan sevginin əhvalat və xatirələrlə dolu süjetində ardıcıllıq, davamlılıq var. Onlar bir-birlərinə hər şeydən danışırlar, hər duyğu və zövq anlarının sanki şəklini çəkib göndərirlər...

"...Harda qalmışdım dünən? Hə... maşınlarda. Amma məni maşınlar yox, rəsmlər maraqlandırır. Axır ki, əsl mən deyən əsərləri tapdım. Məni dar, üfunət qoxuyan küçələrlə apardı velotaksi sürücüsü. Arıq, dərisi gündən əriyib qaralmış, üzünü qırxmağa sanki heyi qalmayan bir rəssamın evinə gün əyiləndə girdik. Yarıqaranlıq zirzəmi... İlahı, burada insan yaşayar!? Siz bunun əsərlərinə baxın... Bazara çıxardığını ayrı yığıb. Bunun "sandıq rəsmləri" əsl sənət əsərləridi. Mən onların Xorxe Kamaço, Vifredo Lam kimi məşhur sürrealist rəssamları haqda oxumuşdum, rəsmlərini görmüşdüm. Bu, onlardan heç də geri qalmır. Mütləq bu bədbəxt rəssamın da əsərlərinin baha qiymətə satılan, dəyərləndirilən zamanı çatacaq. Amma çətin o bunu görə. Somerset Moemin "Ay və qəpik" əsərini oxumusuz? Tapıb oxuyun. Rəssam bədbəxtliyi (həm də xoşbəxtliyi) haqqında ən kədərli əsərlərdən biridi. Nə isə... Cəmi iyirmi dollara çox gözəl rəsm aldım... Görüm buranın rəsmi orqanlarından icazə ala bilsəm, bu rəssamın YUNESKO xəttiylə keçirəcəyimiz böyük bir sərgiyə dəvət olunmasına çalışacam. O dahidi, heç kimin tanımadığı dahi... Yenə çıxmalıyam. Sabah başqa şəhərlərə gedəcəyik, maşın kirayələmişik. Bu ölkəni qarış-qarış gəzəcəm. İnternet olmayacaq. Sonra yazaram. Hələlik".

Onların söhbətləri çox maraqlıdır, taleləri isə bizi elə əvvəldən narahat edir. Bu sevginin sonu necə olacaq? Kişi evlidir, qadın ona qədər həyatında baş verənlərdən sarsılıb...

Görüşmək, vüsala yetmək və s. bu kimi real olacaqlar isə oxucunu o qədər də maraqlandırmır. Çünki biz bu insanların mənən, ruhən artıq çoxdan qovuşmasının şahidi olmuşuq. Cismən isə ayrılırlar. Rəssam təyyarə qəzasında ölür, qadın bir müddət sonra xərçəngdən... Lakin rəssamın ölümündən sonra da qadın ənənəvi olaraq, canlı insanla ünsiyyətdə imiş kimi yazışmanı davam etdirir. Birtərəfli yazışmanı... Onun xəyalında rəssam sağdı və onu eşidir, onun yazdıqlarını oxuyur sanki...

Müəllif isə tale, aqibət yazan deyil, amma o da çox narahatdır və həyəcanı, emosiyası mətnə yansıyıb.

"Məni qəribə bir hiss bürüdü. Elə bil bütün bu olanların baiskarı mən özüməm. Mənim günahım ucbatından təyyarə qəzaya uğrayıb, Qadın xərçəng tapıb. Onu xəstə qoyub getmişəm, guya qalıb sağaldacaqmışam. Axı mən yazılanları dəyişə bilməzdim! Pozub, yenidən, başqa cür yaza bilməzdim! Onları qovuşdurub, sonu sevinclə bitən bir sevgi dastanı yaza bilməzdim!

Bunu edə bilərdimmi? Yazılanı pozmaq olurmu?

... Gözümün qabağından onların siması çəkilmirdi. Bu vaxt ərzində mənə elə doğmalaşmışdılar ki... Lakin bilmirdim necə doğmadılar! Bəzən atam-anam olurdular, məni dünyaya onlar gətiribmiş. Ata-anasını heç vaxt görməyən yetim uşağıydım sanki. Gah da balam olurdular, bəxtsiz balalarım. Mən də qəlbində bala dağı daşıyan ata.

Birdən də Qadın mələküzlü sevgilimə çevrilirdi, Rəssam da onu əlimdən almaq istəyən qara düşmənə. Qadına vurulub şirin xəyallara getməyim də olurdu, Rəssamı qısqanc duyğularla anmağım da.

Bəzən də taleləri əlimdə olan quşcuğaza dönürdülər - istəsəm, açıb buraxaram, istəsəm, boğazlarını üzərəm.

Amma daha çox məndən imdad diləyən köməksiz sevgiliyə bənzəyirdilər. Mən də onlara istədikləri hər şeyi verə biləcək, onları xoşbəxt edəcək güc sahibinə!"

Yazıçı əsərin sonunda elə dramatik bir situasiya yaradır ki, özü də oradan çıxa bilmir. "Hər şeyi məhv etmək!" - psixoloji sarsıntısını yaşayır və kafkavari bir addım atır. Hər şeyi sıfırlamaq, yandırmaq, məhv etməklə işi bitirmək... "Evə qalxıb kompüteri açdım. Onların yazışmaları olan faylı "qovluq"dan da, "səbət"dən də sildim. Şəbəkədə Rəssamın səhifəsini bağladım.

Sonra əlyazmaları götürüb həyətə düşdüm. Dalandar Əli kişinin köşkünün yanında ocaq çatıb vərəqləri bir-bir oda atdım.

Kağız odun deyil, yananda çəkdiyi əzabın dözülməzliyindəndi, yəqin, qıvrılır, büzüşür. Bəlkə də, elə bu ağrıya görədi, tez yanıb qurtarmaq istəyir - öz dünyalarına tez köçmək istəyən adamlar kimi.

Əlyazma yanıb kül oldu. Ocağın qaralan külündə sonuncu közərti qapqara göy üzündə parlayıb itən tənha ulduz kimi söndü.

Onların ağrısı bitdi. Ağrının, kədərin olmadığı yerə getdilər. Ayrılıqların bitdiyi yerdən başlayan əbədi qovuşuqda gözdən itdilər. Daha heç bir Tanrı övladı bir də Yeliseyin - Çöl Qalanın kodunu aça bilməyəcəkdi!"

Vahid Qazi əsərinin qəhrəmanları haqqında "taleləri əlimdə olan quşcuğaza dönürdülər - istəsəm, açıb buraxaram, istəsəm, boğazlarını üzərəm" - desə də, artıq sona yaxın hiss olunur ki, müəllif çıxılmaz vəziyyətə düşüb. Qəhrəmanları ilə vidalaşmaq, onların nisgilindən qurtulmaq belə mümkünsüzləşib. O zaman sadə, asan bir üsul qalır - əlyazmanı oda atmaq, kompüterdəki faylı "qovluq"dan və "səbət"dən silmək - acınacaqlı taleli qəhrəmanlarla vidalaşmaq. Lakin aydındır ki, bu "silmə" üsulu da həmin qəhrəmanların taleyinin bir ştrixinə çevrilir və onların yaddaşda ilişib qalmış hekayələri bitmir...

Məşhur rus-amerikan yazıçısı Vladimir Nabokov deyirdi ki, "yazar özünün yaratdığı şərtilikdən kənarda qalmağı bacarmalıdır. Öz yaradıcılığının yox, ona addımbaşı tələlər quran həyatın çölündə qalmalıdır. ...Bu sayədə mən özümlə yaratdığım surət arasına bəlli bir məsafə qoymağa can atmışam. Çünki mən – yaratdığım personaj deyiləm".

Ümumiyyətlə, yazarların öz "mən"ləri, əslində, bədii simaları - obrazları ilə münasibətləri və bununla bağlı açıqlamaları müxtəlif səciyyə daşıyır. Məsələn, İsveç yazarı Tomas Transtromer bu məzmunlu suallardan birinə cavab verərkən deyirdi ki, əvvəl özüm haqqında daha utancaq, ağayana danışırdım. Çox zaman özümü işarə edəndə üçüncü şəxs əvəzliyi işlədirdim - "o" deyirdim. Ancaq deyim ki, indi də özüm haqqında nəyisə təsvir edərkən "o" deməyi sevirəm. Bu hal əvvəllər məndə ambisiya kimi idi, hansısa naməlum səbəbdən görünməz insan olmağı seçmişdim. Sonra düşündüm və qərar verdim ki, özümü göstərmək daha cəsarətli və daha effektivdir. Onda yazdıqlarım daha dürüst görünür. Həm də hamı bilir ki, əksəriyyətimiz öz təcrübələrimizdən və hisslərimizdən yazırıq.

Lakin bu simanı (öz "mən"ini, qəhrəmanınla ruhi-mənəvi qohumluq əlaqələrini) "gizlətmək" o qədər də asan olmur. Onlardan çox uzaq durmaq, onları şəxsi həyatında tanımadığın oxucuya sədaqətlə sübut etmək bir az da aktyorluq tələb edir. Aydındır ki, bədii mətnlərdə hər şey - təsvir də, obrazlar da, hadisələrin həzin və ya coşqun məcrada cərəyan sürəti də - hər şey müəllif xarakter və dünyaduyumu ilə bağlıdır. Amma mütaliə zamanı müəllifi unutmursansa, deməli, o artıq məğlubdur. Özünü oxucusundan və qəhrəmanlarından ağıllı bilən müəllif bunu bir vəchlə sezdirir, fərqi yoxdur, hansısa obrazın monoloqunda, ya səciyyəsində, ya da finalda, epiloq və ya proloqda, ideyanın təbliği üslubunda... X.L.Borxes Dante haqqında deyirdi ki, "İlahi komediya"nın sonunda o ədalət obrazının müəllifi olduğını oxucusuna hiss etdirməmək üçün "mən"ini "Komediya"dan çıxartdı. Çünki onun subyektiv münasibəti ilahi hökmə uyğun gəlmirdi...

Vahid Qazi öz obrazını da salıb əsərə, amma biz onu müəllif kimi unutmuşduq oxu prosesində, əsərin qəhrəmanlarından biri kimi yadımızda qalmışdı - qeyri-adi bir sevginin hekayəsini anlada bilmədiyi üçün ona - həmin sevgiyə, ona aid bütün əlyazmalara od vurub yandıran bir qəhrəman kimi...

# Geriyə qayıdış

Aleksandra AKULOVA

*Cavanlar xəyal edirlər,*
*qocalar xatırlayırlar*
**Lui Araqon**

Biz insanlar zamanın məhbuslarıyıq. Bəşəriyyət insanlardan, tək-tək fərdlərdən ibarətdir. Və hər kəs zamanı qabaqlamaq, önə keçmək istəyir. Lakin zamana qalib gəlmək, onu üstələmək mümkündürmü?! Biz təbiətin, zamanın hissələriyik. Zamanın axarında boğulmamaq üçün insanlar mübarizəyə qalxır və savaş, idrakın zirvəsində duranlara sonsuzluq deyil, ölüm bəxş edir. Hər kəsin içində bir zaman vardır. Yaşından asılı olmayaraq, ölümün insanı haqlaması içimizdəki zamanı da məhv edir. Məhv olan, dayanan isə zaman deyil, əslində, özümüz oluruq. Sadəcə bizə ayrılan vaxt bizi əbədi olaraq tərk edir. Bundan sonra sonsuzluq, zamansızlıq dönəmi başlayır. Bunu saatla müqayisə edə bilərik. Saatın daşını çıxarsaq, saat, dəqiqə, saniyə əqrəbləri dayanacaq. Yalnız bir evdə, biri üçün müvəqqəti xaos yaranar, zaman isə yenə var olacaqdır. Çünki dayanan zaman yox, saatdır.

Zaman qocalmır, əksinə hər nəslin nümayəndəsi üçün təzə, idarə olunan və tükənməzdir... Qocalan, tükənən, ölən də biz, zamansa əbədi və sonsuzdur. Zaman dayanmır, daim gedir, gedir və gedir. Bir anlıq da olsa saxlaya bilmirik. Elə sürətlə uçur ki, iki ayaqlı insan quş kimi qanadlanıb pərvaz etsə də, ona yetişə bilməz. Zaman bizdən daim bir addım öndədir. Bizi geridə buraxıb gələcəyə doğru axır. Sonsuz, bitməz, tükənməz gələcəyə... Zaman tarix yaradır, insanlar isə düşünürlər ki, onu haqlayıb geridə buraxıblar. Halbuki hər keçən dəqiqə və saatla zamandan həm geri qalır, həm də ölümə yaxınlaşırıq.

Fransız yazıçısı və filosofu Jan Labrüer qeyd etmişdir ki, vaxtdan istifadə edə bilməyən adam həmişə onun yel kimi uçmasından gileylənir. Dostoyevski isə həyata yenidən başlasaydı, saniyələrin nəbzin tutarmış... Bəs bizim üçün zaman nə qədər qiymətlidir?!

Dünyaya göz açmış uşaq həyatının müəyyən mərhələsində saat, vaxt məfhumlarıyla tanış olur. Bu tanışlıq məhdud xarakter daşıyır. Yeniyetmə və gənclər isə zaman axınını heç hiss etmirlər. Onlar zamanın gözlə qaş arasındakı məsafə qədər tez ötüb keçməsini arzulayırlar və ölümə bərabər olan vaxt itkisinin mahiyyətini dərk edə bilmirlər. Anlaya bilmirlər ki, zaman getdisə, geri qayıtmayacaq. İnsan üçün o, dünənə çevrilir, bəşəriyyət üçünsə tarixə... Üzümüzə açılan hər səhər bizimçün qaçhaqaçla başlayır. Harasa qaçır, tələsir, amma yenə də zamanın nəbzini tuta bilmirik. Vaxt, zaman öz işini görür. Bizə ancaq yaşadığımız zaman dönəmində vaxtımızı dəyərləndirmək, boşa verməmək qalır. Bu sözləri tez-tez işlədirik: vaxtım yoxdu, gələ bilmədim, qalsın. Zamanı günahlandırıb yaxınlarımıza, əzizlərimizə laqeyd davranırıq. Nəticədə insanlarla, bütövlükdə həyatla aramızda düzəldiləsi mümkün olmayan uçurum yaranır... Zamanı öldürdük, düzgün xərcləyə bilmədik və geriyə boylanıb baxanda sırayla düzülən "KAŞ"lar silsiləsiylə üz-üzə qaldığımızı görmüş oluruq. Gələcəyə baxanda isə artıq gec olduğu anlaşılır.Yaşadığımız həyat zamanla vəhdətdədir. Həyatını ayaq-baş yaşayan birisi ahıl yaşında bütün ömrünü bada verdiyini dərk edir. Qalan ömrü nəyisə yoluna qoymağa, geri qaytarmağa kifayət etməz. Uçurum elə dərin olur ki, keçmişə nəzər salanda bütün bağların zamanla məhv olduğunun şahidi olursan. Bütün körpülər yandırılmış, nə keçmişə, nə də gələcəyə addım atmağa imkan qalmamışdır. Yalnız indi var. İndinin içində keçmişi xatırlamaq və "kaş dünyaya yenidən gələydim, başqa cür edərdim" demək qalır... Zaman öyrədən, güldürən, ağladan və sonda hər kəsi öldürəndir...

Həyatımızın hər dəqiqəsi gələcəyimizi həll edir. Və həmin dəqiqələr elə hesablanmalı, qurulmalıdır ki, ömrümüzün 20-30 il sonrakı dönəmi peşmançılıq dəqiqələri və təəssüf içində keçməsin...

Və budur hər saniyə dəqiqəyə,dəqiqələr saata, saatlar günlərə, günlər həftələrə, həftələr aylara,aylar isə illərə qovuşur... Zamanın axarında yox oluruq...

# Bir yarpaq ümid

*dəyərli şair dostum Qulu Ağsəsə*

Balayar SADİQ

I

Diksinir tumurcuq bələklərində,
Mərmi alovunda islanan çiçək.
Allahım, mərminin allahı yoxdur,
Ətəyin islanar, ətəyini çək.

"Təsəlli" sözünün burnu qanayıb,
Ümidlər başını götürüb qaçır.
Elə bil əcəlin vaxtı daralıb,
Gör neçə qapını döymədən açır.

Arzular, ümidlər gözdən yıxılır,
Ürəyim ağrıyan sözdən yıxılır.
Məni bir misrada dəfn edəcəklər.

Üz yox danışmağa çölün otuyla,
Silir göz yaşını mərmi oduyla,
Qarabağ çölündə açan çiçəklər.

II

Qarabağ çölündə açan çiçəklər
Burda unudulmuş şəhid ahıdır.
Ölüm bu misradan utanır hər gün –
Şəhidlik həyatın "bismillah"ıdır.

Qulaq söykəyirəm ana torpağa,
Ordan haray gəlir, ordan səs gəlir.
Bu səsdən adama Vətən yolunda
Ölməyə ilahi bir nəfəs gəlir.

Dərdlər ayaq açdı "bəlkə" sözündən,
Yıxılıb gör neçə "bəlkə" sözündən,
Səbri tükənibdi "bəlkə"lərin də.

Əcəl-kor fələyin baxışlarıdır,
İşaran güllələr göz yaşlarıdır,
Qərib gecələrin bəbəkləridir.

III

Qərib gecələrin bəbəklərində,
Donub göz yaşı tək mərmi səsləri.
Sükutun əlləri quruyub yoxsa,
Niyə bircə yarpaq dərmir səsləri?

Mərmi tüstüsündə tutulub gözü,
Bir haray boğulur bir ovuc səsdə.
"Sübhənallah" sözü dan yeri kimi,
Sökülür hər şəhid məzarı üstə.

Bəxt yetim uşaqtək boynunu burub,
Mamırlı bir daşın dalında durub.
Gör kimin yolunu gözləyir qədər?

Yolları üşüyür qorxuların da,
Şuşanın, Laçının yuxularında.
Güllə səsləriylə açılır səhər.

**IV**

Güllə səsləriylə açılır səhər
Şuşanın Şuşada öldüyü yerdə.
Allaha sonuncu məktubu yazdım,
Yazdım dərdlərimin güldüyü yerdə.

İlahi, mən axı qurd balasıydım,
Bəs niyə bir suyum qoyuna çəkir.
Hər il təqvimdəki "8-i may"ı,
Qovur Şuşada "xaç suyu"na çəkir.

Götür bu misrayla yaramı sarı,
Boylan kəlmə-kəlmə Şuşaya sarı.
Bəlkə, yuxuladı gözündə yuxu.

Mərmi yağışları yetmədi sona,
Hər misra ağlayan yaşılbaş sona, -
Didərgin düşübdü Vaqifin ruhu.

**V**

Didərgin düşübdü Vaqifin ruhu,
Xəbər yollamışam Kür qırağına.
Qalxsın məzarından qoca Vidadi,
Bir "yaşılbaş" misra bassın bağrına.

Bəlkə, bircə misra təsəlli tapdı
Kövrək qoşmaları Molla Pənahın.
Tanrı hesabını soruşar bir gün,
Şuşa məscidini bürüyən ahın.

Bir yol ağrıları dumanda azdır,
Dur, əlhəd daşının altında basdır
Qəlbində yurd salan acı hicranı.

Sözümdə ümidin ətrini yoxla,
Şuşada daşların nəbzini yoxla -
Hər daşda çırpınır bir şəhid canı.

**VI**

Hər daşda çırpınır bir səhid canı,
Bu yurdun halını daşlardan soruş.
Mərmi qəlpəsitək köksündə göynər
"İsa bulağı"yla sonuncu görüş.

Günahı fələyin boynuna yıxma,
Fələk saymayanı gavurlar sayır.
Görəsən, ayağı harda burxulub,
Qələbə yolları niyə axsayır?!

Susmuş bir nəğmədir bu ocaq külü,
Çoxdan ovudan yox "Xarı bülbül"ü,
Ruhlar hey dolaşır öc sorağında.

Qəmli arzuları yaddaşına sər,
Ümid göz yaşını yuyur hər səhər,
Şuşa bulağının hıcqırığında.

**VII**

Şuşa bulağının hıçqırığında,
Gavur saçlarını darayır hər gün.
"Qələbə" sözündən bircə hərf düşüb,
Qeyrət onu gəzir, arayır hər gün.

Torpağın alnında möhür yeridi,
Şəhid imzasını daşıyan məzar.
Ayaq altda qoyub bir igid ömrün,
Vətəni çiynində daşıyan məzar.

Sonuncu haray da gəldi gülləyə,
Şuşa məscidində üzü qibləyə
Basdıran qalmayıb ağrı-acını.

Ümid itkin düşüb göyün üzündə,
Dərd məclis qurubdu "Cıdır düzündə",
Natəvan qəzəli yolur saçını.

**VIII**

Natəvan qəzəli yolur saçını,
Əsir misra-misra matəm yelləri.
Çoxdandır Şuşada qürbət qoxuyur
Pərişan-pərişan ümid gülləri.

İnləyir kafirin ayağı altda,
Bu iman ətirli vətən torpağı.
Izn ver, qibləyə basdırım, Allah,
Kafir tapdağında itən torpağı.

Danış, Vətən ətri gəlsin səsindən,
Şuşa məscidinin minarəsindən,
Sükut qərib-qərib baxır yollara.

Azıb qibləsini bir əzan səsi,
Çoxdandı, göynəyir sözün sinəsi,
Nə vaxtdır ümidlər geyinib qara.

**IX**

Nə vaxtdır ümidlər geyinib qara,
Nə vaxtdır yurd yeri qürbət qoxuyur.
Həsrət yağışında elə islanıb,
Dağlar havalanıb, daşlar oxuyur.

Bir misra inandır məni, İlahi,
Inandır, ölməyib Laçın yolları.
Dönüb Xan Əslinin düymələrinə,
Nə sehr oxuyum, açım yolları?!

Kövrək xatirələr düşüb qabağa,
Döyüş nəğməsini qaldır ayağa.
Muştuluq aparsın ayrılıqlara.

Heyrətdən qaşını çatıbdı heyrət,
Qisas paltarında yaralı qeyrət.
Söykənib üzünü lal məzarlara.

**X**

Söykəyib üzünü lal məzarlara,
Görən, nə düşünür döyüş yolları.
“28 May” da bilet götürüb,
Qatarı gözləyir dönüş yolları.

Min ildir, bilən yox hansı dildədir,
Şəhid anasının gözünün yaşı.
Gəl, görüş “Şəhidlər Xiyabanı”ndan,
Vətən sevgisinin neçədir yaşı?!

Dərd əli xınalı qapıya gəlib,
Elə doluxsunub, elə kövrəlib.
Həsrətdən titrəyir sözün dodağı.

Üzünü qoyubdu şəhid üzünə,
Bir ovuc torpağı sıxıb gözünə.
Inləyir bayatı, hönkürür ağı.

**XI**

Inləyir bayatı, hönkürür ağı,
Ümidlər islanıb göz yaşlarında.
Didərgin ellərin torpaq arzusu,
Azıb alınların qırışlarında.

Çox sağ ol, şəhidim, zəfər yolundan,
Bir yarpaq qopartdın, bir misra dərdin.
“Lələ təpəsi”nə lalələr kimi,
Döyüşçü ömrünü əlində sərdin.

Şəhid ətri verən cürətə baxın,
Barıt qoxusunu çırpıb torpağın.
Arzu çiçəkləyir üzü bahara.

Şuşa ağrısından gəl, as yolları,
Ta çıxıb köynəkdən qisas yolları.
Səbrimi dəfn edin qaranlıqlara.

**XII**

Səbrimi dəfn edin qaranlıqlara,
Qələbə yolunun gözləri gülür.
Üçrəngli bayrağım, gözlərin aydın,
Sənin rənglərinin üzləri gülür.

Daha üz tutmağa üzü qalmayıb,
Şükür, üzülübdü dərdin əlləri.
Bir ovuc muştuluq səp yarasına,
Zəfər ətri vursun dərdli əlləri.

Pıçılda torpağa, daşa dərdini,
Laçın ağrısını, Şuşa dərdini
Fələk mərmi-mərmi əkib yollara,

Qeyrət qayasından boylanır ümid,
Hələ də şeirimdə sonuncu beyt.
Nəmli gözlərini dikib yollara.

**XIII**

Nəmli gözlərini dikib yollara,
Qəlbimdən boylanan bir qoca misra.
Hər gün dalğalanır dərd dağlarında
Mənim könlümdəki ən uca misra.

Dərdinə qısılmış şəhid balası,
Səni ovutmağa utanır sözüm.
Yaralı qeyrətin üzünə baxıb
Həyasız-həyasız irişir dözüm.

Nə vaxtdı, özündən özünü asıb,
Üzünü-gözünü ot-ələf basıb.
Ələyin bu yolu, sözüm var axı,

Qisas şəhid-şəhid çağırır onu,
Qılınctək siyirib ümid yolunu.
Bir oğul gözləyir Vətən torpağı.

**XIV**

Bir oğul gözləyir Vətən torpağı,
Oğul bu torpağı gözləyən kimi.
Şəhid ətri hopmuş dağlar, dərələr,
Kövrəlir bir yarpaq söz deyən kimi.

Güllə yağışında, mərmi odunda
Bir an yıxılmayan ümidim, sağ ol.
Üzü Qarabağa bir yol başlayıb,
Zəfər müjdəsiylə gülümsəyən yol.

Nur yağır şeirimin hər bir sətrinə,
Göylər bələnibdi şəhid ətrinə.
Gözü aydın olsun mələklərin də.

Zəfər nəğməsitək çağlayır sular,
Qələbə ətrini duyan arzular.
Diksinir tumurcuq bələklərində.

**XV**

Diksinir tumurcuq bələklərində,
Qarabağ çölündə açan çiçəklər.
Qərib gecələrin bəbəklərində
Güllə səsləriylə açılır səhər.

Didərgin düşübdü Vaqifin ruhu,
Hər daşda cırpınır bir şəhid canı.
Şuşa bulağının hıcqırığında
Natəvan qəzəli yolur saçını.

Nə vaxtdır ümidlər geyinib qara,
Söykəyib üzünü lal məzarlara
Inləyir bayatı, hönkürür ağı.

Səbrimi dəfn edin qaranlıqlara,
Nəmli gözlərini dikib yollara,
Bir oğul gözləyir Vətən torpağı!

Mar BAYCİYEV

*Xalq yazıçısı, Qırğızıstan Respublikası Kinoakademiyasının akademiki, Manas Ordeni kavaleri Mar Taşim oğlu Bayciyev 23.03.1935-ci ildə Qırğızıstan SSR-nin Cəlilabad şəhərində müəllim və yazıçı ailəsində doğulub. Qırğızıstan Dövlət Universitetinin filologiya fakültəsini, Moskva Ali Ssenari və Kinorejissorluq kurslarını bitirib. "Qırğızfilm" kinostudiyasında redaktor, Qırğızıstan Respublikası Mədəniyyət Nazirliyində baş redaktor, "Literaturnaya Qazeta"nın xüsusi müxbiri vəzifələrində çalışıb.*

*M.Bayciyev qırğız və rus dillərində yazır. Onun hekayə və povestləri bir çox dillərə tərcümə olunub, respublika və mərkəzi jurnallarda, ayrıca kitab şəklində çap olunub, pyesləri keçmiş SSRİ-nin yüzdən çox teatrının repertuarına daxil edilib, həmçinin Polşa, Almaniya, Çexiya, Rumıniya, Avstriya, Macarıstan, Finlandiya, İsveçrə, Kanada və başqa ölkələrin teatrlarında səhnəyə qoyulub. Onun ssenariləri əsasında müxtəlif kinostudiyalarda çəkilmiş filmlər dünya kinofestivallarında ali diplomlara layiq görülüb, kütləvi tamaşaçı sevgisi qazanıb.*

# Oğru

– O! O-ooo! Saxlayın! Saxlayın! – atlı ağ papağını yelləyərək qışqırırdı. O sürülmüş sahə ilə çapırdı. Keçəl başı günəş altında parıldayırdı...

Kartofun dibini yumşaldan şagirdlər qorxan keçilər kimi dikəldilər və donub qaldılar.

– Agay, kimi saxlayaq? – Qız soruşdu.

Müəllim çiyinlərini çəkdi.

– Bu kimdir? – O, öz növbəsində soruşdu.

Uşaqlar həyəcanla bir-birinin sözünü kəsərək atlının kim olmasını təxmin etməyə başladılar. Atlı yaşıl çapanda idi, bəziləri qışqırırdı ki, bu Suların rəisidir – Taştan dayıdır, bəziləri onun Baken baba olduğunu deyirdilər. Bəziləri isə qərara gəldi ki, bu qərib yad insandır, onun çapanı Taştan dayının çapanı kimi köhnə deyil, Baken babanınki kimi təzə də deyil.

Müharibə zamanı, qadınlar elə ustalıqla yamaq vurmağı öyrənmişdilər ki, çapanlar, köynəklər və şalvarlar ağ ləkələrlə coğrafi xəritələri xatırladırdı. Atlı yaxınlaşanda uşaqlar bir səslə qışqırdılar ki, bu – Suların rəisi – Taştan dayıdır. Onun yaşıl məxmər çapanında nişan kimi ağ ipəkdən yamaq parıldayırdı. Uşaqlar Tuyqun adında ayğırı da tanıdılar.

– Niyə tutmadınız? – Suların rəisi qışqırdı.

– Kimi? – Müəllim soruşdu.

– Oğrunu!

– Hansı oğrunu?

– E-ey! – Taştan ümidini kəsdi...

– Çox böyük, zorba! Saçları uzun, çiyninə tökülmüş! Hər ayağı mənim belim qalınlığında!

Müəllim şübhə ilə gözlərini qıydı: aulda hələ də mövhumata inanan adamlar şeytanların qadın cildində aşıq saçları ilə gözə göründüyünü və onların dabanları qabaqda gəzdiklərinə görə ancaq yerişlərindən tanımaq olduğunu söyləyirdilər.

– Bəlkə, sənin gözünə görünüb, Suların rəisi? – müəllim gülümsədi.

Uşaqlar da gülümsədilər.

– Əgər yalan deyirəmsə, müqəddəs çörək mənim gözümü tutsun! Əgər yalan danışıramsa, Allah məni cəzalandırsın!

– Çş-ş! Burada şagirdlər var! – müəllim xəbərdarlıq etdi, belə ki, o hələ and içə bilərdi.

– Oy, heyf, o-o-oy! –Taştan dayı əlini yellədi. – Mən fikirləşdim ki, burada insanlar var, sən demə, şagirdlərdir. Bu kitablar sizi nə Allaha, nə də insana inanmağa qoymur!

Müəllim hirsləndi:

– Hansı oğru? Günün gündüz çağı o hardan çıxa bilər? Bəlkə, məktəbli idi?

– Oy, əfsus o-o-oy! Nə məktəbli? Bütün görünüşü ilə oğrudu. Çox böyük, zorba!

– Almanların casusu! – şagirdlərdən biri dilləndi.

– O niyə casusluq eləməlidi? Müharibə ki bitib, – başqa bir şagird dedi.

– Bizim sədrimiz məni çağırdı və dedi: «Əkə, bütün kolxoz arxları sizə tabedir". – «Bəli, – deyirəm, – mən Suların rəisiyəm". – "Bağışlayın, – deyir, – yoldaş Suların rəisi, arxların arası ilə xüsusi geyim olmadan gəzməyə sizi nə vadar edir". – «Bəli, – deyirəm – bu zəruri idi, lakin yalnız suvarma kanalları boyunca yox, – suyun içi ilə də». O isə deyir: "Nə etmək olardı – müharibə idi. İndi isə sizin üçün xüsusi çəkmələr yazıblar. Su keçirməyən. – «Hörmətinizə görə təşəkkür edirəm" – «Yaxşı, – o deyir, – biz yaxşı işçilərə hörmət edirik».

– Elə belə də dedi? – xüsusi marağı olmadan müəllim soruşdu.

– Yaxşı, tutaq ki, tamamilə belə deyil, lakin onun sözləri belə səslənirdi. Yaxşı işçilərə hər yerdə hörmət edirlər. «Mən duydum – o davam edir, – siz atları müalicə etməyi bacarırsınız».

– «Bəli, – deyirəm – bacarıram". – "deməli belə, – o deyir, – axsaq ayğır Tuyqunu götürün, müalicə edin və üstündə gəzin". Uzunboğaz rezin çəkmələri aldım, qayıtdım və dedim: «Hörmətə görə siz və sovet hökuməti sağ olsun».O isə deyir: «Əkə, biz yaxşı işçiləri ..."

– Eh, sən oğru haqqında danış! – Günəşə baxaraq müəllim onun sözünü kəsdi.

– İndi oğruya da çatacağam. Belə ki, bu gün mən ayğırı naxır bulağına gətirdim, dünən o, yaşıl yonca yemişdi. Mən düşündüm ki, heyvan öləcək. Yox. Deyəsən, ayğırcıq sağ qaldı. Bir az duz verməyi qərara aldım, evə gətirdim.

Müəllim artıq onu dinləmirdi və yenidən işə başlayan şagirdlərinə nəzarət edirdi. O, Taştandan aralanıb öz işi ilə məşğul ola bilmirdi. Taştan ondan böyük idi. Müəllim özü nə vaxtsa "Savadsızlığın ləğv edilməsi" kurslarını və başqa nəyi isə bitirib, müharibədə iştirak edib və indi hərbi işi, bədən tərbiyəsini, rəsmxəti, alman dilini, rus dilini və hətta coğrafiyanı tədris edirdi.

Suların rəisi öz söhbətini davam etdirirdi və heç cürə əsas hadisəyə çata bilmirdi.

– Gördüm ki, kimsə anbarda qurdalanır. Fikirləşdim ki, yəqin, qonşu od arxasınca gəlib. Tuyqunu bağlamağa başladım. Boylananda mənə elə gəldi ki, qadın anbardan çıxıb evin arxasına tərəf qaçdı. Fikirləşdim ki, yəqin, kimsə utancaq gəlinlərdəndir. Anbara girəndə orada toyuq başını gördüm. Düşündüm ki, it sürüyüb gətirib. Baxanda gördüm ki, mənim qırt toyuğumun başıdır. Mən öz toyuqlarımın başını mürəkkəblə boyayıram. Bütün bunların nə demək olduğunu düşünərək anbardan çıxdım. Onda gördüm ki, qadın artıq mənim bostanımı keçərək tarlaya qaçdı və tayanın altında gizləndi. Mən Tuyquna mindim və onun arxasınca getdim. Bütün ot tayasını axtardım. Elə bil yoxa çıxdı, yerə girdi. Mən o biri ot tayasına da baxdım. Qadın oradan sıçrayıb çıxdı. Saçları pırtlaşıq, qarışıq, qırmızı parça ilə bağlanmış, uzun paltarda. Ancaq çılpaq dabanları parıldayırdı.

– Dabanları deyirsən? – Müəllim diqqətlə qulaq asırdı.

– Dabanları!

– Aydındır... – Müəllim peysərini qaşıdı.

– Oy, o-o-oy! Yenə mənə inanmırsan? Dabanları adi idi!

– Nə olsun ki?

– Nə? Mən onun arxasınca qaçdım. Ayğır da axsaqdır axı! Çaparaq sürmək olmaz. Heyvanın canı çıxar, sonra cavab verməli olacağam. Onun bu tərəfə qaçdığını öz gözlərimlə gördüm.

– Bəlkə, bura qaçmayıb?

– Mən qara torpağa and içirəm ki, bu istiqamətə qaçıb.

– Bəlkə, gözünə görünüb?

– Oy, Allahım!– Suların rəisi bənövşəyi mürəkkəblə boyanmış toyuğun başını cibindən çıxartdı və müəllimin ayaqları altına atdı.

Uşaqlar onları dövrəyə alaraq dar dairə ətrafında toplandılar və toyuğun başına baxmağa başladılar. Taştan, nəhayət, təəssürat yaratdığından məmnun halda cibindən köhnə qadın paltarının çirklənmiş kəmərini çıxartdı və müəllimə verdi.

– Bax, budur! – o dedi.

Bir neçə oğlan sahilboyu sahədəki kolları axtarırdılar. Müəllim də xəndək boyunca getməyə başladı.

– Bax, o bura qaçdı. Hətta mən onu arxadan gördüm.

Tarla boyunca səpələnmiş uşaqlar hər bir kolu axtarırdılar.

– Bəlkə, o... şey... yox olmağı bacarır? – Suların rəisi soruşdu.

– Belə olmur! – Müəllim onun sözünü kəsdi.

Oğlanlar arılar kimi gəzib axtardılar, müəllimin yanına qayıdaraq heç bir oğrunun olmadığını söylədilər.

– Doğrudan da, yəni gözümə görünüb? – Taştan qorxu içində soruşdu.

– Əlbəttə, gözünə görünüb! – Müəllim sevindi. – Nə? Yoxsa: "Görmüşəm, qaçırdı, saçları uzundu, dabanları yalın idi, ayğırı qovdum" – büsbütün sabun köpüyü.

– Niyə ki, ha? – Suların rəisi heyrətləndi.

– Bəlkə, pis yatmısan, Yuxuda kimisə düşünmüsən.

– Bəli, bəli, – deyə o başını əydi. – Bütün gecəni yatmamışam, dizlərim üşüyürdü, həyat yoldaşım ilə yaşadığım vaxt belə şey olmamışdı ...

– Bax budur! Həyat yoldaşını qovdun, indi də əzab çəkirsən!

– Onu mən qovmamışam! İyirmi il yaşadıq, ancaq uşaqlarımız olmadı. Uşaqlar olmadan necə yaşayaq? Biz də darıxdıq. Bir-birimizdən ayrılmaq qərarına gəldik. Bəlkə, başqa biri ilə ailə həyatı qursa, xoşbəxt olar. Bəli, bəlkə, mən də oz taleyimi tapdım. Görək də necə olacaq.

– Məsələn, ac yatırsan, yuxuna beşbarmaq[1] girir, doğrudur?

– Doğrudur – Suların rəisi razılaşdı.

– Əgər susuzluqdan əziyyət çəkirsənsə, yuxuna təzə qımız girir!

– Düzdür!

– Bəzən gecələr yuxuda ayaqyalın gəzirəm!

– Yəni bütün bunlar hamısı kitablardadır?

– Bəs necə! «Yuxu və yuxuyozmalar" adlanır.

– Sən heç kimə danışma, yaxşı? Yoxsa biabır olaram.

– Yaxşı, – müəllim razılaşdı. – Bunun üçün mənə nə verərsən?

– Mənim çapanımı götür, köhnədir, ancaq yamaqları ipəkdəndir.

– Sənin çapanını istəmirəm, üç mil uzaqdan tər iyi verir! Gəl, sən mənim arxıma su burax.

– Sənin növbən çatanda su olacaq, – Taştan ciddi şəkildə dedi.

Yaxşı, səninlə razılaşmaq olmur... Uşaqlar, – deyə o böyüklərin söhbətinə qulaq asan, ancaq özlərini işləyən kimi göstərən uşaqlara müraciət etdi... – Uşaqlar, on beş dəqiqəlik fasilə e\lan edirəm. Arxdan su içməyin! Xəstələnərsiz! Aydındır?

– Aydındır! – şagirdlər xorla cavab verdilər, dərhal otun üstünə sərilərək çantalarından yeməklərini çıxartmağa başladılar.

Suların rəisi papağını gözünün üstünə basıb Tuyqunu arx boyunca apardı. Birdən ayğır ürkmüş şəkildə kənara sıçradı, Taştan dayı isə qışqırdı və əllərini tərpətdi.

Hamı ona tərəf getdi.

– Bax o qadındır! Axı mən deyirdim! Bax o qadındır!

Qadın arx boyunca uzanmışdı. Onun sahil boyu qaraqovaqla örtülmüş başı və ayaqları görünürdü. Bədəni, demək olar ki, bütünlüklə suyun altında idi. O, ölü kimi uzanmışdı, görünür, qorxudan donmuşdu.

– Qalx ayağa, ifritə! – Taştan onu qamçının sapı ilə vurdu.

İfritə tərpənmədi.

---

[1] beşbarmaq – qazaxların milli yeməyi

Suların rəisi ibadətin ilk sözlərini öz-özünə danışaraq suya girdi. İfritə birdən ayağa durdu və uzun ətəyini tutub axın ilə üzü aşağı qaçdı. Uşaqlar qəhvəyi qabarcıqları geridə buraxaraq, fit səsi ilə qıy vuraraq qadının arxasınca atıldılar. Müəllim yaralı ayağı üstə əyilərək hamının arxasınca axsaya-axsaya əmrlər verərək yeriyirdi.

– Körpüyə! Arxdan çıxmağa imkan verməyin!

Onun döyüş inadkarlığı hiss olunurdu.

Birdən ifritə kəskin surətdə döndü, birbaşa böyük, ağ dişlərini ağardaraq Taştan dayının üstünə getdi. O, qeyri-iradi geri çəkildi.

– Rəis, qorxma, mən buradayam! – Müəllim qışqırdı.

Komandirin səsini eşidən Taştan dayı özünü gümrah hiss elədi və əllərini aralayaraq, asta-asta ifritəyə yaxınlaşmağa başladı. Çubuqlar, gil parçaları ilə silahlanmış uşaqlar onu müşayiət edirdilər. Onların gözləri pələngin balaları kimi parıldayırdı. Məsafə azalırdı. İfritə qarabuğdayı, yarıçılpaq çiyinlərini yırğalayaraq təqib olunan dişi canavar kimi baxırdı. Onun qulaqlarında aypara şəklində qızıl sırğalar parıldayırdı.

– Əllər yuxarı! – Müəllim dedi.

İfritə başını silkələdi. Sırğaları günəş şüaları altında parıldayırdı.

– Silahı ver! – Müəllim əmr etdi.

Suların rəisi fürsətdən istifadə edərək qar bəbiri kimi ifritənin üstünə atıldı, lakin o hönkürtü ilə ağlayaraq suya tullandı. Taştan əlləşənədək ifritə dırmaşıb sahilə çıxdı. Oğlanlardan ikisi onun üstünə atılaraq qıçlarını möhkəm qucaqladılar. İfritə yıxıldı. Taştan dayı qamçını qaldırdı.

– Hey! hey! – Müəllim qışqırdı.

Lakin Taştan ifritəni qamçılamağa macal tapdı. O yenə əlini qaldıranda müəllim özünü çatdırdı və qamçını dartıb götürdü.

– Qadını döymək olmaz! – o dedi.

– Hansı qadın! O ki oğrudur! – Taştan dayı sakitləşmədi.

– İndi aydınlaşdırarıq, – daşın üstündə oturan müəllim soyuqqanlılıqla dedi.

Suların rəisi dişlənmiş əlinin qanını yalayaraq hirslə öz-özünə nə isə danışırdı, özünü söyürdü.

– Siz kimsiniz? – «Müstəntiq» soruşdu.

Qadın cavab vermədi.

– Xəndi xok! Hitler kaput! – oğlanlar hər tərəfdən qışqırırdılar.

Müəllim əlini qaldırdı. Hamı susdu.

– O oğrudu! Mənim qırt toyuğumu oğurlayıb. Qırt toyuğumu! Çörəyimi oğurlayıb! Mənim əlimi dişləyib! Onu şəhərə, həbsxanaya aparın! – Taştan çömbəlib oturdu.

– Siz sovet vətəndaşına zədə yetirməklə maddi ziyan vurmusunuz. Biz sizi cinayət məsuliyyətinə cəlb etməliyik! – müəllim dedi.

Elə bil ki, oğru heç bir sözü başa düşmürdü.

– Xəndi kok! – Hansısa bir oğlan dözə bilmədi.

Ona təpindilər, o, susdu.

– Mənim komandama qulaq asın! – Müəllim ayağa qalxdı. – Gözlənilməz hadisə ilə əlaqədar olaraq kartofun dibini doldurma dayandırılır!

– Ura! – uşaqlar qışqırdılar.

– Sakit! Aşim və Tolemuş! Siz burada qalırsınız və briqadirə baş verən hadisə haqqında məlumat verirsiniz. Yerdə qalanlar qadını idarəyə aparsın. Aydındır?

– Aydındır!

Taştan qadının əllərini bağladı, Tuyquna oturtdu, uşaqları xəbərdar elədi ki, yaxına getməsinlər, çünki o dişləyə bilər və irəli hərəkət etməyə başladı. Qızlardan və oğlanlardan ibarət dəstə Qulliveri əsir almış liliput dəstəsi kimi sarı toz qaldıraraq onların ardınca gedirdilər. Müəllim külək tutmayan tərəfdə onların yanıyla axsayaraq gedirdi.

Artıq kənddə söz gəzirdi ki, Taştan dayının evinə oğrular girib, bütün qiymətli şeyləri oğurlayıblar. Evin sahibini isə avtomat silahla yaralayıblar. Güman edirdilər ki, bu, onun keçmiş həyat yoldaşının işidir. Oğrunu fil kimi aulun küçələri ilə aparanda, evlərdən qocalar və uşaqlar axışıb gəlirdilər və onlar hamısı aul itlərinin mehriban hürüşməsinin müşayiəti ilə kolxozun idarə heyətinə tərəf hərəkət edirdilər.

Sədr idarədə tapılmadı, briqadirlər isə hamısı tarlada, əkin yerində idilər. Tezliklə atlar, araba və traktorlarda kolxozdan qayıtmağa başlayan işçilər oğrunu üzük kimi əhatə edərək ona indicə edama aparılacaq cinayətkar kimi seyr etməyə başladılar. Taştan yenə ətraflı şəkildə baş verənləri danışmağa başladı. Və hər dəfə də kolxoz sədrinin yaxşı işçiyə hörmət əlaməti olaraq ona bağışladığı rezin uzunboğaz çəkmələrdən və yaşıl yonca yeyən axsaq ayğırdan danışırdı.

Uşaqlar da öz növbəsində hər şeyi başa düşən, lakin heç bir dildə danışmayan bir casusu

tutduqlarını həmyaşıdlarına danışırdılar. Qaş qaralan vaxt bozsaqqallılar məsləhətləşərək onu hələlik qırmızı guşədə bağlamağı, sabah hakimiyyətin əlinə verməyi məsləhət gördülər.

Taştan maraqlı tərəf olduğu üçün və yolun o biri üzündə yaşadığına görə oğrunu qorumağı ona tapşırdılar. Oğrunu balaca, alçaq otaqda yerləşdirdilər. Etibarlı kilid tapmadıqlarına görə at quyruğundan hörülmüş iplə qapının cəftəsini yalnız çobanların bağladıqları kimi sıx bağladılar.

Taştan evinə döndü. Sarayda gələcəyin on iki cücəsinin əvəzinə boş qabıqlar var idi – pişiklər öz çirkin işlərini görmüşdülər. Dirəyə bağlanmış dana, anasına tərəf dartınaraq tüpürcəyini axıdırdı, yanıqlı böyürürdü. Taştan ac Tuyqunu buxovlayaraq, bostana qovdu və inəyi sağmağa qərar verdi. Ancaq heyvan ona vərdiş etmədiyi üçün şıllaq atır, onu yaxına buraxmırdı. Taştan qonşunu çağırmaq istədi, amma yadına düşdü ki, dünən onun əri, əyriayaq kobud Kaçkınbay, sərxoş halda arvadının dalınca çəngəllə qaçaraq qışqırırdı ki, evdə səliqəsizlik olduğu halda, o kiminsə inəyini sağmağa gedir. Bu hadisədən onun ürəyində pis təəssürat qaldı. O, özü də bu ağır təəssüratın nəyə görə olduğunu anlaya bilmirdi: Bəlkə də, ona görə ki, Kaçkınbay yaşca ondan kiçik idi, subay, özü də varlı kişiyə bütün ərlər həsəd və şübhəylə yanaşırlar. Qısası, Suların rəisi qəti qərara gəldi ki, suvarma işləri bitəndən sonra məhsul yığımı başlayanda saqqalını qırxacaq, Tuyquna gümüşü yüyəni taxacaq, ağ çulu üstünə salacaq və qeyri-adi qabiliyyəti olan və qadınları yaxşı tanıyan köhnə dostu Beksultanın yaşadığı İssık-Kulun cənub sahilinə, Ton qəsəbəsinə gedəcək: o, yəqin ki, Taştana uyğun gələn, yaraşan, doğmağa qadir dul qadın tapar... Taştan evə daxil oldu, arvadının köhnə yaylığını tapdı, eynən onun kimi bağladı, önlüyü taxdı, tasın içinə kəpək tökdü, başını əyərək inəyə yaxınlaşdı. Heyvanın böyük qonur gözləri parıldadı və tasa tərəf gəldi. Heyvan gurultu ilə içini çəkəndə, Taştan inəyi sağmağa başladı. Kəpək qurtaran kimi inək narahat oldu, çirkin quyruğu ilə yanlarına şapalaq vurmağa başladı, hirslə qarnını tərpətdi. Süd sağmağı dayandırmaq və dananı açmaq lazım gəldi. O, anasının yanına qaçdı və üzünü onun isti yelinə qoydu, inəksə şişman qadın kimi öz balasını uzun isti dili ilə yalamağa başladı.

Taştan bir daha Allahdan soruşdu ki, hətta heyvanlara belə səxavətlə verdiyi xoşbəxtlikdən niyə onu məhrum edib.

Hələ heç vaxt evi ona bu qədər boş və səliqəsiz görünməmişdi. «Qadın. Bəzən hirsli, qışqırıqlı, hay-küylü və heç də həmişə ağıllı olmayan varlıq. Ancaq onsuz dünya necə də narahatdır! Onsuz ev abad deyil və necə də soyuqdur! Qadın əllərində olmayan qablar necə də cingildəyir! Əlbəttə, müəllim çox axmaqdır. Mənə öyrədir ki, qadını döymək olmaz. Özü müharibədən əvvəl həm içirdi, həm də qadınların arxasınca qamçı ilə qaçırdı. Müharibədən qayıtdıqdan sonra elə bil onu dəyişdilər. İçmir, çəkmir. Həyat yoldaşı yanında olmadan heç yerə getmir, rus dilində doğma dili kimi danışır. Səhərlər evin ətrafında qaçır, sonra müqəvva kimi bostanın ortasında dayanıb əllərini açaraq yellədir, qışda isə sinəsi qızarana kimi qarla ovxalayır. Nahaq demirlər ki, mollanın dediyinə qulaq as, lakin onun etdiyi əməlləri təkrarlama. Deyir ki, qadına görə darıxdığım üçün xəyalıma gəlib. Bəli də! Savadlılar yalan danışmağı bacarırlar da...” Taştan hadisə haqqında unutduğu üçün özünü günahlandırdı. Bəlkə, oğru pəncərədən qaçıb və ya kimsə ipi açıb. Axı ondan xahiş etmişdilər ki, qadının keşiyini çəksin!

Suların rəisi köhnə qoşalülə ov tüfəngini götürüb idarəyə getdi. İpdən olan kilid bütöv idi. O, qara pəncərəyə yaxınlaşdı, kibriti yandıraraq qırıq şüşənin yarığına dürtdü. Oğru könnə, bozarmış divanda yatırdı. Kibritin işığında qızıl sırğaları alışıb yanırdı.

– Hey! – O, qapını yavaşca tıqqıldatdı.

Qadın cavab vermədi. «Bəlkə ölüb?» – Birdən Taştan düşündü – doğradığı çörəyi yeməmişdi. Uşaqlar suda islanmış bütün kömbələri çıxartdılar və o dəqiqə yedilər. Ölü toyuğu isə, yəqin ki, qaçanda itirib. Bahar ağır vaxtdır: köhnə ehtiyatlar yeyilib, təzə taxıl isə hələ yetişməyib. Aclıq oğurluğa məcbur edib.

Taştan evə gedib bir bardaq təzə süd və bir tikə çörək gətirdi.

– Hey! – O, qapını zərbə ilə döyməyə başladı. Ayaqlarını yerə döyəclədi və ikinci kibriti yandırdı.

O, başını qaldırıb baxdı. Qaranlıqda onun qara gözləri və qızıl sırğaları parıldayırdı.

Taştan yeməyi pəncərəyə qoyub qırağa çəkildi.

Oğru hansısa anlaşılmaz nəğmə dilində təşəkkür edib qaranlıqda yeməyə başladı, sonra isə boş bardağı pəncərəyə qoyub sakitləşdi.

Taştan tüfəngi çiynindən ağzı aşağı asıb səhərə qədər baş verən hadisənin detallarını xatırlayaraq idarənin ətrafında gəzişdi, öz həyatı və qadınlar haqqında fikirləşdi...

...Ayımkan. Hər necə də olsa, o çox yaxşı evdar idi. Düzdür, bir az deyingən, dalaşqan idi. Amma deyingən, dalaşqan olmayan qadın var ki? Son illərdə onunla yaşamaq çətin idi. Balaca bir şeyin üstündə o saat ağlayırdı. "Mən bədbəxtəm, mən xəstəyəm. Uşaq istəyirəm" Elə bil ki, Taştan uşaq istəmirdi. Şəhərə getdilər. Həkim onların sağlam olduqlarını, uşaq sahibi ola biləcəklərini dedi. Yenə də üç il keçdi. Müharibə də qurtardı. Övladları isə yox idi. Axırıncı söhbəti xatırladı.

– Gəl, bir dəfə də olsa açıq danışaq, – o dedi.

Taştan onun yanında oturub uzunboğaz çəkmələrini təmir etməyə başladı.

Təbiətcə Ayımkan özündən tez çıxan, qərarsız bir qadın idi. Ancaq, birdən o çox sakit, ağılla, düşüncə ilə danışmağa başladı, görünür, bu söhbətə çoxdan hazırlaşmışdı:

– Dəfələrlə məni döymüsən. Bir dəfə çox bərk döymüsən, düzdür, mən bu döyülmələrdən yaxa qurtara bilərdim, ancaq mən özüm günahkaram. Bizim bədbəxtliyimiz bizim incikliklərimizdən güclüdür, ona görə də hər şeyi sənə bağışlayıram.

– Hey! Sənə bu ağıllı sözləri kim öyrədib? – Taştan çaşdı.

Lakin həyat yoldaşı davam edirdi:

Sən səhər oynayan oğlan uşaqlarına baxanda zaman gözlərində yaş var idi. Köhnə zəmanə olsaydı, ikinci arvadla evlənməyə mən özüm icazə verərdim, lakin indi bu qadağandır.

Əri susurdu və qaba, qatranlanmış ipi çeynəyirdi.

– Mən valideynlərimin yanına gedib sənə azadlıq verəcəyəm. Amma sən tələsmə, özünə elə bir həyat yoldaşı tap ki, nəinki sənin üçün uşaq dünyaya gətirsin, həm də səni qiymətləndirsin. Mənim üçün uzun xovlu məxmər palto, xrom uzunboğaz çəkmə, valideynlərim üçün isə çay və şirniyyat al ki, pis adamlar sənin məni qovduğunu deməsinlər.

Bir neçə gün sonra ər-arvad öz ağsaqqal qohum-əqrəbalarını çağırdılar, qoyun kəsdilər və boşanmalarını açıqladılar. Ağsaqqallar hər iki tərəfə qulaq asaraq belə nəticəyə gəldilər ki, ər-arvad düzgün addım atırlar, çünki sonsuzluq – böyük bədbəxtlikdir. Taştan inəklərdən birini satıb, Ayımkanı başdan-ayağa geyindirdi, qohumları üçün hədiyyələr aldı, bütün əmlakını iki hissəyə böldü və onu Djetı-Oğuza yola saldı.

Taştan ürək ağrısı ilə geri döndü. O, Ayımkan haqqında pis söz danışan adamı, kim olursa-olsun, qamçı ilə döyüb zol-zol edərdi. Amma onunla ayrılmalı oldu – belə ki uşaq üçün çox xiffət edirdi, həsrət çəkirdi, ələlxüsus baharda, bütün vadi yaşıllaşıb, gül açıb, ətir saçanda. Hətta havada da elə bil ki, dünyəvi sevgi və dünyəvi doğum cingildəyirdi: əkin sahələrində ilk zoğlar, cavan budaqlar əmələ gəlirdi, ağaclarda tumurcuqlar qabarırdı, qaramuq otundan incə qanadlı kəpənəklər uçuşurdu, quşlar sevgidən oxuyurdu, damlarda göyərçinlər quruldayırdı, tarlalarda atlar otlayırdı, qarnıaçıq uşaqlar aulun küçələrinə axışıb gəlirdilər, qocalar isə gülümsəyərək onlara baxıb fərəhlənirdi, günəş altında qızınırdılar. Taştan, səhərdən axşama kimi böyük çayın sahilində çalışırdı, vadiyə həyatverici suyu buraxırdı, bütün canlıları sulayırdı. Evdə isə heç kim onu gözləmirdi...

İndi, gecə ilə təkbətək idarənin artırmasında oturaraq düşünürdü ki, yəqin ki, insan heç vaxt öz xoşbəxtliyini qiymətləndirməyi öyrənməyəcək. Övladı olmamaq – əlbəttə, böyük bədbəxtlikdir. Əgər yanında sənlə birgə ağlayan və gülən qadın varsa, bu da yaxşıdır.

Taştan gülləsi olmayan silahına söykənərək uzun müddət oturdu. O, qapının cırıltısına oyandı. İşığın qığılcımı gözünə düşürdü. Günəş qalxırdı.

– Sabahın xeyir, ake! – Bu kolxoz sədri Mayramkan Omorova idi.

– Salam, ağsaqqal, daha doğrusu, qızım, – Taştan ayağa qalxdı. – Biz dünən burada bir nəfəri tutmuşuq. Daha doğrusu, oğrunu...

– Bilirəm, – Mayramkan gülümsədi.

– Onunla nə etməyi düşünürsüz?

– Bilmirəm, ake, – qadın gülümsündü.

– Bəlkə, dindirəsiniz? Bəlkə, o ... xarici casusdur.

– Bizim onu dindirməyə ixtiyarımız yoxdur.

– Bəs kimin ixtiyarı var?

– Milisin ...

– Onu haradan tapaq?

– Kimi?

– Milisi.

– Onu şəhərə aparın və şöbəyə təslim edin.

– Birdən onu həbs edərlər.

– Orada aydınlaşdırarlar. Briqadirdən arabanı götürün və aparın.... ``

Bu vaxr ərzində "Qırmızı evciy"in ətrafına bu iş ilə maraqlanan insanlar toplaşmışdılar. Taştan hamını qovdu, oğrunu çıxartdı, qollarını bağladı, arabaya oturtdu və rayon mərkəzinə doğru irəlilədi.

Aul uşaqları və bir neçə yaşlı qadın onları yola qədər müşayiət elədi. Oğlanlar fit çalırdılar, dişlənmiş tikələri atırdılar, arabadan yapışırdılar, oğruya sataşırdılar və lənətləyirdilər. Mühafizə əsgəri uşaqları qulaqlarını dartmaqla hədələdi, hiddətlə əl-qol atdı. Ancaq uşaqlar sakitləşmirdilər – onlar bilirdilər ki, Taştan dayı uşaqları çox sevir, sadəcə özünü ciddi göstərir. Yola çatanda mühafizə əsgəri arabadan aralanaraq, cibindən bir ovuc alça çıxardıb, hər uşağa bir dənə verərək onları evə qayıtmaq üçün dilə tutdu. Araba mavi çınqılla döşənmiş yolla taraq-turuq getməyə başladı.

Günəş isə artıq başımızın üstündə işıq saçırdı.

Sonra nə baş verdiyini Taştandan başqa heç kim bilmirdi.

O, geri çox gec qayıtdı, bütün gecə onun pəncərəsində neft lampası yanırdı, bacadan isə mavi tüstü yayılırdı... İkinci gün o səhərdən axşama kimi həyətində əlləşdi, səliqə-səhman yaratdı.

Kimsə onun yanından keçən zaman oğrunu neylədiyini soruşanda cavab verirdi ki, tezliklə onun axırını hər kəs biləcək. Axşam qoç kəsib ağsaqqalları çağırdı. Qazanda iştahaçan ətir yayan ət bişənə qədər qonaqlar kart oynadılar, müharibə haqqında, məhsul barəsində, müharibəyə qədərki bolluq və müharibədən sonrakı yoxsulluq haqqında danışdılar. Elə bil ki, onlar yalnız ət yemək üçün yığışıblar. Ət yeyiləndən sonra yeniyetmə gənc hamıya dəsmal və isti su ilə yaxınlaşandan sonra Taştan ayağa duraraq qonaqlara müraciət elədi:

– Ümumi məsləhətlə kəsilən barmaq ağrımır. Fələk bizə qadın göndərib. Onun nə uşağı, nə əri, nə də bir ocağı var. Müharibə onu bir tikə çörək axtarışında yer üzündə dərbədər gəzmək məcburiyyətində qoyub. O nə bizim qanımızdan, nə də imanımızdan deyil. Lakin xoşxasiyyət və sağlamdır, əgər o mənim üçün uşaq dünyaya gətirsə, bu evin sahibi olsa, mənim üçün kifayətdir. Qardaşlarım, mənim qərarımla razısınızsa, bizim atalarımızın qanunlarına görə mənə dəstək olun. İndi çətin zəmanədir. Müharibə qurtarıb, dul qadınlar hələ matəm libaslarını soyunmayıblar, gözümüzün yaşı qurumayıb, hələ heç kəs doyunca yemək yeməyib. Bu gün mən yeganə qoyunumu kəsmişəm. Gün gələcək ki, borclu qalmaram, gec və ya tez hər bir evdə yas da, toy da, ad günü də olacaq.

Hamı susurdu. Taştan qərarı gözləyirdi. Nəhayət, ağsaqqalların ağsaqqalı – səksən yaşlı Tokoy başını qaldırdı.

– Mənim qardaşım, – ağsaqqal sözə başladı, – ən başlıcası can sağlığıdı, ikincisi, evin səliqə-səhmanı, təmizliyidir.

Ailə həyatı – bu heç kəsin axıra kimi söyləmədiyi bir nağıldır. Əgər Allah bu qadını sənə göndəribsə və o sənin ağlına və ürəyinə giribsə, ürəyin deyən kimi hərəkət elə. Sən deyirsən ki, o tənhadır, öz evi yoxdur, deməli, sənin addımında heç bir tamahkarlıq yoxdur. Bədbəxt, yurdsuz qadına alicənablıq göstərdiyinə, açıq ürəklə onu müqəddəs evinə gətirdiyinə görə tale səni mükafatlandıracaq. Onun başqa millətdən, imandan olmasına gəlincə, onu bizim sevimli qızımız və xoşxasiyyətli gəlinimiz etmək sənin əlindədir. Bütün insanlar Yaradanın qarşısında bərabərdirlər. Əgər çəkic güclüdürsə, onda keçədən olan mismar da torpağa girər. Əgər o sənin qardaşlarını gülərüzlə və bir çaynik qaynar çayla qarşılasa, deməli, sənin həyatın sakitdir və biz də sənə görə şad olarıq. Bizə isə sizə yalnız uğurlar arzulamaq və çörəklə, ətlə dəstək olmaq qalır. Sən vicdanlı işçisən. Sənin işindən həm qohumların və doğmaların, həm də rəhbərlik razıdır. Xoşbəxt olun!

– Amin! – Qoca Tokoy və oturanların hamısı əllərini üzlərinə çəkdilər.

Gəlinin başına böyük ağ yaylıq örtdülər, ağ kasalara təmiz dağ suyunu tökdülər. Mollalıq eləyən ağsaqqallardan biri, baxmayaraq ki, o, Quranı təxmini bilirdi, bir dənə də olsun ərəbcə sözü başa düşmürdü, kəbin kəsdi, birgə həyata razı olduqlarını hər iki tərəfdən soruşub kasadakı suyu hər ikisinin başından tökdü; beləliklə, evlənmə mərasimi baş tutdu. Düzdür "molla" heç cürə Marqarita adlı gəlinin adını deyə bilmədi,

onu Maripata adlandırırdı. Maripata isə qaş-qabağını sallayıb iri qara gözlərilə acıqlı-acıqlı baxaraq, iri ağ dişlərini ağardırdı.

Toya tez bir vaxtda hazırlaşdılar. Qohumlar birləşərək üç qoyun və bir kisə darı əldə etdilər. Kolxozdan bir kisə un ayırdılar. Pivəyə bənzər içki hazırladılar, çörək bişirdilər. Kimsə bir tuluq kımıs gətirdi, onu dərhal yatağın altında xüsusi qonaqların gəlişi zamanı istifadə etmək üçün gizlətdilər. Kolxozun, demək olar ki, bütün ilxılarını müharibəyə apardıqdan sonra kumısdan ancaq dərman kimi istifadə edirdilər.

Toyda əməlli-başlı yemək-içmək bol idi, həm də əyləncəli idi. Yeni satin paltar, iti burunlu qaloşda arakəsmənin arxasında gənclərin əhatəsində əyləşən gəlin ona baxmaq istəyən hər kəsin qarşısında təzim edirdi. Qadınlar onun başını sığallayır, alnından öpürdülər:

– O, əzizim! Eynən bizimkilər kimidir. Gözləri, saçları qaradır, saç düzümü də bizim qızlarınkı kimi. Allah sənə ətək dolusu övlad versin!

İlk günlər Taştanın dostları onu lağa qoyurdular, qadını evliliyə necə razı saldığını, yolda onların arasında nə isə olub-olmadığını, hansı dildə danışdıqlarını soruşurdular və onların gecələr İssık-Kulun ətrafında gəzərək kartla fala baxıb, toyuq və at oğurlayacaqları haqqında sual verirdilər. Suların rəisi qəzəblənmirdi, duzlu zarafatlara duzlu cavablar tapırdı, ona görə də tezliklə gərginlik azalırdı. O özü də bilmirdi ki, nəyə görə məhz bu qadını seçib, bəlkə alicənablıqdan, bəlkə də, dünyaya göz açdığı gündən görməyə adət etdiklərinə oxşamadığı üçün. Marqarita özünün zəngin jest və mimikalarını işə salaraq təzə həyata alışırdı, çörək bişirməyi, inək sağmağı öyrənmişdi, qocalar və uşaqlarla dil tapmışdı.

Yay başa çatdı. Payız keçdi. Qış gəldi. Suların rəisi arabir böyük çaya tərəf xüsusi qurğunu bağlayan buzları sındırmaq üçün gedirdi. Yolüstü qonşu kolxoza gedərək arvadı üçün şirniyyat gətirirdi. O, uzun gecələrdə ocaq kənarında oturmağı sevərdi, Marqarita isə həzin səslə qəmli və anlaşılmayan mahnılar ifa edərdi...

Taştan oğlunun doğulacağına əmin idi. O, xoşbəxt idi. Elə bil ki, Allah özü onun əzablarını hiss edib və böyük ümid yaşatdığı qadını ona göndərib. Taştan günləri sayırdı, əllərində kiçik, isti varlığı saxlayacağı müqəddəs anı gözləyirdi, gecələr uzun müddət Marqaritanın üzünə baxırdı və çox ehtiyatla, onu oyatmadan qulağını qarnına dayayırdı.

– Yaxşı, nə var? – O, yuxulu soruşurdu..

– Bəlkə, orada əkizdir?

– Hm, istəyinə bax! – böyrü üstə çevrilirdi.

– Sən yat... yat ... mən elə belə... – o üzr istəyirdi və uzun müddət uzaq ulduzların parladığı mavi göyə baxırdı, qaranlıqda gülümsəyirdi və dünyada yaşamağın xoşbəxtlik olması haqda düşünürdü. «Dünya necə maraqlı yaranıb, – deyə düşünürdü. – Mənim atam yaşayıb və mənim dünyaya gəlişimi gözləyib, sonra gözləyib ki, mən nə vaxt böyüyüb insan olacağam; indi isə mən gözləyirəm, oğlum nə vaxt doğulacaq və böyüyəcək, sonra mənim oğlum öz oğlunun dünyaya gəlişini gözləyəcək və həyat belə davam edəcək. Mənim nəslim əbədi yaşayacaq! Və mənim nəslim əsrdən əsrə keçəcək! Mən əbədi yaşayacağam...” Onun bütün əvvəlki həyatı – kiçik sevincləri və böyük çətinlikləri – görünür, yalnız böyük bayram üçün hazırlıq idi. Evdən çıxarkən Taştan həyat yoldaşına ağır şeyləri qaldırmamağı, özünü işlə yormamağı ciddi tapşırırdı. Amma o, Taştanın tapşırıqlarına gülümsünürdü və evdə hər işi görürdü: evi səliqəyə salırdı, su gətirirdi, un üyüdürdü, xəmir yoğurub çörək bişirirdi. O, sobada bişən isti çörəyi çox sevirdi. Sonra isə qalın siqar bükürdü və çox güclü tütün çəkirdi. Bəzən Taştan Ayımkanın hamilə olarsa, özünü necə aparması haqda düşünürdü. Ayımkan, yəqin ki, Taştanın hər sözünə qulaq asardı və onun bütün xahişlərini yerinə yetirərdi. Amma Marqarita başqa bir qadın idi. O, başqa qəbilədən idi və fərqli davranırdı. Lakin Taştan etiraz etməyə cürət etmirdi – o qadından ancaq sağlam körpə gözləyirdi.

Bu bəla birdən gəldi. Suların rəisi, həmişə olduğu kimi, sübh tezdən yerindən qalxıb, qoca merini yəhərlədi (Tuyqun sağalmışdı və haradasa dağ çəmənliklərində oynayırdı), uzun rezin çəkmələrini ayağına keçirtdi, kətməni götürüb böyük çaya tərəf getdi ki, şlüzi açıb suyu tarladan keçən əsas suvarma arxlarına yönəltsin. Bahar quraq keçdiyinə görə ilk zoğlar rütubət gözləyirdi. Taştan nahar eləmək üçün evə gəlmək istəyirdi, ancaq su az idi, böyük çayda isə brakonerlər iki, üç balıqdan ötrü suyun qarşısını kəsirdilər. Kartof

su çəkənə kimi gözləmək, gecə isə suyu taxıl sahələrinə buraxmaq lazım idi.

O, suyu buğdaya buraxdıqdan sonra aşırıma tərəf getdi. O, aşırımda istəmədən atı saxladı və ətrafı seyr etməyə başladı. Qırmızı günəş dağların arxasına keçirdi. Onun qarşısında vadi uzanırdı. Kanal xətləri ilə ayrılan hər bir sahənin özünə uyğun yaşıl rəngi var idi. Su sakitcə yerə tökülür və qırmızı civə kimi parıldayırdı. Bütün bunların üzərində Suların rəisinin atın üstündə nəhəng kölgəsi görünürdü.

O, toranlıqda sovxozun mağazasına gəldi, yaşıl gözlü broşkanı alıb – parlaq bər-bəzək Marqaritanın xoşuna gəlirdi, – qaranlıq düşənədək evə çatmaq üçün merini döyəclədi.

Taştan həyətə daxil olanda, gördü ki, inək qazandan su içir, balası isə boynunda ip, qarnı şişmiş halda tənbəl-tənbəl quyruğunu yelləyir. Taştan anlaşılmaz həyəcanla evinə qaçdı. Arvadı evdə yox idi. Qonşulara qaçdı. Heç kəs onu görməmişdi. Evinə döndü. Dairəvi masanın üstündə kağız var idi. O, necə də bunu əvvəlcədən görməmişdi! Şagird xətti ilə qırğız dilində bir cümlə: «Sizə, etdiyiniz yaxşılığa görə təşəkkür edirəm». Taştan Kackınbayın yanına qaçdı. Onun qızı evdə deyildi, haradasa oynayırdı. Onu tapanda, artıq qaranlıq idi. Qız danışdı ki, Rita-djen onu günorta saatlarında çağıraraq qəndə qonaq eləyib və kağız parçasını yazmağı xahiş edib. O, başqa heç nə bilmirdi.

Görəsən, nə baş verib?

Bəlkə, o, dərdlərini yada salaraq keçmiş azadlığı üçün darıxıb? Bəlkə də, sabahı fikirləşməyən, bugünkü gün ilə yaşamağa öyrənən, öz rəfiqələri ilə torpaqda ayaqyalın gəzməyə vərdiş edən, axşamlar isə tonqalın kənarında oxuyan və oynayan qadın özünün əvvəlki qayğısız yaşayışına qayıtmaq istəyib? Uşaq isə onun əllərini və ayaqlarını bir yerdə bağladığı üçün ondan qurtulmaq qərarına gəlib? Bəs onda nəyə görə evlənirdi? Bəlkə, həbsxanaya düşmək qorxusundan? Qısası, nə Taştan, nə də bir başqası onun bu evə gəlişini izah edə bilməmişdi. O, buralara necə gəlib çıxmışdı?

Nəyə görə o, təkərlər üzərində hərəkət edən taxta tikililərdən, çirkli, fırtıqlı, səliqəsiz uşaqlardan, öz talelərini öyrənmək istəyən sadəlövh insanları bazarda aldadan kobud yaşlı qadınlardan, rəfiqələrindən ayrılıb?

Taştan çox fikir edirdi. Bəziləri onun halına acıyırdı, bəziləri isə kam alırdı, əsasən də qadınlar. Tərbiyəli dul qadınlar, ərlik qızlar olduğu halda evinə avaranı sərsərini gətirdiyi üçün onu qınayırdılar. O, yaxınlıqdakı bütün kəndləri gəzdi. Hər həftənin bazar günü şəhərə bazara gedirdi, bətnində onun xoşbəxtliyini aparan oğrunu axtarırdı. Milis bölməsində cavab verdilər ki, onu tapmaq faktiki olaraq mümkün deyil". Birincisi, heç kim onun familiyasını bilmir, nə sənədi, nə şəkli var; ikincisi, təlimata görə onu axtarmaq olmaz: onun gedişi qohumluq əlaqələrindən imtina etmək kimi qiymətləndirilir. Bəlkə o, ailəsinin yanına getməyə qərar verib və uşaq doğulandan sonra qayıdacaq. Payız gəldi, lakin o geri dönmədi...

Suların rəisi adamsevməz oldu, başını təraş etmədi, özü üçün yemək hazırlamadı. Ətrafda onun doğmaları, yaxınları, qan qardaşları yaşayırdı, ancaq o özünü tənha hiss edirdi. Səhər tezdən böyük çaya gedirdi, suyu paylayırdı, evə isə axşam gec gəlirdi. Çaya gedəndə, qapıları açarla bağlamırdı, qorxurdu ki, birdən o olmayanda qadın qayıdar və evə daxil ola bilməz. Evə gələndə masanın üstündə Kaşkınbayın uşaqlarının gətirdiyi yemək olan kasanı görürdü. Gecələr, soyuq yataqda yatan zaman Ayımkan haqqında düşünürdü. Nə üçün o, boşanmaya razılıq verdi və onu göndərdi. Yəqin ki, buna görə də Allah onu cəzalandırdı. Eşitmişdi ki, o hələ də valideynləri ilə yaşayır, ona elçilər gəlir. Amma o razılıq vermir...

Bir gün, çaydan geri dönəndə o, qohumlarının həyat yoldaşlarını evində gördü. Onlar evi yığışdırdılar, cır-cındırı tulladılar, ədyalları, keçi dərisindən olan keçələri, ayaqaltıları yudular, yaxşı axşam yeməyi hazırladılar.

– Ey, Suların rəisi, gəl bizimlə otur! – çopur Irıs-djen əmr etdi. O ünsiyyət rahatlığı üçün onu Suların rəisi deyə çağırdı, belə ki, qadın ərinin yaxın qohumlarının adını dilinə gətirə bilməzdi. – Sənin evində şadlıq olanda, sən qohumlarını köməyə çağırdın. Başına bəla gələndə isə, sən bizi yaddan çıxartdın, – o sözə başladı. – Biz gözləyirdik. Axırda ürək ağrısı ilə özümüz gəldik... Bir qadından ötrü dərd çəkmək, sızlamaq ayıb deyil? Sənin əcdadların döyüşçü olublar, bəzən döyüşdə bütün nəsli itiriblər, ancaq ruhdan

düşməyiblər. Sən kişisən, kişi isə əlində və ayağında olan oynaqlar qədər qadın tapa bilər. Yəni bu avara, sərsəri sənin qəlbinə necə girib ki, sən öz doğmalarından, xalqından imtina etmək qərarına gəlmisən.

– Mən onun üçün deyil... Uşaq, – Taştan başladı.

– E! Biz bilirik! Biz bilirik! – Irıs-djen onun sözünü kəsdi. – Çinar ağacının budaqları sına bilər, əgər onun gövdəsi sağlamdırsa, yazda təzə budaqlar pöhrələnəcək. Sən hələ qocalmamısan. Sən bizə həvalə elə. Biz sənin üçün layiqli evdar qadın tapa bilərik.

Taştan uzun müddət susdu, sükutla baxdı, sonra başını qaldırdı.

– Müharibə doğma qardaşımı apardı. Onun yadigarı qalmadı. Mənə isə uşaqsız yaşamaq nəsib olub. Mənim atamın nəsli mənimlə qurtarır. Amma mən şadam ki, mənim qohumlarım və yaxınlarım var, mən taqətdən düşəndə mənə dayaq olacaqlar, ömrüm sona çatanda məni doğma torpaqda dəfn edəcəklər. Sağ olun. Xalqıma təşəkkür edirəm. Mən son gücümə qədər sizləri və torpağı böyük çayın suyu ilə sulayacağam, siz hər il uşaq dünyaya gətirəcəksiniz, torpaq isə təzə məhsul verəcək. Və bu mənim təsəllim olacaq. Əgər mənə yaxşılıq etmək istəyirsinizsə, Ayımkanı geri gətirin. Biz onunla iyirmi il birgə yaşamışıq. Görünür, son günlərimizi də birlikdə keçirmək qismətimizdir.

Qadınlar etiraz etmədilər – Suların rəisi "ağ ürəklə" danışırdı.

Tezliklə Taştan və onun yaxın qohumları Ayımkanın valideynlərinin yanına getdilər. Taştan and içərək bildirdi ki, bundan sonra, hətta bütün dünyanı daşqın, tufan cənginə alsa da, ömrünün axırına qədər onunla qalacaq.

Evə geri dönəndən sonra da, onlar əvvəlki həyatlarını yaşadılar. Taştanın oğul atası olmaq istəyinə uğursuz cəhdi yada salmamağa çalışırdılar. Elə bil ki, belə bir şey heç olmayıb, ancaq bir dəfə o, darıxanda, bir yuxu gördü.

Suların rəisi hər səhər suyu bölüşdürmək üçün böyük çaya gedirdi, axşam məmnun və yorğun halda evə qayıdırdı, suyun üstündə briqadirnən dalaşmağı və ya brokonerləri qamçı ilə qırmanclamağı haqqında hündürdən danışırdı. Taştan soyuq havalarda ocaqda od qalamağı, oynaqlarını skipidar ilə masaj etməyi və belini ovxalamağı xahiş edirdi.

– Sən artıq qocasan! İşini dəyişdir. Revmatizm – ciddi xəstəlikdir. Sən səhərdən axşama kimi dizə qədər soyuq sudasan, – Ayımxan məsləhət verdi.

– Bacarmıram! – Suların rəisi cavab verdi. – Mən olmasam, bir başqası suda gəzəcək. Su öz sahibini sevir! – gülərək ayaqlarını qızdırdı.

* * *

– İllər keçdi. Suların rəisi tamamilə qocalıb əldən düşdü və artıq evdə otururdu. O yenə də işləyərdi, lakin oynaqları incidirdi, dəfələrlə kurorta getsə də yaxşılaşmadı. Nə qədər olmasa da, səkkizinci onilliyə qədəm qoyurdu. Xüsusən payızda, yağışlar yağanda halı ağırlaşırdı. Belə günlərdə qoca Taştan, demək olar ki, yataqdan qalxmırdı, qoca Ayımkan isə onun yanında oturub yun corablar toxuyurdu.

– Ayım! – O, bir dəfə çağırdı.

– Nə istəyirsən, qoca?

– Bu gün ayın neçəsidir?

– Yanvarın biri.

– Pulu qoymusan?

– Qoymuşam.

Bura gətir görüm, – o xahiş etdi.

Qoca qadın dəri çantanı gətirdi.

– Say!

– İyirmi beş dənə, – o, gümüş pulları sayaraq dedi.

- Deməli, bu il onun iyirmi beş yaşıdır... O gəldiyi zaman bu pulları ona verməyi unutma. Yaxşı yuxu görmüşəm. O, mütləq qayıdacaq…

**Rus dilindən tərcümə edən:**
**Nəsibə ƏBİLOVA**

# “HƏR SƏSİ ÇEVİRİB SÖZ ETMƏK OLMUR...”

“Daşlar ovula-ovula, qayalar sökülə-sökülə ölür... Millət isə unuda-unuda” – deyirdi görkəmli ədəbiyyatşünas alimimiz Yaşar Qarayev; çağdaş nəslə, yetişməkdə olan gəncliyə əyan olsun deyə! Böyük alimin sözünü dinləyib, öyüdünü alan yeni nəsil yazarlarının istedadlı nümayəndələrindən olan Əkbər Qoşalı, təbii ki, ilk növbədə, bu könül, ruh ürpənişlərinin gerçək yaşamını şeirin, sözün diliylə ifadə etməyə çalışdı və... başarılı oldu. Qələmə aldığı hər misrası, sözü ilə anlada bildi ki, Yaşar müəllimin bəhs etdiyi həqiqətlərin “nəliy”inə vaqif olmaq üçün ilk növbədə öz qəlbinin, düşüncənin dərinliyinə baş vurmalısan. Elə lap ilkdən, öz qəlbinin dərinliynə baş vura bilən Əkbər çağdaş poeziyamıza, bir növ, yetkin, bitkin halda gəldi. Necə deyərlər, öz imzasını təsdiq etmiş halda... Elə bil ki, bu imza yüzillərin o biri üzündən aşıb gələn imzalarla bir arada olmuşdu. Bu imzanın yeniliyi oxucunu “kimlik” sualı altında qoymadı. Həmişə var olan köhnə, tanışa dönmüş bir ad kimi ədəbi dairələrdə, ariflər qatında əziz tutuldu. Təbii ki, bu doğmalıqda, qəlbibirlikdə onun zövqlə, dərin bir incəliklə yazdığı şeirlər başlıca rol oynadı. O şeirlər etibarlı bir körpü, bağ kimi oxucu-şair, əslində, yeni imzalar arasında vəsiləyə döndü... İlk növbədə o şeirlərin səmimiyyəti, dünyagörmüş bir ahıllıqla etdiyi titrəyiş oxucu qəlbini aldı, apardı:

Şairlər yanar, qovuşar,
yandı şam, yandı pərvanə.
Sübh ölər, axşam qayıdar
şamlar, dörd yanı pərvanə...

Görərlər sevgi azalıb,
dönərlər, min söz dolanıb;
Qiyamətə lap az qalıb,
düzdümü, yəni, pərvanə?

Qiyamətə lap az qalması tələşını daha zor, güclü görünən dağla, daşla, ağacla yox... məhz zərif qanadlı bir pərvanəylə bölmək duyğusallığı həm də şairin dünyanın gələcəyinə əmin-arxayınlığının ifadəsidi, bəlkə?... – Bilir ki, hayana hərlənsə, dönüb dolansa da, yenə də pəvanəyə qalan şam, şama qalan pərvanə olacaq:

Olan oldu, keçən keçdi,
qara sevdalar gerçəkdi..
Yenə qanadı ilişdi,
yandırdı pərvanəni şəm,
yandırdı şəmi pərvanə...

Şəm-pərvanə arası dünya sevdasının son ucu Əkbər Qoşalının yozumunda hər dəfə gəlib Dədə Qorqud deyimli “Uca Tanrı yazmayınca bəndə bulmaz!” həqiqətinə, dünyagörmüşlüyünə çıxır:

Tanrı yazıb, ömrümüz bir cümlədi,
hər cümlənin yanında bir nöqtə var.
Şah işarə nə “sual”, nə “nida”dı,
hərəsinin qanında bir nöqtə var.

Əkbər Qoşalı poeziyası bütün durumu ilə anladır ki, qələm hər vaxt yaxşı söz üçün dirəniş göstərir, inam olmayan yerdə nəfslər əxlaqı yenə bilər. Bütün bu çıxılmazlıqların yeganə, gerçək

yolunu bütün hallarda poeziya özündə ehtiva edir. Əkbər Qoşalının poetik dünyası öz ətrini Əhməd Yəsəvi, Mevlana, Hacı Bektaş Vəli, Yunus Əmrə düşüncəsindən, həyatabaxışından alır. Ancaq, eyni zamanda da o, bu günün ədəbi texnologiyalarının, ədəbi "izm"lərinin dilinə, nədənliyinə yaxşı bələddi. Onun yaradıcılıq axtarışları davamlı, məntiqli və gələnəyə sayğılıdı. Söz bitən yerdə qələmin yas saxlaması həqiqətini yaradıcılıq axtarışlarının gözü qabağında saxlaya bilən şairlərdəndi Əkbər. Ona görə də milli poeziyamızın ədəb-ərkanından süzülüb gələn, düşüncə kamilliyimizi özündə daşıyan misraları öz-özünə süzülüb gəlir:

Yolunu azarsan, yol səni səslər,
nəsə itirərsən, ol səni səslər.
Hər səsi çevirib söz etmək olmur,
qəlb kədəri gəzər, dil qəmi səslər.

Eyni yerdən gələr, başqadı adı,
başqadı səs dadı, şirin söz dadı,
Səslərin gözəli qara sazdadı,
Kərəmi çağırar, Dilqəmi səslər.

Əkbər Qoşalı şeiriyyəti - Kərəmi çağırıb, Dilqəmi səsləmək vadisi, yalı-yamacı arası axıb gedən nəhr, bulaq misallıdı; qəlbə, ruha daha çox sərinlik, toxtaqlıq və şükranlıq duyğusu gətirir.

Bu duyğuların məstliyi uzun bir ömrə, yaşama dəyər... Bütün hallarda Əkbəri oxuduqca "deyir səs ölməyir, deyir söz ölmür" haqqına köklənirsən. Eyni zamanda oxucu qənaəti hər bir halıyla şairlə həmrəydi ki, əgər, doğrudan da, söz ölmürsə, bəs onda hansı səbəbdən lazım olduğu məqamlarda bütün varlığıyla eşidilməyir? Əkbər Qoşalının bu sualının cavabı elə onun öz yazdıqlarındadı. Sadəcə, oxucu fəhminə ehtiyac var.

Əkbər Qoşalı poetik sözə ehya verə bilən qələm adamıdı. Onun poetik təfəkkürü söz aşiqliyinin köynəyindən klassik və çağdaş poeziya gələnəyi üstündə, özəl bir bağlantı ilə keçib, bu müstəvidə qundaqlanıb. Onun şeirlərində aşiqlik zövqü, aşiqlik istedadı var. Oxuduqca inanırsan:

Dindən əvvəl Sevgi özü Din idi,
onda aşiq – yardı, onda yar – aşiq...
Əvvəl sözün "susma!" idi, "din!" idi,
indi isə susmaq olub yaraşıq...

Əkbərin şeirləri sözün dirənib qaldığı, susduğu yerdən başlayır. Yəni şeirin, sözün sabahına daha çox inam, daha çox etibar gətirir. Bu ruhda heç bir halda bədbinlik, özünəqapanma yoxdu. Ən dərdli çağında, qəmli çağında, bütün dünyanın amansızlıqla üstünə yeridiyi bir məqamda belə bu şeirlərə könül verə-verə bütün qayğılarını, dərd-sərini, ömür-gün qarğaşalarını unuda bilərsən. Gəlib o yerə çıxa bilərsən ki:

Kirpiyimlə götürmüşdüm mən odu,
onu gördüm, yenə qəlbim oddandı.
Canan görüb, gülüb, deyib bu odu, -
ona deyin, bir eşq adlı oddandı...

Sinəsində ürək deyil, od olanların yığvalı, gedib-gedib yenidən qayıdacağı ovqatı belədi. Əkbər o şairlərdəndi ki, inam və səmimiyyətlə yaza bilir:

Elə bil qələmə ayə keçibdi,
gözümü kağızdan ayırammıram.

Əkbər "odlanmayan ürəkləri od dandı" deyərkən də inandırıcıdı. Bütün halları ilə onun yaradıcılığı qələm dostlarının poetik dünyasına qığılcım saçır – yəni yazmağa, yeni söz deməyə istinad nöqtəsi olur. Elə mən də bu sətirləri yaza-yaza qəlbimin bütün səmimiyyəti ilə yazdığım "yarası ağrıyır şeir balamın" misrasını xatırlayıram. Yəni ağrı, kədər havası gəlirsə, deməli, yeni bir şeirin doğum günü başlayır. Uğurlu gündü, demək...

**Gülayə ŞINIXLI**



## Sergey YESENİN

1

Темна ноченька, не спится,
Выйду к речке на лужок.
Распоясала зарница
В пенных струях поясок.

На бугре береза-свечка
В лунных перьях серебра.
Выходи, мое сердечко,
Слушать песни гусляра.

Залюбуюсь, загляжусь ли
На девичью красоту,
А пойду плясать под гусли,
Так сорву твою фату.

В терем темный, в лес зеленый,
На шелковы купыри,
Уведу тебя под склоны
Вплоть до маковой зари.

1

Gecədi. Yuxum da ərşə çəkilib.
Çıxdım çəmənliyə-çay kənarına.
Fəvvarələr işığında parlayan
Şimşək beldən düşən kəmər kimidi,
Atılıb gecənin ayaqlarına...

Şamlara bənzəyən ağcaqayınlar
Ayda parıldayır gümüş ləçəktək.
Ey mənim ürəyim, çıx gəl yanıma,
Gəl quslidə çalanları dinləyək.

Yenə heyran olum gözəlliyinə,
Ay məftun olduğum, sənə tay hanı?
Qusli nəğmələri altında, gözəl,
Qoy götürüm başındakı fatanı.

Qüllədən baxanda meşənin otu
Sanki xatırladır ipək paltarı.
Səni apararam qaya altıyla,
O xaşxaş qoxulu şəfəqə sarı...

2

Вот уж вечер. Роса
Блестит на крапиве.
Я стою у дороги,
Прислонившись к иве.

От луны свет большой
Прямо на нашу крышу.
Где-то песнь соловья
Вдалеке я слышу.

Хорошо и тепло,
Как зимой у печки.
И березы стоят,
Как большие свечки.

И вдали за рекой,
Видно, за опушкой,
Сонный сторож стучит
Мертвой колотушкой.

2

Gicitkən üstündə şeh parıldayır
Bax yenə də bu axşam.
Söyüd ağacına söykənib
Yol üstə dayanmışam.

Ayın sonsuz işığı
Evin damına düşür.
Bülbüllərin nəğməsi
Uzaqlarda ötüşür.

Hava istidir, sanki
Sobanın yanındasan.
Soyuq qış axşamları
Ağcaqayın ağacları
Xatırladır şamları...

Çəkirəm ciyərimə
Çay arxasında qalan
Meşənin nəfəsini.
... Və yuxulu gözətçinin
Toxmağının səsini...

3

Прощай, Баку! Тебя я не увижу.
Теперь в душе печаль, теперь в душе испуг.
И сердце под рукой теперь больней и ближе,
И чувствую сильней простое слово: друг.

Прощай, Баку! Синь тюркская, прощай!
Хладеет кровь, ослабевают силы.
Но донесу, как счастье, до могилы
И волны Каспия, и балаханский май.

Прощай, Баку! Прощай, как песнь простая!
В последний раз я друга обниму...
Чтоб голова его, как роза золотая,
Кивала нежно мне в сиреневом дыму.

3

Əlvida, ey Bakı, bu da son görüş.
Könlümdə qorxu var, bir az da kədər.
Əlimin altında ağrıyan ürək,
Səni hiss edirəm sadə dost qədər.

Mavi türk səmalı Bakı, əlvida
Qan donur damarda, ürək bayılır.
Məzara aparram xoşbəxtlik kimi
Xəzər ləpəsini, Balaxanı mayını.

Sadə bir nəğməylə vidalaşantək
Son dəfə sinəmə sıxıram səni.
Əysə qızılgültək köksümə sarı,
Çəkim tüstüsünü o yasəmənin...

4

Вечер черные брови насопил.
Чьи-то кони стоят у двора.
Не вчера ли я молодость пропил?
Разлюбил ли тебя не вчера?

Не храпи, запоздалая тройка!
Наша жизнь пронеслась без следа.
Может, завтра больничная койка
Упокоит меня навсегда.

Может, завтра совсем по-другому
Я уйду, исцеленный навек,
Слушать песни дождей и черемух,
Чем здоровый живет человек.

Позабуду я мрачные силы,
Что терзали меня, губя.
Облик ласковый! Облик милый!
Лишь одну не забуду тебя.

Пусть я буду любить другую,
Но и с нею, с любимой, с другой,
Расскажу про тебя, дорогую,
Что когда-то я звал дорогой.

Расскажу, как текла былая
Наша жизнь, что былой не была...
Голова ль ты моя удалая,
До чего ж ты меня довела?

4

Bir qaranlıq, qanıqara gecədi.
Kiminsə atları həyəti tutub.
Bəlkə, gəncliyimi dünən itirdim,
Bəlkə, elə dünən səni unutdum?

Fınxırma, üçatlı araba, gecdi,
Bizim bu ömrümüz izsiz ötdü, ah!
Bəlkə, xəstəxana çarpayısında
Əbədi toxtaqlıq tapacam sabah.

Bəlkə də, əhvalım dəyişdi sabah,
Bəlkə də, tərk etdi ağrılar məni?
Meşə gilasını öpən yağışın
Nəğməsi həyata çağırır məni...

Mənə əzab verən, məni incidən
O məkri birtəhər unudacağam.
Sənin o mehriban, o xoş çöhrəni
Çətin ki, unudam, nə qədər sağam!

Sabah özgəzini sevsəm də belə,
Tapsam da sabah bir başqasını,
Tək sənin haqqında danışacağam, -
Sənin xəyalının çəkib nazını...

Sənli günlərimdən bəhs edəcəyəm,
Deyəcəm: bağlıydı hər gecəm ona
Sən məni öz cəsur məhəbbətinlə
Necə ram etmişdin – deyəcəm ona...

5

Туча кружево в роще связала,
Закурился пахучий туман.
Еду грязной дорогой с вокзала
Вдалеке от родимых полян.

Лес застыл без печали и шума,
Виснет темь, как платок, за сосной.
Сердце гложет плакучая дума...
Ой, не весел ты, край мой родной.

Пригорюнились девушки-ели,
И поет мой ямщик на-умяк:
«Я умру на тюремной постели,
Похоронят меня кое-как».

5

Tor kimi meşəni bürüyüb bulud,
Xoş iyli dumanın dodaqları nəm.
O doğma yerlərdən uzaqda qalan
Kirli bir vağzaldan çıxıb gedirəm.

Meşə də qəmli bir yuxuya gedib,
Başında yaylıq var sanki o şamın.
Mənim ürəyimin əzablarını
Bu qəmli vətən də öpüb oxşamır.

Bu susan kədərdən cüt baçı küknar,
Oxuyur at çapan gözündə kədər:
"Öləcəm bir məhbəs yatağında mən,
Eh, məni hardasa dəfn edəcəklər".

6

Вот оно, глупое счастье,
С белыми окнами в сад.
По пруду лебедем красным
Плавает тихо закат.

Здравствуй, златое затишье,
С тенью березы в воде,
Галочья стая на крыше
Служит вечерню звезде.

Где-то за садом несмело,
Там, где калина цветет
Нежная девушка в белом
Нежную песню поет.

Стелется сизою дымкой
С поля ночной холодок
Глупое, милое счастье,
Свежая розовость щек.

6

Ona bax, o axmaq səadətim də
Açıq pəncərədən boylanır, baxır,
Gölməçə üstündən uçan o qazlar
Üfüqün rənginə boylanıb daha.

Salam ver qızılı sakitliyə də,
Suya ağcaqayın kölgəsi düşmüş.
Dolaşa dəstəsi dam üstündə
Ulduzlu gecəyə xidmət edirmiş.

Hardasa bağın lap ənginliyində
Bir başlanğıcı çiçək qoxuyur.
Bax orda ağ donlu bir zərif qız da
Dayanıb bir həzin mahnı oxuyur...

Səhranın bu soyuq gecələrində
Açılan çiçəklər göy rəngi kimi.
Çəhrayı yarpağa baxsan, görərsən
Bu sərsəm, mehriban xoşbəxtliyimi.

**Çevirəni:**
**Əlizadə NURİ**

Şərəf YILMAZ

*1967-ci il, aprelin 1-də Antaliyada anadan olub. Səlcuq Universitetinin türk dili və ədəbiyyatı bölümünü bitirib. Fəlsəfə, dillə məşğul olub. Yazarlar üçün Yaradıcılıq məktəbi açıb. "Temrin", "Ecemi" dergilərinin, nəşr evinin təsisçisidi. Bir neçə şeir, nəsr kitablarının müəllifidi.*

# Konsulun köpəyi

(hekayə)

Buraya gələnlər ağacların hündürlüyünü keçməyən iki-üç mərtəbəli villaların qabağındakı aşıb-daşan salxım güllərə baxıb ovsunlanardılar. Hava qaralandan sonra xanıməli çiçəklərinin və səkilərin bəzi yerlərindən yüksələn cökə ağaclarının ətri bir-birinə qarışar, insan özünü tamamilə başqa bir aləmdə hiss edərdi.

İnsanlar, adətən, günəş doğmamışdan əvvəl yürüşə çıxar, təmiz havada xanıməli və cökə ağaclarının ətri ilə idman edib evlərinə qayıdardılar. \Yan-yörədən baxıb həvəslənənlər də lövhədəki yazını oxuyan kimi "həqiqətən, bu ada layiqdi", - deyərdilər.

Sarayın yüksək vəzifəli şəxslərindən biri sayılan Şövqi Hulusi əfəndi pulun pul vaxtında bu yerləri çox ucuz qiymətə satın almış və sonra da bu miras ailənin kişi qismindən tək olan konsul Fethi bəyə qalmışdı. O da bu ərazini podratçıya tapşırıb gözəl binalar tikdirmişdi. Başlanğıcda Fethi bəy tikinti işlərini yerinə yetirəcək adamla bir müddət dil tapmamış, gözləməyi qərara almışdı. Podratçı binaların daha hündür və tikinti materiallarının ucuz olmasında təkid etmişdi. Buna qəti şəkildə razılıq verməyəcəyini bildirən konsul da fikrini belə əsaslandırmışdı:

- Dünyanın bir sıra inkişaf etmiş ölkələrində vəzifəmi yerinə yetirərkən o qədər səviyyəli tikililəri gördüyüm halda bu təklifi qəbul etməyim günahdı. Bir ölkənin bütün abadlığına olmasa da, özümə aid ərazidə əyri-üyrü binaların inşasına mane ola bilərəm. Tikintini boynuna götürənlərin başlıca məqsədi daha artıq qazanc əldə etmək olduğu üçün, açığı, onlara bel bağlamıram.

İşini etibarlı tutmaq istəyən konsul bütün ideyalarını vəkilinə bir-bir başa saldı və hazırlanan razılaşmanı notariusda təsdiq etdirdi. Bu inadcıllığı sayəsində ortaya nümunəvi bir yaşayış sahəsi çıxdı. Bura gələnlər keçmişin köhnəliyi ilə müasir zamanın yeniliklərini eyni anda yaşayırdılar.

Fethi bəy adını daşıyan adam bu küçəyə göz bəbəyi kimi baxırdı. Həmişəlik onun qayğısına qalacaq birini axtarırdı. Həmin adam bura baxmağa, daha doğrusu, onun təhlükəsizliyinə cavabdeh olmalıydı.

Məsləhət görülənlərlə şəxsən görüşdü. Heç hansını bəyənmədiyinə görə bu işi zamanın ixtiyarına buraxdı. O istəyirdi ki, buranın cavabdehliyini boynuna çəkən adam pəhləvan kimi canlı-cüssəli və cəsur olsun. Rəsmi vəzifə daşıdığı illərdə dövlətin bu sahədəki həssaslığı diqqətini çəkmişdi. Təcrübəsi vardı.

Fethi bəy səfir də olmuşdu, amma uzun müddət konsulluq vəzifəsini yerinə yetirdiyinə, yaxud bu vəzifə ilə tanındığına görəmi, ayaması "konsul" qalmışdı. Tanışları ona "konsul Fethi bəy" deyə müraciət edərdilər.

Fethi bəyin vəzifə daşıdığı vaxtlardan qalma bir şakəri vardı: köpək bəsləmək. Bu onun üçün vərdişdən artıq bir şeydi. Adını daşıyan küçədəki evində də bundan əl çəkmədi. Fethi bəy köpəyə it kimi baxmazdı. Bu heyvanlara maraq da göstərməzdi. Ona görə, it itdi, itlik vəzifəsini də yerinə yetirməliydi. Bu cəhətdən ya qurdbasan, ya da kangal deyilən türk çoban itləri cinsinə maraq göstərərdi. Vəzifə daşıdığı illərdə dövlətin qurd cinsindən olan köpəklərə üstünlük verməsi nəzərindən yayınmamışdı. Bu cür itlər güclü, alıcı və söz anlayan olduqlarına görə təlimə yatımlıydı. Təlim əziyyətli olsa da, nəticəsi olurdu.

Konsul təqaüdə çıxıb Vətəninə dönəndə kangal köpəyini seçdi. Səbəbini soruşanlara:

- Onlar anlaşıqlı və ağıllı itlərdi, - deyə cavab verirdi.

Fethi bəyin qərarına, bəlkə, bu itlərin bütün dünya tərəfindən təqdir olunmasının, seçilməsinin də təsiri olmuşdu. Həmin itlərin iki yüzə yaxın sözü yadda saxlaya bildiyini bir mütəxəssisdən eşidəndə heyrətlənmiş və ona olan sevgisi daha da artmışdı. Bunu bir dostunun iş yerində söylədiyi zaman oradakı bir kəndli araya girmiş və konsula demişdi:

- Bəy, sürüyə dadanan qurdun qorxduğu köpək yalnız kangaldı. Qurd cinsi belə qurdla bacarmaz. Amma kangalın qurdu necə dağıtdığını çox görmüşəm.

Fethi bəy kəndli ilə maraqlandı. Bəzi bilmək istədiklərinin cavabını da bu adamdan öyrəndi.

Həyətdə köpəyi üçün gözəl bir it damı tikdirdi. Evdə it saxlamağın əleyhinəydi. Onu buna inandırmağa çalışanlar da bacarmadılar. Hətta buna görə bir dostu ilə aralarında soyuqluq da yarandı.

- Fethi bəy, köpəyim ailəmin bir fərdidi. Onu çöldə necə qoyum? Həmişə evimdədi, birlikdə yeyib-içirik.

- Bu mümkün deyil, canım. İtin evə girməsini nə qəlbim, nə də ağlım qəbul edər. Köpək vəzifəsini yerinə yetirən itdi. İtə sədaqət yaraşır, ərköyünlük, şişmək yox.

Dostu nə qədər dil töksə də, onu inandıra bilmədi. Axırda:

- Fethi bey, təəssüf edirəm. İtimin bayırda qalmasına razı ola bilmədiyimə görə ən yaxşısı evimə qayıtmaqdı, - deyib onu tərk etdi.

Küçə sakinləri əvvəl kangaldan çəkinsə də, qısa zamanda onun təlim gördüyünü və anlaşıqlı olduğunu anladılar. Konsulun iti küçənin sakinləri ilə kənar adamları bir-birindən ayıra bilirdi. Sakinləri görəndə sakit dayanan it kənar adam məhəlləyə daxil olan kimi qulaqlarını şəkləyir və onun hərəkətlərini əvvəldən axıracan izləyirdi. Ən əsası kənar adamları zərər yetirmədən izləməsiydi. Yad adamları yerişindən tanıyan it evin pəncərəsinə dırmaşmağa çalışanı və ya qapıya toxunanı görəndə aslana dönürdü. Nə qədər ki, it vardı, bu ətrafdan quş uça bilərdi, amma pis niyyətlinin biri keçə biməzdi. Kənar adam buranı tərk edənə qədər it onu addım-addım izləyərdi.

Fethi bəy qaçmağa gedərkən itini mütləq özüynən aparardı. Bu həm vərdişdi, həm də özünü belə təhlükəsiz hiss edərdi. Bir neçə oğru bu itin hesabına yaxalanmış, polis bölməsinə təhvil verilmişdi.

Vaxt ötdükcə itin sorağı bütün şəhərə yayıldı. Oğruların bu itdən yana o küçəyə hərlənməyi belə unutduqları dillərdə dolaşırdı.

* * *

Konsul Fethi bəy gecə küçədən gələn bağırtıya yatağından qalxdı. Balkona çıxanda başqa balkonlardan boylanan adamları gördü. Yuxulu-yuxulu baş verənləri anlamağa çalışdı. Bir neçə polis oğrunu itin əlindən qurtarmaqla məşğuldu. O saat xələtini əyninə alıb aşağı düşdü. Oğrunu itin əlindən almaq üçün tər tökürdülər. Fethi bəy polislərə:

- Köpəyin üstünə düşmək əvəzinə oğrunu tutun, - dedi.

Köpək oğrunun qıçından yapışıb yerə yıxmışdı. Polislər güclərini oğruya yönəldən kimi it onu buraxdı. Gəlib Fethi bəyin qabağında çökdü. Konsul tərəfindən əzizlənməyin nə məna verdiyini yaxşı bilirdi.

Balkonda günəşin doğuşunu izləyə-izləyə çay içən konsul Qaracanın tükürpədici hürüşünə diksindi. Balkondan baxanda iri cüssəli simitsatanın keçdiyini gördü. İt simit satandan yana arxayın olmaq istəyirdi. Konsul:

- Qaracan, - deyə səsləndi.

Bu, köpəyə bəs elədi. Simitsatanı izləyən konsul öz-özünə dedi:

- Məhəllənin təhlükəsizliyi üçün belə birisi olmalıdı.

Simitsatan simit qabını başının üstünə qaldırır, "təzə simit!" qışqırırdı. Bağırmağını qurtarandan sonra simit qabını səyyar arabasının üstünə qoydu, başını qaldırıb ətrafı süzməyə başladı. Bu zaman konsulla göz-gözə gəldi. Konsul barmağı ilə işarə edərək beş dənə simit istədi. Simitsatanın zəngi basmasına imkan verməyib qapını açdı. Onu başdan-ayağa süzdü. Simiti aldı, pulunu ödədi. Simitsatan geri dönərkən:

- Övlad, - dedi.

Simitsatan ayaq saxladı:

- Buyurun, bəyim, - dedi.

- Sən ancaq simit satırsan?

- Bəli.

- İşindən razısan?

- Razıyam... Bircə bu küçədəki it olmasaydı. Məhəlləni tərk edincə məndən ayrılmır. Nə tutur, nə də buraxır.

Konsul qəhqəhəylə güldü. Səhərin səssizliyini pozan bu gülüş binada əks-səda verdi. Simitsatan özünü gülünc hala salan bir xətaya yol verdiyini düşündü. Çaşqın halda başını aşağı saldı. Konsul:

- Bizim məhəllədə olmaq istəyərsən?

- Aman, bəyim! İt varkən bu məhəllədə necə qalaram?

- Necə qalacağını söyləyəcəyəm.

- Bu it məni təqib etməsin, yetər, başqa bir şey istəmirəm.

- Qulaq as! Səhərlər bizim evin qabağında dayanar və simitlərini yuxarı gətirərsən. Bir neçə gündən sonra Qaracanla dost olarsan.

Simitsatan deyilənləri nəzərə aldı. Hər gün küçədən keçərkən konsulun evinin önündə bir az dayanır, ona simit aparırdı. Simitsatanı yaxşıca izləyən Qaraca bir neçə gündən sonra daha onun dalınca düşmədi. Konsulun evinə hər gün girib-çıxan bir adam, yəqin ki, təhlükəli olmaz, hesab etdi. Sonrakı həftə simitsatan lap arxayınlaşdı. İt yerindən qalxmağa ehtiyac duymurdu, lakin baxışlarıyla onu müşayiət etməyi unutmurdu. Demək, bu itin anlaşıqlı, həddini bilən olduğunu söyləyənlər yanılmamışdılar. Qaracan bir həftəyə simit satanı tanımışdı.

Bir sabah simitsatan simit qabını arabasının üstünə qoyub konsulun evinə çıxdı. Həmin anda itin hürməsi eşidildi. Konsul balkona qaçdı. Qaracan arabaya yaxınlaşan bir küçə uşağının qılçasından yapışıb səkiyə çökdürmüşdü. Konsul qapıda gözləyən simitsatana:

- Pulunu al, tez aşağıya qaç, - dedi.

Simitsatan nə baş verdiyini anlamadan pilləkənlərlə cəld aşağı düşərkən yuxarıdan konsulun səsi eşidildi:

- Qaracanın tutduğu uşaq simit oğurlayacaqdı. Qaç uşağı Qaracanın əlindən qurtar. Onu tanıdığı bir adama təhvil verməsə, əsla buraxmaz.

- Bəyim, ona necə yaxınlaşım?

- Qorxma, o səni artıq yaxşı tanıyır. Sən onun gözündə bu məhəllənin bir sakinisən.

Simitsatan bütün cəsarətini toplayıb Qaracana yaxınlaşdı, uşağı tutdu. Qaracan o saat onu buraxdı. Bu zaman uşaq simitsatanın başının qarışmasından istifadə edib qaçmağa çalışdı. Bir neçə addım atmamış özünü təkrar köpəyin ayaqları altında gördü. Simitsatan təzədən yaxınlaşdı. İtlə dost olduğuna artıq özü də inanmağa başladı. Uşağı simitsatana təslim edən it kənara çəkildi. Simitsatan uşağa:

- Səni tutmayacağam. Bu it nə qədər burdadı, qaç görüm necə qaçırsan!

Uşaq qorxusundan tir-tir titrəməyə başladı. Qaçmaq qalsın bir yana, yerindən dəbərmirdi də. Simitsatan fürsətkən uşağa öyüd-nəsihət verdi. Sonra da bərk-bərk tənbeh etdi:

- Bu məhəllədə bir də yaramazlıq etmə. Bil ki, bu itin gözü iyirmi dörd saat bu məhəllədən keçənlərin üzərindədi.

Simitsatan uşağı yola salandan sonra baş verənləri konsula danışdı. Konsul:

- Sən Qaracanla yaxşı dost oldun.

- İnan ki, belədi, bəyim.

- Məhəllənin təhlükəsizliyi üçün Qaracana yoldaş lazımdı.

- Yoldaş olmaq istəyərdim, amma...

- Həə?..

- Burdakı evlərin kirayə haqqına gücüm çatmaz.

- Bu evin altı boşdu. "Kimə qismət olacaq?", deyə gözləyirdim. Simitlərini satandan sonra evə gəl, daha ətraflı danışaq.

- Yaxşı, bəyim.

Simitsatan axşam hava qaralanda gəldi. Bu küçə artıq bir az da onunku sayılırdı. O da bu məhəllənin bir sakiniydi.O, konsulun evinə gələnə qədər Qaracanı küçədə görmədi.

- Küçəyə birinin gəlib Qaracanı görməməsi mümkün deyil, - dedi.

Həyət qapısından girəndə Qaracanın hürdüyünü eşitdi. Bayıra çıxdı, ancaq iti görmədi. Səs gələn tərəfə döndü. Səs məhəllədən deyil, bağçadan gəlirdi. Cəld bağça hasarına tərəf gedəndə bir nəfərin hasara atlandığını gördü. Dalınca da it ox kimi irəli atıldı. Adam karıxmış halda yerində qaldı. İt adama fürsət vermək istəyirmiş kimi gözləyirdi. Simitsatan Qaracana "gəl" işarəsi verdi, sonra adama dedi:

- Burada nə axtarırsan?

- Qonşu məhəllədə oluram. Əslində, burdan hər axşam keçirəm. İt heç belə eləməzdi. Bu gün nədən belə elədi, bilmirəm.

- Hər axşam bağçaya girirsən?

- Xeyr. Bir az əvvəl buradan keçəndə yaralı bir tutuquşu bağçadakı nar ağacına qondu. Onu tutmaq üçün ardınca bağçaya girdim. Hələ ağaca çatmamış itin səsinə diksindim. Özümü küçəyə zorla atdım.

Simitsatan özgə bir təbəssümlə:

- Anan namaz üstdəymiş, - dedi.

- Haqlısan, həmyerlim. Az qala itin qəzəbinə keçəcəkdim.

- Ziyan vurmazdı, ancaq birinə təslim etmədən də buraxmazdı.

Adam bir Qaracana, bir simitsatana baxdı, ağlamsınmış halda içini çəkdi.

* * *

Yarpaqların yavaş-yavaş saralmağa başladığı sərin bir gündə məhəllə muxtarı (təxminən evlər idarəsi müdiri kimi bir vəzifə, ancaq seçkili – çev.) konsulun qapısını döydü. Qarşısında muxtarı görən konsul:

- Xeyir ola, muxtar? - dedi.

- Xeyirmi, şərmi, bilmirəm, konsul. Bu gün bir polis gəlmişdi. Sabah kuşluk vaxtı (günəşin doğmasından 45 dəqiqə sonra ilə günorta namazı arası – çev.) sizə gələcəyini söylədi və bunu sizə xəbər verməyimi istədi.

- Nə əcəb?

- Sadəcə, sizi maraqlandıran bir məsələ varmış. Bu haqda mənə heç bir şey demədi.

Konsul fikrə getdi. O gün axşamacan fikirləşdi, səhərə qədər yatmadı, amma yenə də bu ziyarətin səbəbini tapmadı. Ertəsi gün iki polis konsulun qapısını döydü. Qarşısında polisləri görən konsul əndişəli baxışlarla:

- Buyurun, - dedi.

Polislər ev sahibinin üzündəki əndişəni hiss etdilər.

- Bəyəfəndi, əndişələnməyinizə ehtiyac yoxdu. Əgər vaxtınız varsa, oturub bir az söhbət etmək istəyirik.

Fethi bəy rahatlandı.

- Buyurun, təbii... Bu nə deməkdi? - deyib onları içəri dəvət etdi.

Polislərdən biri:

- Bəyəfəndi, uzatmadan əsas məsələyə keçək.

- Təbii, yaxşı olar.

- Sizin bir köpəyiniz var.

- Əlbəttə, var, amma o ağıllı bir itdi, bir hadisə törədəcəyini sanmıram. Burda bir yanlışlıq var.

- Əndişələnməyin, bəyəfəndi. Biz buraya hadisəni təsbit etmək üçün gəlmədik. Sizin itinizin çox məharətli olduğu xəbəri təhlükəsizlik bölməmizə qədər gəlib çatıb. Bu itin işimizi çox asanlaşdıracağını düşünürük.

- Amma şeydi... - deyə konsul mızıldandı.

Polis davam etdi:

- Açığını desək, bu köpək çox işimizə yarayacaq.

- Haqlısınız, amma mənim özümün çox işimə yarayır.

Çox danışsalar da, bir nəticə əldə etmədilər. Polislərin təkidi konsulu inandırmağa yetmədi.

- Köpəyi görə bilərikmi?

Konsulun əhvalı duruldu:

- Əlbəttə. Buyurun, aşağı düşəyin.

Bayıra çıxdılar. Addımlarını səkiyə atar-atmaz yan evin bağça divarından Qaracanın ox kimi

atıldığını gördülər. Köpək konsula yaxınlaşdı. Polislərdən biri:

- Adətən it gəlib sahibinə sürtünər, bu niyə belə eləmədi?

- Bu yarınmağı xoşlamaz. Elə xasiyyəti yoxdu. Amma fərli bir iş görəndə, nəvazişi yaxşı duyar.

Konsulla polislərin ayaqüstü səki söhbətləri çox tündləşdi. Yanlarında sakitcə duran köpək birdən hərəkətə keçdi, sinəsini qabartdı, qulaqlarını dikəltdi. Nə olduğunu anlamadılar, Qaracanı izləməyə başladılar. Yerində xeyli ləngiyən it ani bir hərəkətlə küçə yuxarı götürüldü. Polislər Fethi bəylə birlikdə dayanıb onun dalınca baxdılar. İt küçənin sonundakı evin bağça divarından içəri atıldı. Az keçmiş bir gənc divarın əks tərəfindən özünü küçəyə atdı. İt indi də onun üstünə atıldı. Bu atılmaqdan çox uçmağa oxşayırdı. Konsulla polislər Qaracana yaxınlaşdılar. Film kimi bir səhnəni canlı şəkildə izləyirdilər. Köpək adamın üstünə çökmüş halda konsula baxdı. Konsul Qaracanın başını sığalladı. İt kənara çəkildi. Adam yalvarırmış kimi danışmağa başladı, min cür bəhanə gətirdi, pis bir iş tutmaq istəmədiyinə and içdi. Polislər əhəmiyyət verməyincə konsul da baş qoşmaq istəmədi. Əli ilə "rədd ol", deyə işarə etdi. Adam göz qırpımında yox oldu.

* * *

Küləyin küçədəki saralmış yarpaqları qabağına qatıb süpürdüyü gün əyilən vaxtı simitsatan konsulun qapısının zəngini basdı. Qarşısında konsulu görər-görməz:

- Bəyim, əziyyət verdim. Müsaidə etsəydiniz, sabah təklifinizlə bağlı qərarımı bildirməyə gələrdim.

- Kuşluk vaxtı, səhər yeməyinə gözləyirəm.

- Yaxşı, simitləri mən gətirərəm.

Ertəsi gün simitsatan küçədə bir az gec göründü. Bu dəfə simit satmaq üçün gəlməmişdi. Nə "simit" deyə bağırırdı, nə də Qaracanın hürməyi eşidilirdi. Sadəcə, özüynən çay süfrəsinə simit götürmüşdü, vəssalam. Həm səhər yeməyi yedilər, həm də xeyli danışdılar. Simitsatan fikrindəki ən böyük sualını konsula verdi:

- Bəyim, bizim ailə böyükdü. Buna görə sizin təklifinizə əvvəldən asanca "razıyam" deyə bilmədim. Arvadım və üç uşağımla birlikdə anama və xalama da mən baxmağa məcburam. Bu qədər böyük bir ailə sizi narahat edə bilər. Təqaüdçüsünüz, istirahət etmək, dincəlmək ən özəl haqqınızdı...

- Övlad! Siz çox olsanız da, biz çox deyilik. Mən bacımla yaşayıram. Sən əşyalarını da götür gəl, buralar şənlənər bir az.

Simitsatan konsulun evindən sevinclə ayrıldı. Bundan sonra küçənin təhlükəsizliyinə cavabdeh olacaq və davamlı maaş alacaqdı. Xəfifcə yağan çiskin yağışın altında bir türkü oxumağa başladı, yeridikcə yeridi...

Həftənin axırında əşyalar daşındı, yerləşdirildi və simitsatan rəsmən vəzifəsinə başladı. O artıq küçənin təhlükəsizliyinə cavabdehdi. Tamam rahatlanandan sonra konsulu yeməyə dəvət etdilər.

- Əvvəl siz gələcəksiniz, biz ev sahibiyik, - konsul dedi.

- Nə fərqi var, bəyim?

- Fərqi heç yoxdu? Köhnə yerə təzə adət gətirməyək, oğlum.

Simitsatan konsulun dilindən eşitdiyi "oğlum" sözündən bir istilik duydu. Bu vaxta qədər ona adıyla xitab etməyən, hətta adını belə soruşmayan konsul çay içə-içə bir-bir adını, soyadını, məmləkətini xəbər aldı. "Cabir, aşağı, Cabir, yuxarı, Cabir, gəl, Cabir gir..." deyə-deyə küçənin bütün sakinləri iki gündə simitsatanın adını əzbərlədilər. Konsul nə qədər "oğlum, Cabir!" səslənsə də küçənin sakinləri ona "konsulun yavəri" deyə xitab edirdilər. Bu müraciət zaman keçdikcə qısalaraq, sadəcə, "yavər" oldu. Konsul nə deyir-desin, camaat "yavər, gəl, yavər, get, yavər, aşağı, yavər, yuxarı..." deyirdi. Camaatın ağzı torba deyil ki, büzəsən. Bir müddət sonra söz eşitmədiklərini anlayan konsul da ona "yavər" deməyə başladı.

Konsulun yavəri ilə iti küçəyə çıxanda başda uşaqlar olmaqla bütün məhəllə əhli onları izləyərdi. Küçədə oynayan uşaqlar da Qaracandan qorxmazdılar. Yavərin orda olmasından ürəklənən uşaqlar itlə oynamağı sınasalar da, Qaracan onlarla yaxınlıq etməzdi. Nə qədər olmaya, konsul köpəyiydi. Qonşuların və sahibinin yanında hörməti vardı. Qabağına yumaq atılan pişik balasından fərqlənməliydi.

Cabir evin ehtiyaclarını ödəmək üçün dükana gedərkən köşkün altındakı oturacaqda oturan konsulun gər səsi onu diksindirdi:

- Yavər!

- Buyurun, bəyim.

- Sabah axşam hamınızı evdə yeməyə gözləyəcəyəm.

- İnşallah, bəyim. Dükandan nəsə almağı istəyərdinizmi?

- Bugünlük yalnız çörək. Sabah günorta məni görərsən, alacaqlarının siyahısını sənə verərəm.

- Yaxşı, bəyim.

Ertəsi gün Qaracanla küçəni ölçən Cabir kuşluk vaxtı bağçanı suladı, evinəlazım olanları aldı, günortadan sonra konsulun qapısını döydü. Konsul hazırladığı siyahı ilə bir qədər pulu Cabirə verdi.

- Yavər, bu siyahıdakılardan tapa bildiklərini al, tapa bilmədiklərini axtarma.

- Yaxşı, bəyim.

Yavər pilləkənləri cəld düşdü. Küçənin başına çatanda dayandı, əlindəki siyahıya xeyli baxdı.

- Bunların hamısını dükandan tapa bilmərəm. Ən yaxşısı, süd kombinatına gedim.

Küçənin başından əsas yola döndü, süd kombinatına qədər getdi. Əlindəki siyahını kombinatın sahibinə uzatdı, o siyahıdakı hər bir maddəni aydınlaşdırdı.

- Şalğam və alma sirkəsindən başqa hamısı var, - dedi.

Yavər çatmayanları da qayıdanbaş dükandan alıb konsula təhvil verdi. Konsul təşəkkür etdikdən sonra təkrar xatırlatdı:

- Yavər, axşam gözləyəcəyəm.

- Yaxşı, bəyim.

Cabir evinə gəldi. Süd kombinatından alver etdiyini və aldıqlarını bir az əvvəl konsula təhvil verdiyini söylədi. Sonra evdəkilərə xatırlatdı:

- Axşam yeməyində bəyəfəndigildə olacağıq, unutmayın.

Cabirin xalası dedi:

- Yemək̈ləri kim bişirəcək?

Cabir udqundu, əlini saçlarına apardı, başını qaşıyırmış kimi bir müddət gözlərini divardakı bir nöqtəyə dikdi, beləcə qaldı. Fikrə getdiyi aydındı, işin bu tərəfini düşünməmişdi. Bu zaman xalasının təzə bir sualı ilə özünə gəldi.

- Bəyəfəndinin evində özündən başqa biri yaşayırmı, Cabir?

- Keçən dəfə yeməyə dəvət etmək üçün çağıranda bacısı ilə birlikdə yaşadığını söyləmişdi, amma bu zamana qədər evdə bəyəfəndidən başqa kimsəni görməmişəm.

- O zaman yemək̈ləri kim hazırlayacaq?

- Nə bilim, xala?

- Oğlum, get soruş. Heç kimi yoxdusa, ananla biz birlikdə hazırlayarıq.

Cabir əlacsız halda dodaqlarını büzdü, dərindən nəfəsini dərib ayağa qalxdı.

- Soruşaq, heç olmasa xəbərimiz olsun, - deyib konsulun evinə qalxdı.

Qapını konsul açdı.

- Buyur, yavər.

Yavər qarşısında qollarını çırmalamış halda duran konsula baxdı. İçəridən yemək iyi gəlirdi. Hazırlıq görüldüyü aydındı. Danışmaq xatirinə soruşdu:

- Bəyim, ərzaqları verərkən yeməyi kimin bişirəcəyini soruşmağı unutmuşam, keçin günahımdan. Əgər nəsə bir...

- Yemək̈ləri bişirməyə başlamışam, yavər.

- Amma...

- Oğlum, siz orasını düşünməyin. Axşam gələndə danışarıq. Baxaq görək bişirdiyim yeməkləri bəyənəcəksinizmi?

Üzü qızaran yavər xəfif bir təbəssümlə:

- Yaxşı, bəyim, - deyə bildi.

Axşam hamısı birlikdə konsulun evinə çıxdılar. Konsul yavərin ailəsini salona dəvət etdi. Stol açılmışdı. Bir azdan hamı yemək stoluna keçdi. Konsul xidmət edirdi. Yeməkdən sonra türk çayı içildi, tanışlıq mərhələsi başlandı. Ailə və uşaqlarla da tanış oldular. Konsul yavərini onsuz da tanıyırdı. Yavərin xalası konsula:

- Bəyəfəndi, təkmi yaşayırsınız?

- Bacımla.

- Xanıməfəndi indi hardadı?

Konsul xəfif bir təbəssümlə yerindən qalxdı, divardakı xəritəyə yaxınlaşdı, barmağını göstərmək istədiyi ölkənin üstünə qoydu.

- Bax, buraya getdi, - dedi.

- Yəni haraya?

- Kanadaya, əfəndim.

Yavərin xalasının özündən əmin və arxayın danışması konsulun diqqətindən yayınmadı.

- Adınızı, bağışlayarsınız, əfəndim?

- Narin.

- Evin xanımısınız, eləmi?

- Əslində, baytaram.

Konsul heç gözləmədiyi bu cavabın qarşısında çaşqınlığını gizlədə bilmədi:

- Aa, doğrudanmı?

- Bəli, niyə şaşırdınız?

- Nə bilim, heç gözləmirdim. Peşənizi niyə yerinə yetirmirsiniz?

- Bir müddət yerinə yetirdim, amma sallaqxanada sağlamlıq qaydalarının bilərəkdən pozulduğunu görəndən sonra istefa verdim. Anladım ki, bu işi ya özüm eləməliyəm, ya da eləməməliyəm. Başqasının yanında işləyərək bu işin öhdəsindən gəlmək çətindi.

Konsul dodaqlarını heyrətlə büzdü:

- Niyə öz işinizi qurmursunuz?

- Mayam olmadığına görə.

- Əslində, məncə... Nə isə, bu haqda sonra danışarıq.

Narin xanımın içinə bir xal düşdü. Evə dönəndə bu söhbəti təkrar açdı:

- Mənim öz iş yerimi açıb-açmamağım konsulu niyə maraqlandırsın?

Yavər:

- Elə demə, xala. Yəqin, bir şey bilir.

Yavər kuşluk vaxtı dükana gedərkən Qaracanı da özü ilə götürdü. Qayıdanda köşkün altındakı oturacaqda oturan konsulu gördü. Salamlaşdılar. Konsul:

- Yavər, xalan hardadı?

- Evdə olmalıdı, bəyim, baxımmı?

- Zəhmət olmasa, bir bax. Əgər vaxtı varsa, o keçən günkü məsələni onunla təkrar danışmaq istəyirəm.

- Təbii, bəyim. Sizə indi xəbər verərəm.

İti addımlarla evə doğru irəlilədi. Qaracan ondan irəlidə gedirdi. Yavər evə girəndə konsulun səsi eşidildi:

- Qaracan!

Köpək o saat səkiyə çıxdı. Konsul yanına gələn iti ilə maraqlanıb dərdləşdi. Ona baxıb əhvalı duruldu, köpək də təbəssümlə dilini salladı.

Konsul iti ilə dərdləşərkən Narin xanım gəlib çıxdı.

- Salam, əfəndim.

- Salam. Burda oturun, lütfən.

- Sizi işinizdən ayırmaram?

- Xeyr. Qaracanla yaxşıca dərdləşirdik. İndi sizinlə danışa bilərik.

Narin xanım konsulun qarşısındakı oturacaqda oturdu. Konsul Qaracana "get" işarəsini verdi, əynindəki gödəkçəsini düzəltdi, xəfifcə boğazını arıtladı.

- Xanıməfəndi! Ötən gün danışdığımız sallaqxana məsələsi vardı ha?

- Bəli.

- O haqda sizə bir təklif edəcəyəm.

- Bu necə bir təklifdi?

- Bəykozda (yer adı – çevirən) rəhmətlik babamdan qalma bir yerimiz var. Oraya getməyə tənbəllik etdiyimizdən bu saat bir işə yaramır. Sahil yolunun lap yuxarısında bir yerdi. Nəqliyyatı pis deyil. Sadəcə, yay aylarında ora piknikə gedirik, vəssalam.

Qadın gözünü qıydı, bir müddət maraq və düşüncə içində dayandı.

- Piknikə kimlərlə gedirsiniz?

- Hər yay bütün küçəyə xəbər verirəm. Gedəcək adamların sayına görə minik kirayələyib yola düşürük.

Qadının çaşqınlığı daha da artdı.

- Gözəl! Yaxşı, bundan sonra planınız nədi?

- Əslində, onu deyəcəkdim. Haqqında danışdığım yer on dönümdən (1 dönüm təxminən min m. – çev.) artıqdı. Əgər öz sallaqxananız yoxdusa, orda bir sallaqxana aça bilərik.

Narin xanım konsulun təklifi qarşısında bir müddət duruxdu.

- Bilmirəm. Bəlkə, daha sonra danışaq...

- Bunun daha sonra danışılası nəyi var?

- Siz necə ki, sonra danışmaq istədiniz, mən də bu haqqımı istəyirəm.

Konsul gülümsədi:

- Yəni qarşılığını verirsiniz?

- Bilmirəm, - deyib qadın ayağa qalxdı. Bir neçə addım atdı, konsula tərəf döndü, gülümsədi:

- İcazənizlə... Bu haqda daha sonra danışacağıq, amma mütləq danışacağıq, - deyib ayrıldı.

Səhər-səhər yürüşə çıxan konsula təkcə Qaracan deyil, yavər də yoldaşlıq edirdi. Bu ikiqat mühafizə sayılırdı. Konsul düşmən qorxusundan deyil, məslək vərdişinə görə bunu edirdi. Hər halda, bir xarici iş əməkçisiydi və etibarlı mühafizə ilə gəzməyə adət etmişdi. Yavər nə qədər etibarlı mühafizə olsa da, təhlükəsizliyində ilk növbədə Qaracan maraqlıydı. Yavər belə Qaracanın sayəsində daha artıq rahat yata bilirdi. Təkcə yavərmi? Konsul və bütün küçə Qaracana əmanətdi.

Ramazan ayının əvvəlində gecə yarısı dəmir döyən kimi Ramazan təbili çalan motosikletli biri konsulu çox qəzəbləndirdi. Hər gecə bu əsəb gərginliyini yaşamaması üçün yenə imdadına Qaracan yetişdi. İlk günlər bu gurultunun altını küçə sakinləri çəkməyə məhkum və məcbur oldu. Bir gecə konsul küçəyə çıxdı və motosikletdə guya təbil çalaraq keçən adamın arxasınca Qaracanı göndərdi. Motosikletçi küçənin başında qarşısında iti görəndə çaşdı və qorxdu. Motosikletin üstündə gözləməkdən qeyri çarə tapmadı. Artıq Qaracandan qaça bilməzdi. Konsul yavaş-yavaş itə yaxınlaşdı, motosikletdə iki nəfərin olduğunu gördü.

- Demək, biri motosikleti sürür, o biri təbilə bənzər nəyisə çalır, - deyə mızıldandı.

Qaracanın başını sığalladı, motosikletdəkilərin qarşısına keçdi, üzlərini yaxşı görmək üçün lap yaxınlaşdı, sərt bir ifadəylə:

- Əfəndilər, bu mübarək ayda əgər bu itin sizi peşman etməsini istəmirsinizsə, bir daha bu küçədən keçməyin, - dedi və Qaracana "get" işarəsi verdi.

Motosikletdəkilər Qaracanın uzaqlaşmasını qənimət bilib gözdən itdilər. O gündən sonra küçədə bir daha təbil səsi eşidilmədi.

Səhər həyətə yenən konsul yavərlə qarşılaşdı, salamlaşdı. Yavərin sifətindəki qaraltı konsulun diqqətindən yayınmadı.

- Üzünə nə olub?

- Bekara şeydi, bəyim.

- Bekara olsa da, nəliyini bilmək istəyirəm.

- Dünən axşam bir neçə şəhər xuliqanı ilə tutaşdıq...

- Necə yəni?

- Küçədən keçərkən gəlib-gedənə söz atmağa başladılar. Xəbərdarlıq etdim. Üstümə gəldilər, dərslərini verdim.

- Həə...

- Olanı budu.

- Axırı?

- Axırı da hər biri canını zorla qurtardı.

- Desənə, ilan ulduz görməsə, ölməz.

- Əlbəttə, bəyim. Elin yumruğunu yeməyən öz yumruğunu dəyirman daşı bilər, havayı söyləməmişlər.

Konsul gülümsədi:

- Afərin sənə, yavər. Xoşuma gəldin. İmkan olanda bir yanıma gəl.

- Yaxşı, bəyim.

Konsul küçəyə çıxdı. Yavər dalınca getdi.

- Sən işində ol, mən bir az tək gəzəcəyəm, - konsul dedi.

Yavər öz-özünə çox fikirləşdi. Aranı dağa daşıdı, dağı arana. Konsulun bu halına bir məna verə bilmədi. Uzaqdan-uzağa konsulu izləməyə davam etdi. Az öncə küçəyə girən poçtalyonun konsula bir zərf verdiyini gördü. Konsul gözlüyünü burnunun üstünə yendirdi. Əlindəki zərfi bir müddət o tərəf-bu tərəfə çevirdi. Sonra da gedib köşkün altındakı həmişə oturduğu oturacağın qabağında dayandı. Köməkçi konsulun halına baxdı.

- Bu gün nəsə çox fikirlidi, - dedi.

Konsul bir azdan oturacağa əyləşdi. Aralıda gözləyən yavərini görən kimi gəlməsini işarə etdi. Yavər cəld yaxınlaşdı. Konsul qarşısındakı boş oturacağı göstərdi.

- Otur, - dedi.

Çəkinən yavər oturdu. Zərfin içindən çıxardığı qısa məktubu oxuyan konsulun nə deyəcəyini gözlədi. Konsul əlindəki məktuba baxıb arabir dodağını büzür, oxuduqlarını təsdiqləyirmiş kimi başını tərpədirdi. Yavər bir yandan nə deyiləcəyini maraqla gözləyir, o biri yandan alayarımçıq eşitdiyi sözlərə məna verməyə çalışırdı. Birdən cəsarətini toplayıb:

- Bəyim, görəcəyimiz bir iş varmı?

- Sallaqxana işini sürətləndirməli olacağıq. Şirkətə icazə vermişlər. Xalanın işi asan olmayacaq.

- Xalam, vallah, öhdəsindən gələr.

- Niyə bu qədər əminsən?

- Onun indiyə qədər yarımçıq bir işi olmadı.

- İnanıram. Bacarıqlı və istiqanlı adamdı.

O axşam Narin xanıma şad xəbəri yavər çatdırdı. Narin xanım o saat konsulun yanına getdi. İş haqqında ətraflı danışdılar. Çay və türk qəhvəsi xidmətini konsul yerinə yetirdi. Narin xanım arada:

- Fethi bəy, bir xanımın görə biləcəklərindən daha artığını, daha mükəmməlini yerinə yetirirsiniz.

- Çox nəzakətli və çox istiqanlısınız.

Narin xanımın gözləri parıldadı. İçində dolaşan ilıq bir şey qəlbinə axdı.

- İki aya qədər idarəetməniz qaydasına düşər.

- İdarəetməm dediniz?

- Bəli... Sizin idarəetməniz yəni... Mülkün bütün səlahiyyəti, mayanı və idarəetməsini sizin öhdənizə buraxacağam.

- Niyə?

- Belə olmasını istəyirəm, vəssalam.

Bir həftə yağan yağış dayanandan sonra fasiləsiz davam edən inşaat işləri iki aya başa çatdı. Narin xanımın idarəetməyə başı bərk qarışdığına görə evə gec gəlirdi. Bu hal bir müddət sonra konsulu narahat etməyə başladı. Narin xanıma:

- Qaracanı ixtiyarınıza göndərəcəyəm.

Narin xanımın üzü güldü. Qaracanın ixtiyarında olması hər cəhətdən təhlükəsizlik deməkdi. Sallaqxanada yaxşı bir it damı tikildi. Qaracan bura gətirildi. Küçənin təhlükəsizliyi yalnız yavərin öhdəsində qaldı. Fethi bəy Bəykoza Qaracanı görməyə yalnız həftə sonu gedirdi. Yavər bir müddət özünü yalqız hiss etdi. Küçəni narahat dolaşdı. Dükana gedəndə də bir gözü geridə qaldı. Konsul Narin xanımı hər görəndə "Qaracanı bizim əvəzimizdən oxşamağı unutmayın", deyə xəbərdarlıq edirdi. Narin xanım bütün günü vaxtını Qaracanla keçirirdi.

Yavər bir səhər qazonu sulayanda ucaboylu bir neçə adamın ona sarı gəldiyinin fərqində oldu. Adamlar mafiya babalarını andıran bir tövrlə:

- Konsulun evi buradımı? - soruşdular.

- Bəli, buradı...

- Siz onun nəyisiniz?

- Yavəri.

- Köpəyi hardadı?

- Bəykozda.

- Sallaqxanadamı?

Yavərin gözləri böyüdü, rəngi dəyişdi:

- Sallaqxananı hardan tanıyırsınız?

Adamlar bir kəlmə kəsmədən qara gözlüklərini düzəldib küçənin başına doğru irəlilədilər. Sonra gözdən itdilər.

Ertəsi axşam Bəykozdan qayıdan konsul yavərin zəngini basdı. Qapını yavərin xanımı açdı.

- Yavər burdamı?

- Çölə çıxıb, hələ gəlməyib.

- Gələndə məni görsün.

- Yaxşı, bəyim.

Yavər o gecə nə evinə gəldi, nə də konsulun qapısını döydü. Konsul ertəsi gün axşama qədər əndişəli baxışlarla gözlədi. Narin xanım axşam evinə dönmədən konsulun zəngini basdı. Bulud kimi dolmuşdu. Üz-üzə gəldilər. Konsul:

- Yavərdən iki gündü xəbər yoxdu, - dedi.

Narin xanım bir neçə dəfə udqundu:

- Qaracandan da, - dedi.

Konsul nəmli gözlərini qadının üzünə dikdi. Həyatında nəyinsə əskildiyini hiss etdi. İçinə yığılanları daha saxlaya bilmədi. Başını əlləri arasına aldı. Acı-acı ağladı.

**Türkcədən çevirən:**
**Eyvaz ZEYNALOV**

İslam SADIQ

**BURA KOROĞLUNUN ÖZ VƏTƏNİDİ**

Eyni boyda deyil elə bil daşlar,
İndi tərəzinin haqq gözü əymir.
Kərənti səsindən diksinmir quşlar,
Papaqlı kişilər gözümə dəymir.

Görün niyə susub çoban tütəyi,
Bulağın önündə diz çökən yoxdu.
Tüfəngin çəkili qalıb tətiyi,
Dindirib dilimdən söz çəkən yoxdu.

Qışın oğlan çağı gün döyür döşü,
Zirvələr üşüyür qar həsrətindən.
Dərəni doldurmur bir qız gülüşü,
Yolları ot basıb yar həsrətindən.

Samovar qaynayır poqqurhapoqqur,
Bayaqdan aparıb çayçını mürgü.
Çayçıda çayçıdan başqası yoxdur,
Bu kənd sürgün olub, elə bil sürgün.

**TANIMIR**

Haqsızdan haqq umanın
Sabaha yox gümanı.
Unudub dağ dumanı,
Aran çəni tanımır.

Bükülüb yarpağa dən,
Bir yuva qurmağa dən.
Can atır torpağa dən,
Torpaq dəni tanımır.

Hanı qolunu açan?
Hanı boynumu qucan?
Dünən yelimə uçan
Bu gün məni tanımır.

Oğulsuz, qızsız da vətən olarmı,
Oğluynan, qızıynan gözəldi vətən.
Aşıqsız, sazsız da vətən olarmı,
Sözüynən, sazıynan gözəldi vətən.

Dərdi təpə-təpə yığıb içinə,
Çuvalın ağzını, de, kim közədi!?
Yayılmaz şöhrəti Maçına, Çinə,
Qıratı minsə də, Həmzə Həmzədi.

Qartal yuvasında qarğa yatammaz,
Bura saz yurdudu, söz vətənidi.
Burda Koroğluya yağı batammaz,
Bura Koroğlunun öz vətənidi.

**SUYU ÇƏKİR ADAMI**

Tanıdığım üzlər dəymir gözümə,
Papaqlı kişilər hanı, deyirəm?
İndi oğulsansa, mən öz-özümə,
Dur bu uşaqları tanı, deyirəm.

Bir bəri gəl, görüm kimsən,
Yaman şirin gəlir suyun.
Yanılmaram əgər desəm,
Filankəsə çəkib boyun.

Yaman doğma nəfəs gəldi,
Bir belə dur, anışdırım.
Qulağıma bir səs gəldi,
Az qalıram danışdırım.

Necə şirin danışdınsa,
Sənə qanım qaynadı lap.
Necə şirin qımışdınsa,
Ruhum canda oynadı lap.

O uşaqda gülüşə bax,
Üzündən üz baxır hələm.
İki dodaq, iki yanaq,
Bir almadı bölüb bölən.

Qırx ildi bu kəndi ələyir zaman,
Görünmür həyətdə, hənddə kişilər.
Bayaqdan baxıram, seyrəlib yaman
Meşədə ağaclar, kənddə kişilər.

Hər gün ot göyərdir burda neçə iz,
Təzə izlər düşür bu yandan hələ.
Nə yaxşı, nə yaxşı, uşaqları biz
Tanıya bilirik suyundan hələ.

Ya sultanım, xanım, sənə,
Lap qaynadı qanım sənə.
Qoy söyləsin canım sənə,
Soyun özcə soyumdandı.

Yad nəfəsi qızdırmayıb,
Yad qələmi yazdırmayıb.
Zərrə qədər azdırmayıb,
Suyun özcə suyumdandı.

Ruhundu, səsindi, sözündü bu su,
Bu su dönür gözə, qaşa, millətim.
Canında təpərdi, dözümdü bu su,
Nə qədər bu su var, yaşa, millətim.

**QAYIDIR**

Hava burum-burum, yer şülək-şülək,
Dənizdə saç yolur gör neçə mələk.
Dağıdır dünyanı bir dəli külək,
Ağaclar torpağı öpüb qayıdır.

Yaz nəfəsi gəlir yenə hər işdən,
Qızlar doymaq bilmir hələ görüşdən.
Sürünü qaytarır çoban örüşdən,
Əkinçi toxumu səpib qayıdır.

Ay İslam, ulduzlar qaralır köz tək,
Üfüqlər qızarır od vurmuş üz tək.
Adamın üstünə qayıdan söz tək,
Tüstü buxarıdan təpib qayıdır.

**MƏNDƏN YUXARI**

Tanrının yerini bilən ha yoxdu,
Yanından qayıdıb gələn ha yoxdu.
Göyü yeddi yerə bölən ha yoxdu,
Ulduzdan aşağı, Gündən yuxarı.

Hər insan köçündə bir qorxu da var,
Hər qapı keçəndə bir sorğu da var.
Hərənin içində bir duyğu da var,
Sevgidən aşağı, kindən yuxarı.

Burda dərə yatır səndən aşağı,
Dumandan aşağı, çəndən aşağı.
Burda yüz mən vardı məndən aşağı,
Bir mən də yaşayır məndən yuxarı.

**SON DAVASI XOCALININ**

Nə qədər ki, qurtarmayıb
Qan davası Xocalının.
Duyulacaq sözümüzdən
Qan havası Xocalının.

Deyin görüm niyə susub?
Baxıb yerə, göyə, susub.
Biz susmuşuq deyə susub
Xan havası Xocalının.

Ocaq sönməz köz ölüncə,
Mən ölmərəm söz ölüncə.
Canımdadı düz ölüncə
Can davası Xocalının.

Qorqud qopuz alacaq, bil,
Son havanı çalacaq, bil.
Sabah, sabah olacaq, bil
Son davası Xocalının!

**DÖNMƏZ**

Ürək var ki, qış kimidi,
İpək var ki, daş kimidi.
Ovcundakı quş kimidi,
Söz çıxdımı dildən, dönməz.

Qonub bircə gülə, sevir,
Qaş qaralıb, hələ sevir.
Ölmüş onu elə sevir,
Arım ölər, güldən dönməz.

Örtüb dağın çən başını,
Sürmələyib gün qaşını.
Yaxşı saxla sən daşını,
Daş çıxdımı əldən, dönməz.

**GUYA BİLMİR**

Bir nadana tuş olmuşam,
Abır bilmir, həya bilmir.
Tərəziylə hesab çəkir,
Qazanc bilmir, maya bilmir.

Ayağa da başdı deyir,
Su başımdan aşdı, deyir.
Qayaya da daşdı, deyir,
Daş tanımır, qaya bilmir.

Adaş sanır armaqları,
Hazır qoyub qarmaqları.
Say çöpüdü barmaqları,
Ondan çoxu saya bilmir.

Söyüd əkib, nar gözləyir,
Yox deyirsən, var gözləyir.
Gördüyündən bar gözləyir,
Şitil qanmır, paya bilmir.

Quzu görür, çəpiş bilir,
Düz işi də çəp iş bilir.
Mən bir billəm, o beş bilir,
Elə susur, guya bilmir.



Orxan İSMAYIL

# Ən yaxın dost

Küçə itlərinin adamlardan çox veylləndiyi qaranlıq, dar dalanların biri ilə irəliləməkdəyəm. Rastıma çıxan hər adamdan onu soruşmağı qərara almışam. Hələ ki, itlər, pas atmış, təkərləri və şüşələri olmayan iki maşın, yarıqaranlıq səkilər bu mənzərəni adamsızlaşdırır. Dalğın, peşmanlıq aurasının buxovlarında dolaşmamaqdan ötrü yeyin addımlar atıram. Heç kim heç kimin deyil, heç kim heç nəyi itirə bilməz ki, sonra da axtarsın, deyirlər. Mən bununla razılaşmıram. Onu özümün bir parçam, daxili orqanım hesab edirəm.

Budur, qoca dilənçi köhnə sırıqlısına bürünüb bir əlində torba, o biri ovcunu açıq tutaraq qarşıdakı döngədə peyda olur. Sevinib ona sarı gedirəm. Çatıb nəzakətlə salam verirəm. Naməlum nəzərlərlə məni başdan-ayağa süzüb nəzir verib-verməyəcəyini soruşur. Qəribədir, o mənim nəsə axtardığımı kəsdirə bilib. Və xəbər almamış heç vaxt onu görmədiyini deyir. Əlimi cibimə salıb iyirmi və beş qəpiklik iki dəyirmi pul çıxarıram. Həvəslə qapır. Ondan uzaqlaşanda nəsə mızıldanır, sözləri ayırd edə bilmirəm.

Bu küçədən də uzaqlaşıb enli şoSse yolunun qarşı tərəfindəki parka gəlib çıxmışam. İşıqlıdır. Yerimdə fırlanıb onu görəcəyimə nagüman halda başımı yuxarı qaldırıram. Qara, cəhənnəmi xatırladan bulud topalarının arasından Tanrı məni görə bilirsə, yəqin, onun da harada olmasından xəbərdardır. Sağ olmağına işarə verməsini yalvarıram. Bu vaxt danışıq səsləri eşidilir. Çevrilib baxıram. İki uzun plaşlı kişi ucadan, əl-qol ölçməklə söhbət edə-edə mənə sarı gəlir. İkisi də qalstuk taxıb. Başlarında qara beret var. Görəsən, onlardan soruşummu? Dayanıb yaxınlaşmalarını gözləyirəm. Məni eyinlərinə almayıb yanımdan ötürlər. Pıçıltı ilə onları söyürəm.

Parkdan çıxıb yanakı həyət evlərinin sıralandığı məhəlləyə çatıram. Qırmızı, göy kirəmitli, yöndəmsiz taxtapuşlu evlərdən sarı parıltı bərq vurur. Aralarından boylana-boylana keçib rastlaşacağım ilk adamı səbirsizliklə gözləyirəm. Qara, sısqa pişik dik quyruğunu sağa-sola yelləyib alçaq daş hasarın dibi ilə gedir. Yaramaz məxluq ona baxdığımı hiss edib gözdən itir.

Məhəllənin içərilərinə daldıqca ayaqlarım yorulur. Əyilib dizlərimi ovxalayır, iri hava udumları alıram. Kiçik, qırmızı kərpicdən hörülmə kafenin qarşısında bir neçə gənc söhbətləşir, ucadan şaqqanaq çəkirlər. Növbə ilə əl sıxıb, söhbətlərinə müdaxilə etdiyimə görə üzrxahlıq edirəm. Buraların adamı olmadığımı tez anlayırlar. Onu görüb-görməmələrini xəbər alanda bir-birlərinə baxıb əvvəlcə susurlar. Sonra qaydasında olduğuma əmin olmaq üçün müxtəlif suallar verirlər. Onlardan bezib geri qayıdıram. Anlayıram ki, o, əbədi yox olub. Bəlkə də, daha maraqlı dost tapmaq üçün gedib, bəlkə də, onu tapıb artıq.

Evə dönən yolda camaat toplaşıb. Yaxınlaşıram. İki oğlan ağzı zəncirbəndli torbanı sürütləyib yolun kənarına qoyur. Deyirlər ki, onu vuran maşın sürətini də yavaşıtmadan şütüyərək yox oldu. Bir neçə saniyə ağır nəfəs alıb canını tapşırdı. “Yazıq küçə itlərinə heç bənzəmirdi” deyən yaşlı kişiyə sarı çevrilib dediklərini bir daha təkrarlamasını istəyirəm. Başını bulayıb susmağa üstünlük verir. İnamsız addımlarla torbaya yaxınlaşıram. Onu açdıqca əllərim durmadan əsir, belimdən soyuq tər axır. Axıra qədər açıb sevimli dostum olmasına əmin oluram. Bir anlıq başım hərlənir, ətrafdakı adamlar parçalanaraq qara zülmətə çevrilirlər. Ağzı üstə yerə yıxılıram.

Gözlərimi açanda başımın üstündə çoxlu adamın səs-küyü, ora-bura tələsmələri, məni silkələyib ağzımdan süzülən qanı dəsmalla silmələri hələ yaşadığım anlamına gəlir. Onları itələyib birtəhər ayağa qalxıram. Belim, oynaqlarım bərk ağrıyır. Hövlank nəzərlərlə ətrafı marıtlayıb onun harada olmasına göz gəzdirirəm. O yoxdur. Yoxdur. «Lənətə gəlmiş qaniçənlər, verin mənim itimi, verin mənim dostumu!» bağırıb yenidən yerə çırpılıram.

Sevil İŞIQ

**HƏSRƏT**

İsti varlığını sevdiyim kimi,
Soyuq yoxluğunu sevən də mənəm.
Sən adlı ünvandan yollara çıxan,
Sən adlı ünvana dönən də mənəm.

Ovcuma yüyürən göz yaslarım da
Mənim ürəyimdən qopan parçadı.
Sən mənim qəlbimə neçə dağ çəkdin,
Indi dağlarım da parça-parçadı.

Məni gülüşümə həsrət qoyanım
Görüm həsrət qalsın göz yaşlarıma.
Özüm öz dünyama yaratdım səni,
Başqa bir dünyada çıxma qarşıma.

**SƏHƏRİ AÇIRAM GÜLÜŞLƏRİNLƏ...**

Səhəri açıram gülüşlərinlə,
Gecələr gözünün qarasındadır.
Sən harda olursan ol, mənim üçün
Yaşamaq dünyanın orasındadır.

İtmişdim, işığı tapdım gözündə,
Olumsan, ölümsən, duya bilmirəm.
Tanrının ən gözəl yaratdığısan...
Sənə heç bir adı qoya bilmirəm.

Gedişin ömrümün payızı olar,
Payızdan heç yaza yamaq olarmı?
Mənim ürəyimin sahibi sənsən,
Evin yiyəsindən qonaq olarmı?

Məni sevənlərə hökm edən gücüm
Bu eşqin önündə qolu bağlıdır.
İstəsən ömrümün dar ağacı ol,
Səndən asılmaq da etibarlıdır.

Səhəri açıram gülüşlərinlə,
Gecələr gözünün qarasındadır.
Sən harda olursan ol, mənim üçün
Yaşamaq dünyanın orasındadır.

**GÖRÜŞƏRDİK...**

Görüşərdik...
Hər görüşdə birnəfəslik ətrini oğurlayardım.
Yıxılardım bilərək...
əlinə qovuşum deyə.
Saçlarımı bağından açıb azad edərdim -
Sığaldan payın olsun.
Qısa-qısa danışıb, uzun-uzun baxardıq.
Gözlərin təmasından ilıq hisslər keçərdi.
Görüşümüz təbiət dərsinə bənzərdi.
Ağaclara ad yazardıq...
Torpağa ürək şəkli...
Günəşin özünə günəşdən dərs deyərdik.
Gözümüz gördüyünə...
Dilimiz şərh verərdi.
Vecimizə deyildi dünyanın bala dərdi;
Görsə bu halımıza
Gülərdi uşaqlar da.
Belə sevmişdim səni...
Unutmusansa, deyim:
Sən mənim həyatımda elə özüm kimiydin.

**DƏYMƏDİN**

Sıxıb soyuq əlini
isti nəfəs verərdim.
Səni qəmli görməyim -
gülüb həvəs verərdim.
Gülməyimə dəymədin.

Sən ağladın, ağladım.
Güləndə mən də güldüm.
Bəxtin qarası mənim,
Ağını sənə böldüm,
Bölməyimə dəymədin.

Tanrı verən ürəyi
Alıb sənə vermişəm.
Səni yaşadım deyə
Bu dünyaya gəlmişəm?
Gəlməyimə dəymədin.

Ayağına dəyən daş
Ürəyimi əzməzmi?
Bircə acı sözünlə
Ümidlərim ölməzmi?
Ölməyimə dəymədin.

# Məhəbbətini əbədi heykəl qoyan – Fransesko Petrarka

Səxavət SAHİL

Renessans dövrünün ilk vaxtlarında yaşayan Petrarka zəmanəsinin şairi və filosofu kimi Avropa ədəbiyyatının nəhəng simalarındandır. Onun yazdığı sonetlər lirik şeirin formalaşmasında və modernləşməsində ciddi bir təkan olmuşdur.

Petrarkanın yaradıcılığı müasirlərindən fərqlənsə də, əslində, dərindən bələd olduğu antik mədəniyyətə bağlı idi. Təsüdüfi deyil ki, Siseronun məktublarını unudulmaqdan o xilas etmişdi. İlk əsəri də Roma sərkərdəsi Ssipiondan bəhs edən "Afrika" adlı latınca yazdığı dastandır.

Onun həyatında mühüm rol oynayan Laura adlı qadın olmuşdur. Uğursuz məhəbbəti şairi əzəblara salsa da, Petrarka sevgilisinə ömrünün sonuna kimi sadiq qalaraq Lauranı unutmayıb və əsərlərində onu dönə-dönə xatırlayıb.

Fransesko Petrarkanın poeziyası haqqında yazmamışdan əvvəl həyatı barədə bir neçə kəlmə yazıb, oxuculara onu tanıtmağı borc bilirəm.

Şair 1304-cü ildə İtaliyanın Arezzo şəhərində dünyaya gəlib. Əslində isə o florensiyalıdır – atası 1302-ci ildə Arezzoya sürgün edilib. 1316-ci ildə Monpelye Universitetində hüquq təhsili almağa başlasa da, təhsilini məşhur Bolonya Universitetində tamamlayır. Atasının ölümündən sonra isə Fransanın cənubunda yerləşən Avinion şəhərinə köçür.

6 aprel 1327-ci ilə həyatının ən mühüm hadisəsi baş verir – ömrü boyu unuda bilmədiyi sevgilsi Laura ilə Müqəddəs Klare kilsəsində rastlaşır. Bir müddət kilsədə yüksək vəzifədə çalışır. Sonra Avropa səyahətinə çıxır.

1339-cu ildə, ona əbədi şöhrət gətirən "Zəfər" şeirlərini yazmağa başlayır. Şair kimi tanınmağa başladığı ilk dönəmdə Paris Universiteti və Roma senatı ona şairlik tacı almağı təklif etsə də, Petrarka Romanı seçir. Kral Robertonun yanında üç günlük sınaqdan sonra baş şair tituluna sahib olur.

1350-ci ilə Florensiyada intibah dövrünün böyük sənətkarı Covanni Bokkaççо ilə görüşür və görüş həmişəlik dostluğa çevrilir. Bir il sonra papa katibliyi vəzifəsindən imtina edərək Aviniondakı papa mərkəzinə qarşı çıxır. Yeni Papa seçilən Altıncı İnogetti ilə münasibəti gərgin olan Petrarka Aviniondan getmək məcburiyyətində qalır. Karlın Müqəddəs Roma imperiyasının başına keçməsindən sonra Praqaya gələrək sarayda vəzifə tutur.

1361-ci ildə oğlunun vəbadan ölməsi şairi sarsıntılara məruz qoyur. Daimi bir yeri olmayan sənətkar həm tutduğu vəzifələrə, həm də kilsə və hakimiyyətlə münasibətlərinə görə Avinion, Napoli, Parma, Verona, Provans, Kolonna, Vakalyus, Roma, Milan, Venesiya, Padova şəhərlərində məskən salır. Daim narahatlıq və məhrumiyyət içərisində yaşayan şair omrünün sonunda İtaliyanın şimalında yerləşən Arquaya gəlir, 1374-cü ildə orda vəfat edir. Vəsiyyətinə uyğun olaraq Arqua kilsəsində dəfn olunur.

Petrarkanın həyatının önəmli faktlarına nəzər salmaqda məqsədim xronoloji ardıcıllığı bura düzmək deiyil, şairi, yazıçını tanımaq üçün onun həyatını öyrənmək, yaşadığı dönəmdən xəbərdar olmaq lazımdır.

İndi də şairin yaradıcılığı haqqında bir neçə kəlmə. Yuxarıda yazdığım kimi, ona "Zəfər şeirləri" ölməzlik qazandırıb. Bəs nəyə görə şair əsərlərini bu başlıq altında silsilə kimi yazıb?

Petrarkanın əsərləri, yazdığım kimi, antik mədəniyyətlə, xüsusən də, qədim yunan və Roma mədəniyyti ilə sıx bağlıdır. Bu faktı təkrarən ona görə yazdım ki, sənətkarın yaradıcılığını araşdırarkən nəzərdən qaçırmayaq. Digər tərəfdən, hakimiyyət və kilsə ilə münasibəti korlamamaq üçün, ehtimal ki, öz dövrünə yox, antik dövrə müraciət etmək məcburiyyətində qalıb. Məhz kilsənin təqiblərindən yaxa qurtarmq üçün sənətkarlar antik sujetləri gündəmə gətirirdilər ki, bu da sonda intibah mədəniyyətinin yüksəlməsinə səbəb oldu.

"Zəfər şeirləri" geniş və əhatəli olmaqla yanaşı, şairin iç dünyasını, zəngin təfəkkürünü öyrənmək üçün də ən yaxşı vasitədir.

"Zəfər şeirləri" "Eşqin zəfəri", "Əxlaqın zəfəri", "Ölümün zəfəri", "Səsin zəfəri", "Zamanın zəfəri" və "Əbədiyyətin zəfəri" hissələrindən, şarin öz dili ilə desək, tablolarından ibarətdir.

Petrarkanın təxminən 50 yaşlarından yazmağa başladığı "Zəfər şeirləri", şairin ölümü səbəbindən tamamlanmayıb. Əsərin strukturu qədim Roma üslubunda qurulub: sanki müharibədən qələbə ilə geri dönən sərkərdə və ordusu Senat meydanında böyük izdihamla qarşılanır. Sərkərdədən sonra senat üzvləri, yüksək vəzifəli məmurlar, ordu və ən axırda isə zəncirə vurulan əsirlər Kapitoliyə qədər sıranı pozmadan addım-addım irəliləyir. Başında dəfnə yarpağından tac, dörd bəyaz atın qoşulduğu qələbə arabasına minən sərkərdə, çiçək səpilən yollarla xalqın arasından keçib baş meydana gəlir. Petrarka poetik çevirmə işlədərək romalı sərkərdələri Zəfər, Eşq, Əxlaq, Ölüm, Səs, Zaman və Əbədiyyətlə əvəz edir.

"Zəfər şeirləri"ndə təhkiyəçi-şair qəhrəmanın özüdür. Yüksək poetika və bəzən də alleqorik tərzdə yazılan əsər şairin daxili aləmini, yaşantılarını ifadə edir. Hər təsvir bir nağıl kimi danışılır – antik sujetlər, xüsusən də məhəbbət hekayətləri bir-birini əvəz edir. Bu hekayətlər qadın məkrindən, onların sevgiyə sadiq olmadığından bəhs edir. Şairin sevgilisi Lauraya tənə kimi çoxsaylı misallar gətirilir, faktlar və hadisələrlə onun haqsız olduğu ifadə olunur.

Əsərdə nə qədər alleqorik təsvirlər, antik sujetlər olsa da, müəllifin öz sevgilisinin əlindən yanıb yaxıldığı, dərdə düşdüyü məlum olur. Lakin Petrarka ədəbi çevirmələr vasitəsi ilə öz hisslərini gizlətməyi bacarıb. Bu da sənətkarlığın və ustalığın göstəricisidir.

Dörd hissədən ibarət olan "Eşqin zəfəri"i bahar fəslində, şairin Lauraya aşiq olmasının ildönümündə qələmə alınıb. Yuxuda olan şair, qələbə arabası üzərində Məhəbbət tanrısını görür. Məhəbbət tanrısı keçir, onu tarixin və əfsanələrin məşhur simaları izləyir. Ən qədim dövrdən başlayaraq bu günə qədər kim varsa, hamı bir nəfər kimi Məhəbbət tanrısınına ehtiram göstərib baş əyir. Təntənəli keçid davam edərkən ruh və ya insan olduğu bilinməyən bir kimsə izdihamdan qoparaq irəli çıxır və özünü şairə təqdim edir. Petrarka onu dərhal tanıyır – bu, şairin gənclik dostu olan bir Tosqanalıdır. Şairdən bir qədər yaşlı olan dostu ona bələdcilik edir, eşqdən bəxti gətirməyənləri bir-bir ona tanıdaraq, hekayətlərini yada salır. Əslində, şair özü də bu eşqə məğlub olanlardan biridir, çünki oxucunun bildiyi kimi, Lauraya qovuşa bilməmişdir. Məhəbbət tanrısının karvanı keçib Kiprə gedir, orda öz qələbəsinin böyük təntənə ilə qeyd eləyir, eşqin əsiri olanları isə zindana salır.

Bir hissədən ibarət olan "Əxlaqın zəfəri"ndə şairin aşiq olduğu gənc və gözəl Laura fəzilətin, bəkarətin və məşhur qəhrəmanların köməyi ilə Məhəbbət tanrısını məğlub edib, zindanda olan eşqin əsirlərini xilas edir. Əvvəlcə bakirə Ssipionla Liternumanı, sonra da Romada Əxlaq məbədində qələbəsini qeyd eləyib, sahib çıxdığı qənimətləri məbədə hədiyyə edir.

İki hissədən ibarət olan "Ölümün zəfəri"ndə Laura Romadan əyalətə qayıdarkən, başdan-ayağa qara geyinən bir qadınla – Ölümlə rastlaşır. Ölüm Lauranın ipək kimi yumşaq olan saçlarından bir tel qoparır, qız ölür. Bu hadisədən bir gün sonra şair yuxusunda Lauranı görür. Laura ona xüsusi ehtiram göstərib, təsəlli verir, onun xoşbəxt olduğunu deyir, məhəbbətini şairin ixtiyarına verib gec də olsa etiraf etdiyini deyir.

Üç hissədən ibarət olan "Səsin zəfəri"ndə qələbə dəstəsinin başına keçən Səsin arxasınca üç sıra ilə tanınmış simalar gəlir. İlk iki sıradakılar qədim Romanın və başqa ölkələrin sərkərdələri, üçüncü sıradakılar isə tanınmış filosoflar, şairlər və elm adamlarıdır.

Bir hssədən ibarət olan "Zamanın zəfəri"ndə günəşin seçdiyi Zaman misilsiz hakimiyyət əldə eləyir, yer üzündə nə varsa hamısı ona baş əyir. Zaman hər gün öz qələbəsini təntənə ilə qeyd edir. Şair bu mənzərəni görəndə sarsılaraq, özünə qapanır, dərin fikirlərə qərq olur.

Bir hissədən ibarət olan "Əbədiyyətin zəfəri"ndə Zamandan kənarda yer alan Tanrının işığıyla açılan yeni bir dünyada şair həm cənnətdə olmağın, həm də Lauranı görməyin xoşbəxtliyini yaşayır.

Petrarkanın da mənsub olduğu latın ədəbi-mədəni dəyərləri Vergili və Dante kimi nəhəng simalar yetirib. Dante Vergiliyə "İlahi komediya"da yüksək ehtiram göstərib. "İlahi komediya"da da bələdçilik və tarixi şəxsiyyətlər strukturu var. Petrarka da məhz bu ənənədən istifadə edib, əsərin quruluşunu Dantenin məşhur əsərini təkrarlamaqla qurub. Təbii ki, intibahın ilk vaxtlarının təsiri əsərdə aydın hiss olunur, Dantenin Beatriçasını özünün Laurası ilə əvəz edir.

Laura, Petrarkanın sözün əsl mənasında ilham mənbəyidir, şair sevgilisini əsərinin mərkəzinə gətirməklə, onu əbədiyyətə həkk edib. O, təkcə "Zəfər şeirləri"inin qəhrəmanı deyil, şairin okloqlarında (çoban nəğmələri) və məktublarında da Lauradan bəhs olunur. Lauranın həqiqətən yaşayıb, yaşamadığı məlum deyil. Petrarkanın yaxın dostlarından olan Qiakomo Kolonna da Lauranın Petrarka üçün bir rəmz olduğunu, istinadgah olduğunu yazır.

Lakin Petrarkanın "İç dünyam" adlı əsərində Laura ilə bağlı yazdıqlarını həqiqət kimi qəbul edənlər də var. Digər tərəfdən Petrarkanın kilsə görəvlisi olduğu üçün Laura ilə münasibət qura bilməməsini də düşünənlər var. Kilsə məmurları da Petrarkanı Lauraya vurulmasına görə məzəmmət ediblər. Şairin çoxuşaqlı qadına aşiq olmasını günah sayıblar. Onda belə bir fikir yaranır ki, Laura həqiqətən yaşayıb.

Başqa bir mənbəyə də nəzər salsaq, daha bir maraqlı fakta rast gələrik. Şairin zəngin kitabxanasında yer alan kitabların cildlərində olan qeydləri qaranlıq mətləblərə aydınlıq gətirir. Vergilin kitabının ilk səhifəsində yaxınları və dostlar üçün elədiyi qeydlərdən biri də Laura ilə bağlıdır:

***"Gözəlliyi ilə seçilən və çoxdan əbədiyyətə qovuşan Laura ilə ilk dəfə, 1327-ci ilin 6 aprel günü, Aviniondakı Müqəddəs Klara kilsəsində, səhər ayini sırasında qarşılaşdım. Yenə eyni şəhərdə, eyni gündə, amma 1348-ci ildə onun həyatının işığı söndü, amma təkcə onun yox, mənim də həyat işığım söndü. Üzücü xəbər Parmada olarkən çatdı mənə. O gözəllik təcəssümü və incə bədən 19 mayda, səhər saatlarında Fransiskoların kilsəsində dəfn edildi. Senekanın Afrikalı Ssipion üçün dediyi kimi, onun ruhunun gəldiyi yerə, cənnətə döndüyünə əminəm."***

Petrarkanın Lauraya bu qədər önəm verməsi və belə bir üslub seçməsi önəmi və üslubu bir-biri ilə bağlayır. Yəni əsərin mərkəzində duran Laura ilə, əsərin üslubu vəhdət olaraq yaradılıb. Ehtimal etmək olar ki, Petrarka nakam məhəbbətini dünyaya durduqca yaşatmaq üçün hər bir hekayəti, hər bir sujeti sevgilisi ilə bağlamışdır. Digər tərəfdən, əsərdə Roma dövrünün canlandırılması, antik sujetlərə müraciət və "İlahi komediya" strukturunun seçilməsi əsərin gələcəyinin "təminatı" ilə bağlıdır.

"Zəfər şeirləri"i nə qədər zərif poeziya nümunəsi olsa da, bir o qədər də əxlaqın, intellektin, mədəni dəyərlərin birləşdiyi sənət əsəridir. Şeirlər iki xəttdən başlayaraq finala doğru güclənir. Klassik xətt dedikdə ilk gözə çarpan Vergili, Ovidi, Siseron, Seneka və onların müasirləri ilə olan bağlantılardır. Digər xətt isə daha çox əsərin alt qatı ilə bağlıdır. Alleqorik keçidlər, antik sujetlərə müdaxilələr, və ironiyalar mətnin ağırlığını yumşaldır, onun oxucuya çatmasını daha da sürətləndirir.

Əsər boyu çoxsaylı mifik obrazları görürük, hekayələrin şahidi oluruq. İndi bu cür mətnləri izahı verilmədən oxumaq çətin məsələdir. Nəzərə almaq lazımdır ki, Petrarkanın mənsub olduğu ədəbi yol, bəşəriyyətin ilkin dünyagörüşü və "yaradıcılığı" ilə sıx bağlıdır. Bu istiqaməti birdən-birə dəyişmək müşkül məsələdir, hətta deyərdim, ki, yüzilliklər lazımdır. Petrarka isə məhz bu yüzillikləri qısaltmaq üçün çox böyük iş görüb, özündən sonra gələcək şairlər, filosoflar üçün mayaka çevrilib.

"Zəfər şeirləri" hazırlıqlı oxucu üçün ikiqat marağa səbəb olur. Hazırlıqlı oxucu deyəndə, sistemli şəkildə, ardıcıllıqla mütaliə edən kəsləri nəzərdə tuturam. Loru dildə yazsam, Troya müharibəsinin səbəblərini, Axillesin nəyə görə hakimiyyəti deyil, əbədi şöhrəti üstün tutduğunu, Davud peyğəmbərin müdrik Natana görə peşman olmağının səbəblərini bilən oxucuları nəzərdə tuturam. Hazırlıqsız oxucu isə izahlardan yorularaq adi əhvalat kimi də oxuya bilər.

İlkin intibahın dəyərlərindən olan "Zəfər şeirləri" indi də öz bədii dəyərini və gücünü qoruyub saxlayır. O, təkcə şeirlər toplusu deyil, eyni zamanda böyük bir ədəbi mənbə, qiymətli xəzinədir.

Aygün MƏMMƏDZADƏ

**CƏHƏNNƏMDƏ YANACAQSAN**

Gözünə minlərlə gözlər baxacaq,
Mənli xəyallara sən dalacaqsan,
İçində acılar baş qaldıracaq,
Özünlə gecələr tək qalacaqsan.

Yadına düşdükcə dəli gülüşüm
Hönkürə-hönkürə ağlayacaqsan,
Sevincin kədərə, qəmə dönəcək,
Köksünü dərdinlə dağlayacaqsan.

Şəninə tərifler söyləyəcəklər,
Adım dilindəcə karıxacaqsan,
Hər adi kəlmənə "can!" deyəcəklər,
Acı danlağımçun darıxacaqsan.

Xatirəm gələcək gözün önünə,
Unudub özünü sən danacaqsan.
Cənnətdən pay kimi gəlmişdim sənə,
Mənsiz cəhənnəmdə sən yanacaqsan.

**DÜNYA FIRLANIR**

Bu dünya firlanmır dayanıb sənsiz,
Onu öz oxunda döndərmişəm mən.
Bağışlayıb sənə hər bir günümü
Ömrümü hədiyyə göndərmişəm mən.

Elə bil gördüyüm hər kəs sən olub,
Özümü özümdə itirmişəm mən,
Dərin gözlərində bir dünya qurub
Ordaca hər şeyi bitirmişəm mən.

İçimdə sənincün ağlayan zaman
Üzümü sənincün güldürmüşəm mən,
Sənin həsrətinlə hər dəqiqə, hər an
Özümü bilmədən öldürmüşəm mən.

Solumda sənsizlik yanğısı kimi
Ən ağır yükümü daşımışam mən,
Sənsiz keçən günə gün demək olmur,
Əsrlər, yüzillər yaşamışam mən.

## Əlirza HƏSRƏT

**AYRILIQ YERİNDƏN QIRILDI BU EŞQ**

Sənin dodağında çiçəkləmişdi,
Bir zalım əliylə dərildi bu eşq.
Gözlərim yolunu elə çəkdi ki,-
Ayrılıq yerindən qırıldı bu eşq.

Qərib fəryadıydı, aşiq halıydı,
Divanə ruhların qeylü-qalıydı.
Bağrımın başında lalə xalıydı,
Keçib göz yaşından duruldu bu eşq.

Yenə pəncərəndə yellənir pərdən,
Xatirən şam tutub ən xoş xəbərdən.
Hər gün mən ölmüşü qaldırıb yerdən,
Sənin ayağına sərildi bu eşq.

**TUMURCUQ-TUMURCUQ BOYLANIR BAHAR**

Dağların döşünə çəkildikcə qar
Tumurcuq-tumurcuq boylanır bahar.
Adamın ağlını başından alar
Torpaq gətirdikcə cana gülləri.

Gözünün yuxusu qaçıb çəmənin,
Şehində şəfəqlər saçıb çəmənin.
Külək yaxasını açıb çəmənin,
Mindirib şöhrətə, şana gülləri.

Qəfəsdə çırpınan divanə quşdum,
Ən gözəl nəğməmi bahara qoşdum.
Onda gözlərimdə suya qoymuşdum,
Dərib döndərdilər qana gülləri.

**SƏNƏ HARDAN BAXSAM...**

İnandım dağların etibarına,
Sənə hardan baxsam, dağ şəklindəsən.
Gəl şəkil çəkdirək quzey qarına,
Görsünlər bu eşqin ağ şəklindəsən.

Bəzəksən ən gözəl şeir sətrinə,
Sevməyi öyrəndim sənin xətrinə.
Hamı bihuş olub çiçək ətrinə,-
Bağbanı divanə bağ şəklindəsən.

Gəlsə adım sənin dilinə ağır,
Məni baxışınla, gözünlə çağır.
Çöhrəndən sevdalı qəriblik yağır,
Əlirza Həsrətin sağ şəklindəsən.

Leyla ƏSƏDULLAYEVA

# Tanqo...

Rəqs içində axtarış.
Ecazkarlıq, yalvarış.
Ehtirasla sarılan qollar.
Hərarətli baxış və toxunuş.
Nəfəs kəsən dəqiqələr.
Qalxıb-enən səhnələr.
İmprovizasiya rəqsi.
Dekabrın on biri.
...Səni sevirəm, Tanqo!

Nurlan AĞA

# Ana hakimiyyəti, yoxsa oğul hökmü?

**Tarixin ədəbiyyata köçürülmüş səhifələri**

Ədəbiyyatın zəngin janrları arasında xüsusi biri də var ki, burada bədii təxəyyülün gücü tarixin faktları ilə birləşir və oxucunun xəyalını tarixi keçmişinə aparır. Söhbət tarixi roman janrından gedir. Həm xarici ədəbiyyatda, həm də Azərbaycan ədəbiyyatında bu janrda əsərlər, tarixi roman müəllifləri mövcuddur. Müasir Türkiyə ədəbiyyatında rast gəlinən tarixi roman müəlliflərindən biri isə Demet Altınyeleklioğludur. Onun bu tip romanları silsiləsinə "Moskof Cariye Hürrem", "Cariyenin kızı Mihrimah", "Cariyenin Gelini Nurbanu", "Altın Cariye Safiye", "Kara Kraliçe Kösem", "Pargalı ve Hatice", "Bozkır Çiçeği Cem Sultan", "Gülüm", "Kara Zeybek", "Ah Bre Sevda Ah Bre Vatan" romanlarını aid etmək olar.

**Tarixə meydan oxuyan imperiya və imperiyaya meydan oxuyan tarix**

Qarşımda "Kösem Sultan" kitabı var. Kitab Demet Altınyeleklioğlunun Osmanlı imperiyasının tarixi şəxsiyyətləri silsiləsinə aid olan tarixi romanlarındandır. Osmanlı imperiyası türk xalqları tarixinin ən qüdrətli dövlətlərindən idi. Elə bir xristian və ya müsəlman dövləti olmayıb ki, bu imperiya qarşısında baş əyməsin. Hətta tarixin özü də imperiyanın qüdrəti qarşısında baş əyirdi. Bəs imperiya nəyə baş əyəcəkdi? "Quruluş", "Yüksəliş", "Durğunluq", "Geriləmə", "Çöküş" adlı dönəmləri keçən imperiyanın tarixində özünəməxsus yeri olan bir dönəm də var: "Qadınlar səltənəti". Həmin dövr 1534-1656-cı illəri əhatə edir. Bu dövrdə taxtda oturan hökmdarların anası və ya arvadının dövlət işlərinə güclü təsiri, bəzi dövrlərdə dövlətin birbaşa onlar tərəfindən idarə olunması görünür. Hətta bəzən hökmdarların qızları, bacıları və nənələri də dövlətin idarəsini öz əllərində saxlamış, orduya, xalqa və bütünlükdə imperiyaya hökm etmişlər.

**Sahibət-ül-Səltənət**

Haqqında bəhs etdiyim kitab "Qadınlar səltənəti" dövrünün ən görkəmli nümayəndələrindən olan Kösəm Sultan barəsində yazılıb.

Bu kitabda, onun oğlu Sultan IV Muradın hakimiyyəti dövründəki Validə Sultanlığından (Validə Sultan – hökmdar anası) danışılır. Lakin o, Osmanlıya illər əvvəl gətirilib və Sultan I Əhmədin arvadı olub, onun ölümündən sonra oğlunun hakimiyyətinə qədər olan dövrdə də dövlətin üzərində təsiri olub. Elə kitabda da bu məqama rast gəlirik. Kösəmin monoloqundan bilinir ki, I Əhmədin ölümündən sonra onun Fül-Danədən (dosent Günhan Börekçinin yazdığı son məlumata əsasən, adı Həlimə Sultan olaraq da bilinir) olan atabir qardaşı dəli Mustafanı da, I Əhmədin ilk arvadı buz kraliça Mahfiruzənin cansız oğlu Osmanı da taxta o gətirib. Öz qüdrətinə özünü inandırmaq istəyən Kösəm, monoloqunda dəli Mustafanı taxta gətirənin (tarixdə Sultan I Mustafanın əqli cəhətdən qüsurlu biri olduğu bilinir), daha sonra xalqın "alın bu dəlini başımızdan" hayqırışı ilə onu taxtdan salıb, hələ uşaq olan gənc Osmanı (Sultan II Osman) taxta gətirənin, ondan sonra Yeddiqüllə zindanlarında çevriliş edib Osmanı əhaliyə öldürdüb yenidən dəli Mustafanı taxta gətirənin özü olduğunu söyləyir. Dövlət idarəsi xatirinə gizli və aşkar vəzirlərlə, paşalarla görüşdüyünü, onlara edəcəkləri və deyəcəklərini əzbərlətdiyini, öz qurduğu planlarla özünü səltənətin sahibi elan etdirdiyini gözünün önünə gətirir. İqtidar və güc istəyinin ona etdirdiklərindən peşman olmayan qadın bunları bir fəxrlə özü üçün danışır, gücün və idarənin ona əri I Əhmədin nənəsi, dövlət idarəsində və diplomatik münasibətlərdə uzun müddət güclü rol oynamış və Nasyadan bir Mahpeykər Sultan yaratmış Səfiyə Sultandan yadigar qaldığını deyir və özünə tarixin ən güclü kraliçası adını verir. Romanda onun bir sıra tarixi adlarına da rast gəlirik: "Valide-i-Müəzzəmə", "Valide-i-Kəbirə", "Sahibət-ül-Mülk", "Sahibət-ül-Səltənət".

**Hakimiyyətdən hakimiyyətə gedən yol**

Dəli Mustafanın ikinci hakimiyyətinin də sona çatmasından sonra taxtın yeni sahibi I Əhmədlə Kösəm Sultanın oğlu Sultan IV Murad olur. Lakin hələ uşaq olduğundan anası onun adına dövləti idarə etməyə başlayır və 10 ilə yaxın bir zaman içində təkbaşına imperiyaya hökm edir, elə adı kimi orduya, xalqa, dövlətə kösəmlik, yol göstərənlik, başçılıq edir. Amma ömür boyu öz gəncliyini, Mahpeykər Kösəm Validə olmazdan əvvəlki miloslu Nasya olmağını unutmur. Roman müəllifi tez-tez Kösəmi keçmişinə aparır, onu keçmişi ilə yuxular vasitəsilə üzləşdirir. Buradan da aydın olur ki, Nasya elə gəncliyindən səltənət hərisi olmuş, onu sevən gənc Pidakisin qəlbini sırf çoban olduğu üçün qırmış, onunla evlənməmiş və cadugərlərin yanında öz möhtəşəm gələcəyini görmək istəyibmiş. Yuxuda Yunanıstanda yanına getdiyi cadugər Mariyanın onu çağırdığını görən Kösəm daha sonra cadugərin ona "qaç" deməyini aydınlaşdırır. Fəqət o, kimdən, nədən qaçmalı idi? Romanın səhifələri oxucunu bir-bir bunlarla tanış edir.

**IV Murad**

Kitab oxucuya göstərir ki, heç nə olduğu kimi qalmır. Bir zamanlar kiçik bir uşaq olaraq taxta oturdulan Murad böyüyüb hər kəsin görəndə tir-tir əsdiyi qəddar bir hökmdara çevrilir. Hətta anasının da...

Burada onun haqqında bir sıra rəvayətlərə rast gəlirik. Onun gecələr saraydan çıxıb əhaliyə hücum çəkdiyi, qarşısına çıxanı öldürdüyü, hakimiyyəti dövründə küçələrdə qanın su yerinə axdığı kimi əhvalatlar zülm edən hökmdarı heç kəsin sevmədiyini göstərir. Anası da oğlundan bunun üçün qorxurdu. Kösəmin Muraddan başqa Qasım, Süleyman və İbrahim adlı oğulları da var idi, bir oğlu Mehmed isə ölmüşdü. İllər keçdikcə Kösəmin qorxduğu başına gəlmiş, IV Murad qardaşı Süleymanı, atası I Əhmədin Mahfiruzədən olan digər oğlu Bayazidi öldürmüşdü. Süleymanın ölümündən sonra Kösəm oğlu Qasım üçün narahat olmağa başlayır. Kiçik oğlu İbrahimi isə nəzərə almırdı, çünki uşaq dəli idi. IV Murad tarixdə ilk dəfə içki və tütünü qadağa etmişdi, əhali arasında eyş-işrətlə məşğul olan, tütün çəkən görəndə dənizdə boğur, ya da kəlləsini alırdı. Əhalinin ona olan nifrətindən xəbərdar olan anası özü və sağ qalan övladları üçün yeni həyat düşünməyə başlayır.

**Səfəvi-Osmanlı münasibətləri. İrəvan səfəri**

Sultan IV Murad Osmanlı tarixində uzun fasilədən sonra at belində səfərə çıxan hökmdar olmuşdu. Bu səfər isə İrəvana təşkil edilmişdi.

Əsərdə şəhərin adı Rəvan olaraq qeyd edilir. Oğlunun yaxın adamlarından biri Kösəmlə məsləhətləşib Sultanı səfərə çıxaracığına, səltənətin isə yenidən Kösəmə əmanət ediləcəyinə razılaşır. Diqqət cəlb edən məqamlardan biri də xadimlə validənin söhbətində Səfəvilər haqqında olan fikirlərdir. Qoçi bəy Sultan IV Muradı Səfəviyə doğru yönləndirəcəyini deyəndə Mahpeykər Kösəm Səfəvi ilə Osmanlının qardaş olduğunu, eyni qandan gəldiyini deyir. Bunun qarşılığında Qoçi bəy münasib bir dillə Validə Sultana Səfəvi ilə Osmanlının qardaş olduğunu, lakin imamlarının, məzhəblərinin fərqli olduğunu izah edir. Yəni kitabda sünni-şiə məsələsinə toxunulur. Səfər zamanı İrəvan hakimi Əmirgünə xan Qacar Sultan IV Muradı görərkən onun görünüşündən belə qorxmuş, İrəvan qalasını döyüşsüz təslim etmişdir. Kösəm Sultana verilən məlumatda Əmirgünə xanın şiə məzhəbindən sünni məzhəbinə keçdiyi də bildirilir. Bunun üstünə Sahibət-ül-Səltənət gülərək "adam qorxusundan imamını dəyişib" deyir. Lakin buna çox gülə bilmir. IV Murad Əmirgünənin adını dəyişib Yusif paşa elan etmiş və onu İstanbula qardaşları Süleyman və Bayazidi öldürməyə göndərmişdi. Süleymanın ölməsi ilə Kösəm Muraddan qorxmağa başlayır və oğullarını götürüb qaçmağa hazırlaşır. Yuxuda gördüyü Mariyanın ona "qaç" deməyini də buna yozur. O qızıl bir gəmidə buradan qaçmalı idi.

**Səltənəti dizə gətirən sevgi**

Mahpeykər Kösəm Sultanın keçmişində olan tək sevdiyi yunan Pidakis deyildi. Slobodan adlı arabaçı və Kamal adlı piratın da ona hiss etdiyi saf sevgisi var idi. Lakin o, güc və hakimiyyət üçün Sultan I Əhmədin arvadı olmağı seçmişdi, ömrünün son çağlarında isə bu seçimə çox peşman olmağa başlamışdı. Slobodan hələ də onun yanında arabaçı olaraq qalmışdı. Kösəm Sultan oğlu Süleymanın ölümünü təşkil edən ağaların canını da elə ona aldırır. Kamalla isə illər sonra oğlu IV Muradın əlindən qaçmaq üçün gəmixanaya etdiyi yardımları və qaçacağı gəmini görmək üçün gedəndə rastlaşır. Əsərdə yaşlı qadının uzun zaman keçməsinə baxmayaraq, hələ də Kamalı sevməsi göstərilir və o, cariyəsi Mürüvvətin sayəsində tez-tez onunla görüşməyə başlayır. Nə qədər tarixi və ya nə qədər təxəyyül məhsulu olsa da, bu məqamla müəllif istər tarixin, istərsə də təxəyyülün sevgisiz mövcud olmadığını göstərmək istəyir. Hər kəs sevə bilər, aşiq ola bilər, hətta qəlbini güc və hakimiyyət bürüyən yaşlı Kösəm də. Lakin bu çox çəkmir. Sultan IV Murad Kamalla Kösəmin cariyəsi Mürüvvəti parça-parça etdirir. Beləcə də onun gecikmiş sevgisi başa çatır. Yalnızca gecikmiş sevgisi, hakimiyyət sevgisi yox...

**İmperiyaya dəli bir ərmağan – İbrahim**

Şahzadə Qasımı da edam etdirdikdən sonra Kösəm Sultan oğlu Muraddan üz çevirir və köhnə saraya, bir zamanlar onun "qızıl saçlı anam" deyə müraciət etdiyi Səfiyə Sultanın ömrünün nəhayət tapdığı dairəyə köçür. Təbii ki, əlində qalan yeganə oğlu İbrahimlə birlikdə. Romanın sonlarında Kösəm Sultanın oğlu Qasım, sevdiyi Kamal və sadiq qulluqçusu Mürüvvətin intiqamını almaq üçün and içdiyi və oğlu IV Muradın sonuna çıxacağı göstərilir. Belə də olur. 1640-cı ildə ağır xəstəlikdən sonra Sultan IV Murad 28 yaşında ölür. Müəllif əsərində göstərir ki, Kösəm Sultan bu ölümün səbəbini əhaliyə zülm etməkdə, canlar almaqda görür. Yəni zalım hakimiyyət ayaq tutar, amma yeriməz. Hər gecə can alan, qan tökən, bəddua qazanan bir insan nə qədər fateh, güclü, yenilikçi biri olsa da, yaşamaz, hökm sürmək ona qismət olmaz. Kösəm IV Muradın övladlarının ölməsinə sevinir, sağ qalan yeganə oğlu İbrahimi min bir sıxıntı ilə qoruyur, hətta onu bir müddət sarayın buzxanasında belə saxlayır və sonda bir dəlidən hökmdar yaradır. Elə əsər də bununla bitir. Mahpeykər Kösəm Sultan Osmanlıya bir dəli ərməğan elədiyini, yenidən, ikinci dəfə bir dəlidən imperator yaratdığını deyir və bir daha Validə Sultan, Valide-i-Kəbirə, Valide-i-Müəzzəmə, Sahibət-ül-Səltənət olmağının qələbəsini qeyd etməklə roman bitir.

Ümumilikdə götürsək, tarixi roman bədii lövhələrlə möhtəşəm bir qadının sıxıntılı zamanlar içərisindəki yenilməz gücünü göstərir. Bundan əlavə, oxucuya həm də ədalət, peşmanlıq, bütün edilənlərin bir qarşılığının olması, dünyanın faniliyi və ən gözlənilmədiyi anda ən gözlənilməz hadisələrin baş verdiyini və hər zaman baş verə biləcəyini öyrədir.

## Şəfəq SAHİBLİ

***

Bir vaxt mənim üçün
ölən o gözlər,
gör, kimin arxasınca
süzülür indi?!
Arzusun muncuqtək
boynuma düzən
gör, kimin boynuna
taxılır indi?!
Bir vaxt mənim üçün
yanan o ürək,
gör, kimin oduna
yaxılır indi?!
Bir vaxt mənim üçün
ayağa duran,
gör, kimin ayağına
yıxılır indi?!

***

İldırımdan od alanım,
Doğma ikən yad olanım,
Önümdə gültək solanım,
Gəlmisən söz qılıncına!

Həsrətin ümman olub,
İllər donub an olub,
Həqiqət yalan olub,
Düşüb fikrimə düyün!

Nəğməsən bulaq oxuyan,
Ətirsən çiçək qoxuyan,
Gözümdə hana toxuyan
Məndəki yerin bəllidir!

Çəməndə çiçək kimisən,
Qönçədə bəbək kimisən,
Sən çərxi-fələk kimisən
Səbrim yetməyən dünyada.

***

Sevgi başdan yalansa,
Ürək daşdan yonulsa,
Dünya özü oyunsa,
Dolusu nə, boşu nə?

Günüm aya qarışdı,
Həyat savaş, yarışdı,
Boyun bircə qarışdı
Kəfənin nə, yerin nə?

Bu da ömrün sərt üzü,
Vurub şaxtası bizi.
Ərit içimdə buzu,
Yaza uçmağım gəlir!

***

Qan ağlayır qəmim yenə,
Dönüb canda qanım yenə,
Batıb dəryada gəmim yenə;
Diriykən ölü gəzirəm!

Bir vaxt seyrinə çıxmağa
Tükənməyən arzum vardı,
Baha ömrü ucuz satdıq,
Sonda məzar, kəfən vardı!

Bu dünyanın naxışıydım,
Nə qəribə qarğışıydım,
Gəldim, getdim, görünmədim;
Tanrının başı qarışıq idi!

Rauf QƏRİB

**SƏN GECİKMƏ**

Bəzən yaman tələsirik,
Heç bilmirik hara belə.
Tələsirik, tələskənlik
Aparsa da dara belə.
Tələsirik məchul olan,
Müəmmalı gələcəyə.
Bu günü heç yaşamırıq
Sabah yaxşı olar deyə.
Sabah olur bu gün kimi,
Yenə sabah söyləyirik.
Dünən üçün heyfslənib,
Bir də ümid eyləyirik.
Beləcənə ötür zaman.
Axı nəyə tələsirik?
Gecikirik yaşamağa,
Gecikməyə tələsirik.

**SƏN HARDAN BİLƏSƏN...**

Sən hardan biləsən nədir məhəbbət,
Bir eşqin oduna yanmamısansa...
Ayrılıq dəmində, hicran anında,
Özünü məzarda sanmamısansa...
Sən hardan biləsən - dadmamısansa
Bircə təbəssümlə xoşbəxt olmağı.
Qəribə olsa da sevənlər bilir
Günəştək saçmağı, gültək solmağı...

Sən hardan biləsən - ac olmaq nədir,
Həyatın özünə, eşqin özünə.
Həyat da sevgidir, yaşam da sevgi,
Sevdinsə görünməz dünya gözünə.

Sən hardan biləsən, hardan biləsən,
Qəriblik yaşamaq nədir sevgidə?
Necə ki eşq ilə gəlib ömrümüz,
Elə də bir ömür gedir sevgidə.

**SƏN FƏRQLİSƏN**

Sənin əsəbin də fərqlidir, fərqli,
Yanında dərdimin yuxusu gəlir.
Mənə qışqırdıqca nəfəsin ilə
Ağzından xoşbəxtlik qoxusu gəlir.

Əsəbdən titrəyən dodaqlarından,
İnan ki, qəlbimə sevinc süzülür.
Səni sevə-sevə çoxalır sevgim,
Sevdikcə sıraya sevgi düzülür.

Nə gözəl parlayır odlu gözlərin,
Bir xoşbəxt həyatdan bəhs eləyirlər.
Hirsindən göylərdə uçan əllərin,
Musiqi olmadan rəqs eləyirlər.

Sənin əsəbin də fərqlidir, fərqli,
Əsəbləş, yetər ki, susmasın dilin.
Bir anlıq əsəbin xəbərçisidir,
Xoşbəxtlik yaşadan bir neçə ilin.

**NOLA TƏRSƏ DÖNƏ DÜNYANIN «DÜZÜ»**

Nola tərsə dönə dünyanın «düzü»,
Xoşbəxtlik şərbətin içə hər insan.
Olsa da yanında əllisi, yüzü,
Könlüncə olanı seçə hər insan.

Fələyin üzündə həya, ar ola,
Dağlarda qar ola, bağda bar ola.
Hərənin yanında elə yar ola
Əl-ələ cənnətə keçə hər insan.
Bir gün də olmaya gecikmə, qaib,
Mələklər olalar şövq ilə naib.
Şeytan üzülərək baxa əcaib,
Dünyadan sevinclə köçə hər insan.

DEBÜT

# Cənnət səsləri

Ülviyyə KƏRƏMQIZI

- Bilirsən nə deyirəm? Oyan, Təbriz, qalx ayağa. Gör yadıma nə düşüb, qulaq as. Dur da dur, yatarsan sonra.

Təbriz, qardaşım, bizdə bir Sənəm qarı var idi. Oğlu müharibədən geri qayıtmamışdı. Tək yaşayırdı. Bilirdik ki, günbatanda həmişə yolun qırağında oturub bayatı deyəcək və ağacı ilə yerə oxunmayan qəribə yazılar yazacaq. Anam deyirdi ki, zamanında Sənəm qarı çox varlı bir ailənin qızı olub. Hətta kənddə onun xan soyundan gəldiyini də deyən var idi. Heç kəsin yazıb-oxumaq bilmədiyi bir vaxtda xatirələr yazıb, şeirlər deyər, maraqlı əhvalatlar danışarmış.

Anamın, atamın gəncliyi Sənəm qarının danışdığı bu hekayələrdən öz payını almışdı. Anam deyirdi ki : "Bir dəfə xanların, bəylərin hakimiyyətin gözündən düşdüyü zamanlarda Yaqutun atasıgilin də evlərinə basqın edirlər. Anası Fatma xanımın gözünün önündə əri Həsənəli xanı, gənc oğlanları Mərdanalını və Seyidi güllələyirlər. Atılan güllələrdən biri evin ortancıl qızı Zəhraxatunun sinəsindən dəyir. Gənc qız güllə dəyən kimi zərbənin təsirindən yerə yıxılır, yaylığı başından düşür, sinəsi açılır. Fatma xanım qızının açılan sinəsini yadlar görməsin deyə özünü Zəhraxatunun üstünə atır, ona sipər olur. Hadisənin gedişatına şahid olan evin sonbeşiyi Yaqutu xanın qulluqçularından biri qaçırıb gizlədə bilir. O qız böyüyür və sağ qalmaq üçün kimliyini gizlətmək məcburiyyətində qalır. Sənəm də həmin o Yaqutun törəmələrindən biri olduğunu deyir, hər dəfə danışdıqca öz keçmişi ilə həm fəxr edir, həm də təəssüflə xatırlayırdı."

Bizim uşaqlığımızın Sənəm nənəsi belə bir nəslin nümayəndəsi idi. Sonradan ailə qurmuşdu. Qızı sətəlcəmdən ölmüşdü, oğlu da müharibədən geri qayıtmadı. Səssizcə yol qırağında oturub hər dəfəsində təkrar etdiyi bayatılar hələ də yadımdadır:

Qəribin səsi gəlməz,
Yanar, nəfəsi gəlməz.
Gözü qaldı yollarda,
Nədən kimsəsi gəlməz?

Əzizim, göz nə çəkir,
Dil deyir, söz nə çəkir,
Yalov hardan bilsin ki?
Kül altda köz nə çəkir?!

Hərdən şıltaqlıq edib qışqıra-qışqıra gülüb, evinin ətrafında səs-küy salırdıq. Bilirdik ki, qapıya çıxanda hamımızın qarasınca deyinib yarıciddi, yarızarafat "Sizi yerə girəsiz, imkan verməyəcəksiz yatam?" deyə arxamızca bir-iki addım gedib, dayanardı. Sonra da dediyi sözdən peşman olub,

cibindən rəngli, şüşə konfetlərdən verib, könlümüzü alırdı. Ürəyimizə çiyələkli, almalı, nanəli konfet düşəndə özümüzü "Şirin nənə" adlandırdığımız Sənəm nənənin evinin ətrafında tapırdıq. Hamımızın evində konfetlər, hətta ondan da yaxşı təamlardan var idi. Amma heç biri "Şirin nənə"dən aldığımız o kiçik, rəngli konfetlər kimi dadlı gəlmirdi bizə. Bizlə söhbət etdiyi halda, uzun-uzun fikrə dalırdı. Gözlərində qəribə nə isə var idi. Biz onun şirinliyindən qorxduğumuz kimi, ciddiliyindən də çəkinirdik.

Çəkdiyi bu qədər əzaba baxmayaraq, biz o qadının heç zaman ağladığını görməzdik. Onun ağladığını kənddə heç kim görməmişdi. Amma bəzən səsindəki kədəri o uşaq ağlımla başa düşürdüm, nə hiss etdiyini isə indi dərk edə bilirəm. Bəlkə də, o öz əslindən, kimliyindən, müharibədən danışarkən necə həvəslə danışırdısa, dərdini də öz içində elə coşqu ilə yaşayırdı. Bir dəfə şikayət etdiyini də eşitməmişdik. Sənəm nənə öləndə də gözləyə-gözləyə öldü, Təbriz. Yoxluğunu hiss edən qadınlar onu evdə, gözü qapıya dikili vəziyyətdə tapdılar. O gündən biz də o şüşə konfetləri əvvəlki kimi sevmədik. Nə də o küçədən keçəndə heç kəsin ürəyindən qışqırmaq, gülmək keçmirdi. Neçə il keçib. Bilmirəm, indiki uşaqlar Sənəm nənənin adını eşidib, ya yox. Amma ot basmış həyət, kimsəsiz ev öz sahibini, əminəm ki, unutmayıb.

Təbriz, bizim kənddə hər iki evdən-bir bir qadın, bir gənc qız, bir övlad ata, qardaş, sevgili yolu gözləyir. Sənəm nənə bizə hər dəfəsində, sizi yerə girin, dedikcə axşam xatırlayırdım. Düşünürdüm ki, görəsən, bir insan necə yerə girə bilər?

Doğma insanın "yerə girdiyini" ilk dəfə atamda gördüm. Axşama doğru qapımıza gələn zabitlər həyətə daxil olub anamla bir neçə saat danışdılar. Onlar gedəndən sonra evdə bacımın və anamın çığırtı səslərini eşitdim. Evdəki güzgülərin üstünə ağ saldılar. Ağlaşan qadınların başında qara yaylıq, dizlərində ağappaq dəsmallar var idi. Xatırlayıram ki, atam gəlmədi. Onu bayrağa sarılmış taxta qutuda gətirdilər. Üzündən öpə də bilmədik. Bizi-bacımla atama yaxın buraxmadılar. Anam qoymadı. Mən atamı səbirsizliklə gözləyirdim, Təbriz. Bir neçə ay öncə yolladığı şəkillərə baxıb onun çiynindəki ulduzlarla fəxr edirdim. Dostlarım, yoldaşlarım mənim atam haqqında danışdığım hekayələrə həvəslə qulaq asırdılar. O hekayələrdə mənim qəhrəmanım heç zaman ölməmişdi. Onu gətirdikləri gün üzünü görə bilsəydim, bu gün gözlərini xatırlaya bilərdim. Anam mənim gözlərimi atamın gözlərinə bənzədirdi. Özünü başqasının üzündə, gözlərində görmək, özünü güzgüdə görməkdən çox fərqlidir.

O gün insanın torpağa necə girdiyini gördüm. Ondan sonra Sənəm nənəni xatırlayanda bizə yaxşı şey demədiyini, ardınca niyə konfetlə başımızı qatdığını daha yaxşı başa düşürdüm. Mən ilk dəfə qara daşa qırmızı güllərin necə yaraşdığını da atamdan sonra bildim. Atamın sinəsi boyda sinə daşı hazırladılar.

Hər dəfə atamı xatırlayanda, ya fikrə dalanda anam başımı aşağı salmağa icazə vermirdi. Onda görürdün ki, durub başımın üstündə könlümü alır. Atamsız qaldığımız ilk gündən anam bizə atamı xatırlayanda, onun üçün darıxanda səmaya baxmağı öyrətdi. Deyirdi ki, əgər nə vaxtsa ona ehtiyacınız olsa, başınızı yerə yox səmaya qaldırın. Atam "yerə girən" gündən anam bizə onu "göylərdə" axtarmağı öyrətdi.

Mən çox üşüyən biriydim , Təbriz. Bilmirəm qanım az idi, ya çox cılız idim. Amma yayda da üşüdüyümü, titrədiyimi hiss edirdim. Çox yeyirdim. Özü də hər yeməyi də sevməzdim. Anam bizə heç zaman korluq çəkdirməzdi. Adı İpək olsa da, dostlarım onu "Dözüm xala" deyə çağırırdılar. Qocalırdı, qocaldıqca da güclənirdi. Gör neçə aydır ki, burdayıq. Acmamışam, üşümürəm. Qan qoxusu insanı doyuzdururmuş. Təbriz, Dözüm xalan məni cəbhəyə yola salanda tapşırdı ki: "Ölmə. Sənin gözlərindən bir cütünü itirmişəm. Yatma. Çalış yuxusuzluğa vərdiş edəsən. Orada sənin oyaqlığın tək özünə deyil, yoldaşlarına da lazım olacaq. Azər, bir də çalış ki, mənə, geri qayıdasan. Yox əgər qayıda bilməsən, elə et ki, atan kimi səni hər düşünəndə baxışlarını səmada axtarım. Adını eşidəndə başımı aşağı salmaq istəmirəm. Bir də Azər, sağ-salamat qayıt. Salatın deyir ki, qardaşım gəlməmiş ərə getməyəcəm."

Təbriz, bilirsən niyə üzülürəm? Anama da, bacıma da verdiyim sözü tuta bilmədim. İndi düşünürəm ki, əgər mən o gün atamı tabutda görə bilsəydim, onun da gözlərində indi özümdə hiss etdiyim təəssüfü xatırlayardım. Axı o da bizə

söz vermişdi. Ən çox da mənə söz vermişdi ki, gələcək. Amma gələ bilmədi. Mən də gedə bilmədim. Bacarmadım. Əgər o gün sənə kömək etməsəydim, özümü bağışlaya bilməzdim. Əslində, sənin yaran məndən daha yüngül idi. Sən sağala bilərdin.

- Azər, mən bilirdim ki, sən mənim yanıma gələcəksən. Nə qədər taqətimi topladım ki, sənə "gəlmə" deyim. Deyə bilmədim. Görürsən, biz sənlə eyni gün doğulmuşuq. Xidməti bir bitirib geri qayıtmalı idik. Gəldik amma geri qayıda bilmədik.

- Olsun. Deməli, belə olmalı idi. Mən sevinirəm ki, anam məni də atamın yanında axtaracaq.

- Ən azından... Səni axtaran var, Azər... Məni axtaran da olmadı. Anam hansı yeməyi sevdiyimi, nəyə sevindiyimi, nəyə kədərləndiyimi də bilmədi. Mən ağlım kəsən gündən iflic olan anamı, anamın o vəziyyətinə çox dözə bilməyib vəfat edən atamı xatırlayıram. Adımı da anam qoyub. Sanki Təbriz kimi kimsəsiz, öz sevdiklərinə həsrət, sevgiyə həsrət qalacağımı bilirmiş. Mən əsgər çağırılanda anamın üzümə uzun-uzun baxdığını xatırlayıram. Başa düşürdüm ki, o edə bilmədiyi analığın nisgilini çəkir. Bizim evdən heç zaman şirin kökə iyi gəlmədi. Nə də ən sevdiyim dovğa yeməyini anamın hazırladığını xatırlamıram. Ev işlərini tam çatdıra bilmirdim. Sonuncu dəfə evimizdə bir neçə təmir işləri görməli idim, ancaq edə bilmədim. Maddi, mənəvi gücüm çatmadı. Anamı da naümid bacısına tapşırıb gəlmişdim. Bilmirəm, Azər, bilmirəm ki, mənim xəbərimi ona kim, necə çatdırdı. O, bütün xəbərləri mənim gözlərimdən başa düşməyə öyrəşmişdi. Anama qayıtmağa söz vermişdim. Qayıda bilmədim. "Dözüm xala"ya zarafatla dediyimiz sözlər başımıza gəldi. Həmişə deyirdi: "A bala, bir-birinizə bu qədər meyil salmısız, gərək sonradan da bir-birinizdən ayrılmıyasız!". Ayrılmadıq. Həyatda olmasa da, burada qəbir dostum, şəhid yoldaşım oldun.

- Təbriz, yağış başladı... Yaz yağışını yaman çox sevirəm... Həmişə aprel, may yağışı mənə nəyisə xatırladır. Bu aylar ağ çiçəklərin ayıdır... Qara torpağa ağ qırmızıdan daha çox yaraşırmış... Elə bil hiss edirmiş kimi, torpaq ətrafımızda ağ güllər yetişdirir. Bu qoxu, qan qoxusundan daha gözəldir... Artıq üşümürəm Təbriz, heç acmıram da.

Araz, Gəl bura bax. Burada iki məzar daha var. Yeni məzarlardır. Gör bir-birinə necə bənzəyirlər. Hətta, eyni gün doğulduqları kimi, eyni gün də şəhid olublar... Qəribədir. Qismətə bax...

Təbriz Turan oğlu
( 28.05.1994- 02.04.∞)
Azər Mübariz oğlu
(28.05.1994- 02.04.∞)

# Kölgələr

## Emin PİRİ

Cəlilabad rayonununda anadan olub. Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirib. Azərbaycan Dövlət Pedaqoji Universitetində magistr pilləsində təhsil alıb. 2008-10-cu illərdə cəbhə bölgəsində tağım komandiri (leytenant) kimi xidmət edib.

2013-cü ildən Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin birgə layihəsi olan Gənc Ədiblər Məktəbinin məsul katibidir. Prezident təqaüdünə layiq görülüb. Azərbaycan Yazıçılar Birliyinin və Gənclər Şurasının üzvüdür.

2014-cü ildə 2013-cü ilin yekunlarına əsasən, Gənclər və İdman Nazirliyi tərəfindən ədəbiyyat sahəsindəki uğurlarına görə "Gənclər mükafatı" ilə təltif olunub.

AYB-nin "Ən yaxşı şeir" və "Nəsimi" müsabiqəsinin qaliblərindəndir.

2015-ci ildə "Tanrının kölgəsi" adlı şeirlər kitabı işıq üzü görüb.

**H2O**

Payız...
Xəzan pıçıldayır
ağacın qulaqlarına:
“Gözlə məni yazacan”.
Sən də gözlə məni,
bir başqa qadından doyanacan...

Barmaqlarım tellərində yellənər,
yelləncəkdə yellənən
dəcəl uşaqlar kimi.
Sinəndəki cüt göyərçin
qonar dodaqlarıma
ağzımda dən varmış kimi.

Hələ,
məktəb illəri...
kimya dərsində
quruyardı boğazım
baxışlarım tutanda
çəhrayı dodaqlarını.
Əllərindən
bir ovuc su istəyən
ürəyimi oxuyardın.
Və...
Lövhəyə iri hərflərlə yazardın:
H2O...

Bu gecə yuxum gəlmədi...
Yuxum gəlmir,
barı sən gəl...
Amma barmağında bəxtin saralır,
Indi ki payız deyil.

Ölçüləri kiçildilmiş xəritədə
şəhərlərimiz əllərindən
daha yaxındı mənə.
Dayan...
Baxım görüm döyən kimdi,
ürəyim yaman döyünür.
Xoş gəlir
bu gələn,
sənsizliyə oxşayır...
Sənə demişdim də...
Sənsizlik
“Sən” “Siz” olanda başlayır...

**MƏN QÜTB SOYUĞUYAM**

Məndən baş çıxara bilmir
heç doğmaca anam belə...
Sənə də qəribə gəlir?-
nə təhər insanam belə.

Vurub öldürsən də, buyam,
bir az atəş, bir az suyam,
bir az da qütb soyuğuyam.
Şaxta,
sazaq,
donam belə!

Dönüb sənə baxır hamı,
donub...
sənə baxır hamı.
Saçlarında buz salxımı,-
nə qırılam, sınam belə.

Şəklinə səndən yaxınam,
mən öz evimi yıxanam...
belə-belə işlər, sonam,
get,
yaxşı yol, sonam...
- ...
Belə!

**ŞƏHİD OĞLUNUN DEDİKLƏRİ**

Darıxır
anamın cehizlik ütüsü
atamın biçənək ətirli
pal-paltarıyçün...
Ütüyə gəlmir ancaq
heç birisi!..

Atamdan qalanlar
sandıq vətəndaşı,
illərdir qırışmır.
Anamın əlləri qırışıb ancaq,
ütümüz də qocalıb.

Atamın pal-paltarı
cəzasını çəkir
sandıq küncündə
dərsə hazırlıqsız bir şagird kimi.

Gözləyirəm...
iki ilə,
üç ilə ...
bəlkə, nə vaxtsa...
boyum çata atama.
Geyəm paltarlarını.
yıxam özümü yerdən-yerə,
sürünəm asfalt üstdə,
bəlkə, bir az qırış qatam,
bəlkə, bir az çirkləndirəm -
sevindirəm anamın əllərini,
sevindirəm ütümüzü...

...Anamı heç elə görməmişdim
atamı gətirəndə
sıxmışdı əllərini...
camaat görməsəydi,
yumruqlardı atamı:
"Bu iki yetimə bəs kim baxacaq?!"

...Sonralar
üzümə baxıb,
saçıma əl gəzdirdi
və...
"şəhidlər ölməz" dedi...

Yayın gözü açılan kimi
anam yorğan-döşək
çırpır həyətdə.
Gözündə sevgi,
qolunda nifrət.
Çırpır
ürəyinin çırpıntısını,
çırpır atamın yoxluğunu.

...Atamın izini,
dizini döyür anam.
Sonra nəsə fikirləşib
gözünü döyür anam...

**ŞAXTA BABANIN BURNU**

Dərdin acığına
gedək
kimisə sevindirək...
Şaxta baba qurduq
həyətdə qardan.
Əlindən gələni elədi hər kəs,
kimisi can verdi,
kimisi nəfəs.
mən də yerkökündən burun düzəltdim.
Ancaq doyunca baxıb
Sevinə bilmədik yapdığımıza...
Geyimi kimi
yaşlı bir qadın
yaxınlaşıb fağır-fağır:
olar,
bu yerkökünü
nəvəmə aparım...

**DƏN**

"Sülh göyərçinləri"
adlandıran da oldu
səmamızda nərildəyən uçaqları.
Ancaq bu "göyərçinlər"
buğdaya gələnə oxşamırdı heç,
özləri göydən dən töküb
dənləyirdi
sünbül-sünbül uşaqları....

**BABAMIN ƏLLƏRİ**

Müharibə əliliydi babam,
aldığı təqaüdün qəpiklərini
gizlədərdi əlində.
"Tapın görüm, hansı əlimdədi?
Pul, tapanındı"
oynardı bizimlə.
Ancaq heç vaxt tapmadıq
qəpikləri hansı əlində gizlətdiyini.
görəsən, bilirdimi,
biz bilirik,
bir əlini müharibədə itirdiyini...

**PUŞKİNLƏ YESENİN ARASINDA**

Kəsilən günləri üst-üstə gəlsək,
Ömrümün neçənci ili eləyir?!
Ağappaq qovaqlar hayandan çıxdı,
Adamı heç nədən dəli eləyir.

"Saxla" işarəsin verir polislər,
Yenə düz keçməyib küçəni külək?!
Cibindən saralmış yarpaqlar çıxır,
Çəkir qorxusundan içini külək.

Içinə çəkilib, yığılıb sular
Day hava udmaq da havayı deyil.
Deşilib gedibdi dənizin dibi,
Üzün dimdikləyən qağayı deyil!

Hələ də arzular dumana düşüb
Yenə də ümidlər bir yol axtarır.
Bu tənha adamlar, bu tək adamlar
Qoluna girməyə bir qol axtarır.

Yolları palçığa batmış o kəndin
Baca tüstüsünə isinir bulud.
Təndirdə küt gedib bir kündə sevgi,-
Bir azdan başlayar işini bulud.

Ağappaq qovaqlar hayandan çıxdı,
Adamı heç nədən dəli eləyir.
Kəsilən günləri üst-üstə gəlsək,
Ömrümün neçənci ili eləyir?!

**MESAJ**

O qız da mesajnan atdı...
gülləsin.
Allah, bu soyuqda,
ucada nə var?!
Bu günün rəngini dəyişdi külək,
gedim..
baxım görüm...
hecada nə var?!

Sərbəst şeir kimi vurnuxur külək,
ölçülü evlərin hecası yoxdu.
Tökülən yarpaqlar çox cavan imiş,
gəzdim arasında...
qocası yoxdu.

Yağışı, küləyi kəsib gedirəm,
dilimi dişimdə kəsir son sözün.
Səni bu dünyaya tanıtdı, bəlkə
bu cılız canınla bu firon sözün.

Pəncərə döyənə oxşamır külək,
dağıtmaq istəyir evi, eşiyi.
Qafiyə xətrinə deyim:-
Aparsın
küçədə əsnəyən iti-pişiyi.

Bu Həvva qızların gözü açılıb
lap belə cənnətin bağları kimi.
Əriyib gedirəm susuz metroda
alpinist yendirən dağ qarı kimi.

O qız da mesajnan atdı...
gülləsin
Allah, bu soyuğda,
ucada nə var?!
Bu günün rəngini dəyişdi külək,
gedim..
baxım görüm...
hecada nə var?!

**DƏRDİNİ AĞACDAN AS**

Sənə atdığım subaylıq daşı
gör neçə qızın
başını yardı...

Bilmirəm,
bu daş harana dəydi,
nəyini əzdi?!
Atan
aramıza bir üzük atdı,
üzük illərimi əzdi.

Eşitdim, tufandı hər səhər-axşam,
Eşitdim, dərdimdən yaman xəstəsən.
Kimsə sənə desə dərdini çəkim
Inanma-
dərd nəm deyil,
ürək duz.
Amma  bu küləkdə
apar dərdini
mənə oxşayan o çəlimsiz
ağacın boynundan as.
Dərdin ağırdısa,
o ağacı da külək aparmaz.

**NƏ QƏDƏR, NECƏSƏN?!**

Səni sevməyin yanında
Yaşamaq heç nədi, heç nə!
Gərək səni sevəm,
Sevəm
Ürəyi şüşə qabda yox,
Elə səndə olan divəm.

Kasıb şairin anasın
Ürəyin istəyən qədər
Ağlatmağa gözlərin var.
Şeytan yoldan çıxardıb
Aldatmağa gözlərin var.

Sevə bilmədiyim o qız
Şər vaxtında qaramızca
Açıbdı göyçək ağzını
Düşək yolun qarasına
Gəzək bəxtin ağ üzünü.

Sağımda sən,
Solumda sən.
De, nə qədərsən,
Neçəsən?!
Bəlkə, o qədər sənlərdən
Birin mənimçün keçəsən?



## ÜSTÜ-BAŞI TOZLU ŞEİR

Nə olsun ki, yanaşıram
adın bilmədiklərimə.
Mən şeir yazmıram, xanım,
dadın bilmədiklərimə.

Hayandansan, haralısan,
elə də maraqlı deyil.
Heç səndən əvvəlkilər də
dünyanın maralı deyil.

Gah nazını, gah fikrini,
gah da yükünü çəkirəm.
Mən yazıq çarmıxa gedən
İsa çəkəni çəkirəm.

Vurulmuşam,
divarına
vurulan bir şəkil kimi.
Çəkirsən məni özünə
quraqlıqda çat-çat olmuş
torpaq suyu çəkən kimi.

İydə ağacı altından
qıraq ol, xatası çıxar.
Bu sakit may gecəsinin
fevral ayı səsi çıxar.

Mən şeir yazmıram, xanım,
dadın bilmədiklərimə.
Nə olsun ki, yanaşıram
adın bilmədiklərimə.

## CAN BORCU

Gəl,
döy qapımı...
yolun uzaqdı bilirəm,
əziyyət çəkmə,
sizə gətirrəm
qapımı
döy,
ürəyin döyünən qədər.

Yaşayıb güldürmədim
səni doyunca.
qoy,
ölüm...
doyunca ağladım səni.

Tanrım,
sənin də yanında
yalançı oldum,
göndərə bilmədim əmanətini.
sənə də can borcum qalıb,
nisyə dəftərinə yazarsan məni.